RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 117 (9572) 5 iyun 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Bu hələ başlanğıcdır

**PREZİDENT İLHAM ƏLİYEV ümumavropa qaz təchizatçısına çevrilən Azərbaycanın ixrac coğrafiyasını daha da genişləndirəcəyini bəyan etdi**



## Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 29-cu "Caspian Oil&Gas" və 12-ci "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində iştirak edib

- Bu gün 4 iyun tarixi, sadəcə, iyirmi il bundan əvvəl neft və qaz sərgisində "Şahdəniz" müqaviləsinin imzalanması ilə yadda qalmayacaqdır. Bu gün, həmçinin qardaş BƏƏ-dən olan "Masdar" şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi ilə də yadda qalacaq. Bu, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirir və qazıntı yanacağının uzun illər ərzində təkcə bizim üçün yox, həm də tərəfdaşlarımız üçün mühüm əhəmiyyət kəsb edəcəyini bildirir.

Beləliklə, "Şahdəniz" Azərbaycanda qaz qıtlığına son qoydu. Çünki ondan əvvəl biz təbii qazı idxal edirdik, indi onu ixrac edirik və bizim ixracımız artır, çox güman ki, bu il 24 milyard kubmetrdən artıq olacaq. Səkkiz ölkə Azərbaycandan qaz alır və Azərbaycan qaz təchizatında etibarlı tərəfdaş olduğunu bir çox ölkələrə sübut etdi. Bir neçə ay bundan öncə keçirilmiş "Cənub qaz dəhlizi"nin Məşvərət Şurasının toplantısında Avropa Komissiyası Azərbaycanı ümumavropa qaz təchizatçısı adlandırdı və bu həqiqətdir. Çünki bizim təbii qazı alan səkkiz ölkədən altısı Avropa ölkəsidir. Qaz təchizatımızın coğrafiyası, əlbəttə ki, artacaq. Hazırda öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan təbii qazına ehtiyacı olan bir neçə əlavə ölkə ilə danışıqların aktiv fazası gedir.

→ 2-5

# Xəyali Ermənistandan real Ermənistana keçid



## "Dəmir yumruq" bu dəyişmənin təkanverici qüvvəsi oldu

**Hadisələrdən göründüyü kimi, revanşistlərin önünə erməni kilsəsinin keşişləri keçib!**

**Kilsəni daim terrorçu yuvasına, gizli silah-sursat anbarına çevirən kilsə təmsilçiləri...**

*44 günlük Zəfər müharibəsində əlinə avtomat götürərək ordunu işğala ruhlandıran keşişlər də vardı.*

*Bu gün yenə də hayları yanlış yola çəkirlər.*

Amma "dəmir yumruq" işə düşən kimi əvvəlkitək qaçıb kilsədə gizlənəcəklər.

İndi isə ciblərinə pul basanlar olduğundan meydana çıxıblar.

**Qədim türk məsəlidir: meydan boş qalanda ora çaqqal sürüsü dolar.**

**Revanşistlərin yenidən Azərbaycanla müharibə aparmağa, bizdən torpaq almağa gücləri çatmaz!**

**Getdi o günlər daha!**

*Ermənistan dövlətçiliyinin xilas yolu yaxın qonşuları Türkiyə və Azərbaycanla razılaşıb, onların tələblərini yerinə yetirməkdədir!*

**Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İzmir şəhərində "EFES - 2024" çoxmillətli təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə açıq şəkildə bildirdi:**

*"Qarabağın 30 illik işğaldan sonra azad edilməsi bölgədə tarixi fürsət pəncərəsi açıb və bu fürsətdən istifadə etmək lazımdır. Erməni xalqı gələcəyini xaricdə "qəzəl" oxuyanlarda deyil, əsrlərdir birlikdə yaşadığı qonşularda görməli, anlamalı və lazım olanı cəsarətlə etməlidir".*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev də xəbərdarlığını edib!**

**"Dəmir yumruq" hazır vəziyyətdədir və gicişən baş axtarır.**

Yeganə yol sülh danışıqları ilə Azərbaycanın tələblərini ödəməkdir!

→ 9



## C.BAYDEN:

"Azərbaycan Avropada qlobal enerji təhlükəsizliyinin mühüm sütunudur"

→ 6



## R.T.ƏRDOĞAN:

"Əməkdaşlığımız Avropanın enerji təhlükəsizliyinə önəmli töhfələr verib"

→ 6

# 37 ölkə, 300 şirkət...

**Azərbaycan dünyada qlobalmiqyaslı tədbirlərə uğurla evsahibliyi edən ölkə kimi tanınır. Ölkəmizin inkişaf etmiş infrastruktura malik olması istənilən beynəlxalq tədbirin keçirilməsinə imkan verir.**

Noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər tədbirin təşkilinin Azərbaycana həvalə edilməsi də bu baxımdan təsadüfi deyil.

Bu günlərdə isə paytaxt Bakı növbəti beynəlxalq tədbirə - Bakı Enerji Həftəsinə evsahibliyi edir.

Xatırladaq ki, bu tədbir Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə 1994-cü ildə keçirilib və o vaxtdan bəri Azərbaycanın enerji sektoruna birbaşa xarici sərmayənin cəlb edilməsində çox vacib rol oynayıb. İlk olaraq "Caspian Oil&Gas" sərgisi adlanan bu tədbir neft, qaz və energetika sahəsində aparıcı peşəkarların görüş yerinə çevrilib.

İyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev bildirib ki, həmin vaxtdan bəri bu tədbirin miqyası genişlənib və artıq Bakı Enerji Həftəsi adlandırılıb. Prezidentin dediyi kimi, Bakı Enerji Həftəsi enerji siyasətinin neft, qaz, emal, ixrac, "yaşıl enerji"nin seqmentlərini əhatə edir.

BAKU ENERGY WEEK

### İmzalanan bütün müqavilələr tam həyata keçirilib

Bakı Enerji Həftəsində enerji sektorundakı aktual məsələlər müzakirə edilir. Bu platforma çərçivəsində keçirilən tədbirlər və konfranslar enerji sahəsində yeni əməkdaşlıqların qurulmasına, təcrübə mübadiləsinə və yeni inkişaf istiqamətlərinin müəyyən edilməsinə kömək edir.

→ 10

## Beynəlxalq Enerji Agentliyi Azərbaycanla COP29 çərçivəsində əməkdaşlıq edəcək

Prezident İlham Əliyev Beynəlxalq Enerji Agentliyinin (BEA) icraçı direktoru Fatih Birolu qəbul edərkən də məhz COP29-a hazırlıqla bağlı Azərbaycanda görülən işlər barədə fikir mübadiləsi aparılıb.

Söhbət zamanı ölkəmizlə Beynəlxalq Enerji Agentliyi arasında səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluq bildirilib. "Yaşıl enerji"nin inkişafı istiqamətində atılan uğurlu addımlar qeyd edilib, ölkəmizin Avropa İttifaqının enerji təhlükəsizliyinə verdiyi töhfə vurğulanıb. Əməkdaşlığın perspektivləri müzakirə olunub.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyevin Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol ilə görüşündə də COP29-a hazırlıq prosesi ilə bağlı ətraflı məlumat səsləndirilib.

→ 13

# Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı, Qızılhacılıda dövlət sərhədinin mühafizəsi yüksək səviyyədə aparılır




→ 11

# Dövlətçiliyin xilas məqamı

31 il əvvəl süqut ərəfəsində olan müstəqilliyimizi Heydər Əliyevin Qurtuluş missiyası qorudu

→ 11

# Avropada böhran səngimir

Narazı fermerlər bu dəfə traktorlarla Fransa-İspaniya sərhədini bağlayıblar

Ötən gün 3000-ə yaxın fermer Fransa ilə İspaniya arasındakı sərhədi bağlayıb. Etirazçıların əsas tələblərinə enerji qiymətlərindəki artımın qarşısını almaq və Avropa İttifaqı çərçivəsində "ərzaq suverenliyinə" nail olmaq daxildir.

Fermerlərin etirazları Fransa və İspaniya sərhədində yenidən nəqliyyatın hərəkətində xaosa səbəb olub. Koordinasiyalı hərəkətlə minə yaxın traktor Pireney adaları boyunca, qərbdə Basklar ölkəsindən şərqdə Kataloniyaya qədər səkkiz sərhəd keçidini bağlayıb.

→ 12

# Demokratiya pərdəsinə bürünmüş təcavüzkar Fransa

Xalqları ağır məhrumiyyətlərə düçar edən bu ölkənin insan hüquqlarından danışmağa haqqı yoxdur

→ 11

RƏSMİ DÖVLƏT QƏZETİ **AZƏRBAYCAN** 5 iyun 2024-cü il

# Bu hələ başlanğıcdır

## Prezident İlham Əliyev ümumavropa qaz təchizatçısına çevrilən Azərbaycanın ixrac coğrafiyasını daha da genişləndirəcəyini bəyan etdi




İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbirin moderatoru, Böyük Britaniyanın "ICA Group" şirkətinin İdarə Heyətinin məsləhətçisi **Stiven Murtay** çıxış edərək dedi:

- Zati-aliləri cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Bakı Enerji Həftəsinə xoş gəlmisiniz. Artıq 30 ildir ki, biz bu tədbiri keçiririk. Dinamik inkişafı ilə fərqlənən Bakı şəhərində toplaşdığımız bir zamanda enerji sektorunda innovasiya, tərəqqi və əməkdaşlığın artıq üç onilliyini qeyd edirik.

Bu toplantı təkcə ötən nailiyyətlərimizi ifadə etməklə kifayətlənmir, həm də sənaye sektorunu və dünyanı şəkilləndirəcək gələcək nailiyyətlər üçün körpü rolunu oynayır. Bakı Enerji Həftəsinin dünya ictimaiyyəti üçün nə qədər vacib əhəmiyyətə malik olduğunu söyləsək, mübaliğə etmiş sayılmarıq. Bu, enerjinin inkişafına, dayanıqlılığa və bizi daha parlaq, daha səmərəli gələcəyə doğru istiqamətləndirən beynəlxalq tərəfdaşlığın inkişaf etdirilməsinə davamlı sadiqliyimizin təzahürüdür.

Otuz il öncə Bakı Enerji Həftəsi Xəzər Neft və Qaz Sərgisi kimi işə başlamış və müasir müstəqil Azərbaycanın enerji sektoruna səyahətinin ilk günləri kimi xatirələrdə qalmışdır. Göründüyü kimi, bu il 30 illiyi qeyd olunan məşhur "Əsrin müqaviləsi"nin imzalanmasından bir qədər əvvəl buna ilkin olaraq təşəbbüs göstərilmişdi. O vaxtdan bəri tədbir dünyanın hər bir guşəsindən enerji ekspertləri üçün əsas toplantı mərkəzinə çevrilib, geniş silsilə mövzuları və yenilikləri əks etdirməklə əhatə dairəsini daha da genişləndirib.



İqlim dəyişikliyinə qarşı qlobal mübarizədə beynəlxalq birliyi dəstəkləmək üçün 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi cəsarətli bir addım olub. Bu mövzu Bakı Enerji Həftəsinin gündəliyində daha geniş yer tutacaq.

Azərbaycanın COP29-a evsahibliyi edən ölkə kimi seçilməsi bizi çox məmnun edib. Bu, ölkənin mütərəqqi siyasətinin və qlobal miqyasda artan nüfuzunun bir daha göstəricisidir, iqlim dəyişikliyi üzrə məsələlərin həlli, eləcə də dayanıqlılıqla bağlı təşəbbüslərdə ön sırada olmağın bizim üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha ortaya qoyur.

Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Hökumətinə, Energetika Nazirliyinə göstərdikləri dəstəyə, habelə SOCAR-a səmimi təşəkkürümüzü bildiririk. Bakı Enerji Həftəsinə verdiyimiz dəstək bu tədbirin Azərbaycanın daha parlaq, daha səmərəli gələcəyə doğru strategiyasının əhəmiyyətli bir komponentinə çevrilməsinə kömək edəcəkdir.

Təşəkkür edirəm və tədbirdə xoş vaxt keçirməyi arzulayıram.

İndi isə sözü Zati-aliləri cənab Prezidentə verirəm. Buyurun, cənab Prezident.

* * *

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Sabahınız xeyir xanımlar və cənablar.

Əvvəlcə bütün qonaqlarımızı salamlamaq istəyirəm. Azərbaycana xoş gəlmisiniz. Əvvəla, təşkilatçılara minnətdarlığımı bildirmək istəyirəm. Artıq qeyd edildiyi kimi, Xəzər Neft və Qaz Sərgisi otuz il bundan əvvəl 1994-cü ildə fəaliyyətə başlayaraq, Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynamışdır. O vaxtdan bəri bu tədbir daha böyük tədbirə çevrilib və enerji siyasətinin bütün əsas seqmentlərini - neft, qaz, kəşfiyyat və hasilat, emal və nəqliyyatı və əlbəttə ki, "yaşıl enerji"ni əhatə etdiyinə görə indi onun adı Bakı Enerji Həftəsidir.

Otuz il bundan əvvəl Azərbaycan, əlbəttə ki, başqa bir ölkə idi. Biz müstəqillik yolunda ilk addımlarımızı atırdıq və bu, çətinliklər, çağırışlar və faciəvi hadisələrlə dolu olan bir dövr idi. Əfsuslar olsun ki, 1991-ci ilin oktyabrında müstəqilliyimizin bərpası qonşu Ermənistanın təcavüzü və torpaqlarımızın, demək olar ki, iyirmi faizinin işğalı ilə müşayiət olundu.

Həmin dövrdə adambaşına düşən məcburi köçkünlərin sayına görə biz bəlkə də dünyada birinci yerdə idik və ya birincilərdən biri idik. Hər səkkiz nəfərdən biri məcburi köçkün idi. Bu, həqiqətən də, çətin dövr idi və biz humanitar fəlakətlə üzləşdik. İrəliyə getmək üçün yol yalnız investisiyaların cəlb edilməsindən ibarət idi, lakin Azərbaycan çox riskli ölkə hesab olunurdu. Söhbət təkcə Birinci Qarabağ müharibəsi və işğaldan yox, həm də daxili münaqişələrdən gedir. 1993-cü ilin vətəndaş müharibəsi, əslində, ölkəni uçuruma aparırdı.

Buraya iqtisadi çətinlikləri, min faiz səviyyəsində olan inflyasiyanı, sənayemizin durğunluğunu və enerji resurslarının qıtlığını əlavə edə bilərik. Bizdə elektrik enerjisi və təbii qaz qıtlığı var idi - bir neçə onilliklər ərzində enerji resurslarına görə məşhur olan bir ölkədə. Çar Rusiyası və Sovetlər İttifaqı dönəmində Azərbaycan bu sahədə təkcə regional yox, qlobal miqyasda lider idi. Lakin müstəqillik böyük bir enerji böhranı ilə müşayiət olundu.

Beləliklə, 1993-cü il dönüş nöqtəsi oldu. Heydər Əliyevin 1993-cü ilin oktyabrında Prezident seçilməsi ölkənin tarixində yeni səhifə açdı və söhbət təkcə ölkənin enerji seqmentindən getmir. İrimiqyaslı iqtisadi islahatlar, yeni demokratik Konstitusiyanın qəbul edilməsi, senzuranın ləğvi və əlbəttə ki, iqtisadiyyatımızın ən cəlbedici sektoru olan enerji sektoruna investisiyaları cəlb etmək cəhdləri.

Bu tədbir, əslində, ölkənin potensialının ilk beynəlxalq təqdimatı idi. Artıq qeyd edildiyi kimi, birinci Xəzər Neft və Qaz Sərgisinin keçirilməsindən bir neçə ay sonra - 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu da ölkənin transformasiyasında dönüş nöqtəsi oldu. Biz investorlarımızla çox məhsuldar münasibətlər qura bildik. Məhz bunun nəticəsidir ki, BP şirkəti otuz ildir bizim strateji tərəfdaşımızdır və bundan sonra da ən azından otuz il ərzində strateji tərəfdaşımız olaraq qalacaq. 1994-cü ildə Birləşmiş Krallıqdan BP və ABŞ-dən "Amoco" beynəlxalq neft şirkətləri konsorsiumuna rəhbərlik edirdilər və onlar bizə etibar etdilər.

Dediyim kimi, bura çox riskli bir ölkə idi, investorlar həmişə siyasi çətinliklərə və geosiyasətə qarşı həssasdırlar. Lakin onlar hökumətə və xalqa etibar etdilər. Qeyd etdiyim kimi, SOCAR və yaradılmış konsorsium arasında çox etibarlı əməkdaşlıq var idi.

Bu, məhz belə başladı və üç il müddətində "Çıraq" platformasından ilk neft hasil olundu. Bu, neft sahəsinin tarixində çox əlamətdar və rekord bir hadisə idi. Müqavilənin imzalanmasından hasilata qədər cəmi üç il vaxt ötdü və sonra Qara dəniz limanlarına gedən iki boru xətti istismara verildi. 1999-cu ildə onların hər ikisi artıq işlək idi. Sonra çox çətin relyef şəraitində və region ölkələrinin və şirkətlərinin güclü əməkdaşlığı ilə uzunluğu 1700 kilometrdən artıq olan Bakıdan Ceyhana gedən əsas neft ixrac boru kəməri ərsəyə gəldi.

Bu, bizim iqtisadiyyatımıza sanki bir nəfəs verdi və bizim iqtisadiyyatımızın necə inkişaf etməsinə nəzər salsanız, onun enerji siyasətimizlə koordinasiyasını görərsiniz. Sonra Azərbaycan özünü artıq etibarlı tərəfdaş kimi sübut etdi və iqtisadiyyatımızın müxtəlif sahələrinə və əlbəttə ki, enerji sektoruna əlavə investisiyalar yatırıldı.

Bu gün 4 iyun tarixi, sadəcə, iyirmi il bundan əvvəl neft və qaz sərgisində "Şahdəniz" müqaviləsinin imzalanması ilə yadda qalmayacaqdır. Bu gün, həmçinin qardaş BƏƏ-dən olan "Masdar" şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi ilə də yadda qalacaq. Bu, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirir və qazıntı yanacağının uzun illər ərzində təkcə bizim üçün yox, həm də tərəfdaşlarımız üçün mühüm əhəmiyyət kəsb edəcəyini bildirir.

Beləliklə, "Şahdəniz" Azərbaycanda qaz qıtlığına son qoydu. Çünki ondan əvvəl biz təbii qazı idxal edirdik, indi onu ixrac edirik və bizim ixracımız artır, çox güman ki, bu il 24 milyard kubmetrdən artıq olacaq. Səkkiz ölkə Azərbaycandan qaz alır və Azərbaycan qaz təchizatında etibarlı tərəfdaş olduğunu bir çox ölkələrə sübut etdi. Bir neçə ay bundan öncə keçirilmiş "Cənub qaz dəhlizi"nin Məşvərət Şurasının toplantısında Avropa Komissiyası Azərbaycanı ümumavropa qaz təchizatçısı adlandırdı və bu, həqiqətdir. Çünki bizim təbii qazı alan səkkiz ölkədən altısı Avropa ölkəsidir. Qaz təchizatımızın coğrafiyası, əlbəttə ki, artacaq. Hazırda öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan təbii qazına ehtiyacı olan bir neçə əlavə ölkə ilə danışıqların aktiv fazası gedir.

Dəfələrlə dediyimiz kimi, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. İdxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb. Bunun nəticəsidir ki, biz bu gün bərpaolunan enerji sahəsində növbəti sürətli inkişafın şahidiyik.

Bir az sonra iştirak edəcəyimiz mərasim haqqında danışarkən qeyd etdim ki, bu, sadəcə, başlanğıcdır. Yeri gəlmişkən, ötən ilin oktyabrında "Masdar" şirkəti 230 meqavat gücündə günəş-elektrik stansiyasını istifadəyə verib. İndi isə daha 1 qiqavat enerji həcmi əlavə edilir.

Hazırda iki layihə işlənilməkdədir - onlardan biri inşaat mərhələsindədir, digərinin tikintisi isə tezliklə başlanacaq. Bununla da Azərbaycanın bərpaolunan enerji potensialı 2 qiqavata yaxın olacaqdır. Buraya təkcə günəş və külək enerjisi daxildir. Qarabağ və Şərqi Zəngəzurda hidroelektrik stansiyalarla bağlı gördüyümüz işləri əlavə etsək, görərik ki, 2027-ci ilədək 2 qiqavat həcmində bərpaolunan enerjinin əldə edilməsi tamamilə real hədəfdir. Bir daha təkrar edirəm ki, bu, sadəcə, başlanğıcdır.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı var. 2020-ci ilin noyabrında həmin ərazilər azad ediləndən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyalar istifadəyə verilib. 3-5 il ərzində bu rəqəm 500 meqavata çatacaqdır. Beləliklə, bərpaolunan enerjinin 1 qiqavat həcmi bizə yarım milyard kubmetr qaza qənaət etməyə imkan verəcək ki, bazarın bu qaza ehtiyacı var və bu ehtiyac davam edəcəkdir.

Bu gün, həqiqətən də, əlamətdar gündür. Bakı Neft və Qaz Sərgisində qaz müqaviləsinin imzalanmasından 28 il sonra, 1 qiqavat həcmində bərpaolunan enerji ilə bağlı artıq imzaladığımız müqavilələr nəticəsində bu gün təməlqoyma mərasimi baş tutacaqdır. Artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır, çünki potensialımız nəhəngdir. Bizim tərəfdaşlarımız qlobal səviyyədə aparıcı şirkətlərdir və dediyim ki, "Masdar" "yaşıl enerji"yə keçid sahəsində ən öndə gedən şirkətdir.

Hesab edirəm ki, BƏƏ-dən bir il sonra Azərbaycanın COP29-a evsahibliyi etməsi heç də təsadüf deyil. BƏƏ-nin bizə ötürdüyü miras olduqca dəyərlidir. Birincisi, mən dostum nazir Sultan əl-Cabiri təbrik etmək istəyirəm və salamlarımı qardaşım, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zahid Əl-Nəhyana çatdırmağı xahiş edirəm. Həmçinin COP istiqamətində irəlilədiyimiz bu mürəkkəb yolda qardaşımın dostluğuna, tərəfdaşlığına və dəyərli tövsiyələrinə görə təşəkkürümü bildirirəm.

Bu, asan iş deyil, lakin biz buna hazırıq. Dəfələrlə dediyim kimi, neft və qaz ehtiyatlarına sahib olduğumuza görə bizi heç kəs günahlandıra bilməz. Bunu bizə Allah yetirib. Bizim işimizə bu ehtiyatların mövcudluğu əsasında deyil, onlardan hansı şəkildə istifadə etdiyimizə görə qiymət verilməlidir. Biz bu sərvəti müxtəlif vasitələrlə cəmiyyətə yönəltmişik, biz inklüziv cəmiyyət qura bilmişik, biz yoxsulluğu 50 faizdən 5 faizə endirə bilmişik, biz xarici borcumuzu təxminən 100 faizdən 7,7 faizə endirməyə müvəffəq olmuşuq.

Yəni bizə qiymət verilən zaman bütün bu amillər nəzərə alınmalıdır. Bununla yanaşı, COP-a evsahibliyi etmək kimi məsuliyyətli vəzifəni üzərimizə götürərkən biz bunun həm üstünlüklərini, həm də müəyyən çətinliklərini tam şəkildə dərk edirik. Ancaq biz bu məsələyə sadiqik.

Azərbaycanda iqlim dəyişikliyi Xəzər dənizinin sahilinə nəzər salarkən görünür. İldən-ilə biz dənizin geri çəkildiyinin şahidi oluruq və bunun səbəbi iqlim dəyişikliyi və insanların qeyri-rasional fəaliyyətidir. Çünki Xəzər dənizini qidalandıran mənbə çaylar sərhədlərimizin hüdudları kənarındadır. Bizim bununla bağlı məsuliyyətimiz sıfra bərabərdir və heç bir ciddi tədbirlər görülməzsə, biz böyük bir fəlakətlə üzləşəcəyik. Biz dənizi əlavə su həcmləri ilə təmin etmək üçün yeni bəndlər və su toplanması üçün anbarlar inşa edirik. Lakin Xəzər dənizini qidalandıran əsas mənbələr Azərbaycanda deyil.

İqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır. Biz proaktiv addımlar atdıq və hazırda tərəfdaşlarımızla birgə çalışırıq. Biz BƏƏ və növbəti COP-a evsahibliyi edəcək Braziliya ilə birlikdə "Troyka" təsis etmişik. Qoşulmama Hərəkatının keçmiş sədri qismində biz 120 ölkə ilə birlikdə bu təsisat və Avropa İttifaqı arasında körpülərin qurulmasına çalışırıq. Avropa İttifaqına 10 üzv dövlət ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Biz hazırda inkişafda olan kiçik ada dövlətləri ilə fəal işləyirik. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılmasını planlaşdırırıq.

Azərbaycan üçün iqlim dəyişikliyi problemdir, onlar üçün isə bu, ekzistensional təhlükədir. Beləliklə, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə və eyni zamanda beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq. Hesab edirəm ki, COP29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edə biləcəyimiz ən böyük nəticə qarşılıqlı ittihamlara son qoyulması olacaqdır. Biz baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməli, iddialardan əl çəkməli və diqqətimizi övladlarımız və nəvələrimizin yaşamağa davam edəcəyi bu planetdəki həyatla bağlı gündəliyimizə yönəltməliyik.

Xanımlar və cənablar, bir daha Azərbaycana xoş gəlmisiniz. Bu gün, həqiqətən, tarixi bir gündür. Artıq qeyd etdiyim kimi, iyunun 4-ü tariximizdə "Şahdəniz" müqaviləsinin imzalanması, həmçinin yaşıl keçidlə bağlı təməlqoyma mərasimi ilə yadda qalacaqdır. Əlbəttə ki, bu vacib toplantı hər zaman yeni ideyalar, yeni təmaslar, yeni müqavilələr ilə nəticələnir və əminəm ki, budəfəki Bakı Enerji Həftəsində mühüm nəticələr əldə ediləcək.

Sizə ən xoş arzularımı çatdırır və fürsətdən istifadə edərək, hər birinizi bu ilin noyabrında COP29-da qonağımız olmağa dəvət edirəm.

Diqqətinizə görə sağ olun.

* * *

Sonra Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar Prezident Rəcəb Tayyib Ərdoğanın Bakı Enerji Həftəsi ilə bağlı məktubunu oxudu.

* * *



Tədbirdə çıxış edən **Alparslan Bayraktar** dedi:

- Cənab Prezident Əliyev.

Xanımlar və cənablar.

Möhtərəm qonaqlar.

Bu gün burada sizin qarşınızda çıxış etmək böyük şərəfdir. Bu unikal tədbir, düşünürəm ki, bizim hamımız üçün xüsusi bir fürsət təklif edir, sıx əməkdaşlığı, dialoqu gücləndirir, eyni zamanda daha dayanıqlı enerji gələcəyini təmin etməyə kömək edir. Eyni zamanda mən Azərbaycan Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə, Azərbaycan hökumətinə, Energetika Nazirliyinə və SOCAR-a bu cür gözəl tədbiri təşkil etdiklərinə görə səmimi-qəlbdən təşəkkür edirəm.

Bu gün enerji aləmi, bildiyiniz kimi, çox mühüm istiqamətdə inkişaf etməkdədir. Hazırda dünyada bu sahədə dərin transformasiya getməkdədir. Buna istiqamət, təkan verən texnologiya sahəsindəki dəyişikliklər və inkişafdır. Buna iqlim dəyişikliyi ilə bağlı təxirəsalınmaz addımların atılması da kömək edir. Odur ki, enerji təchizatını təmin etmək hər gün getdikcə çətinləşməkdədir. Xüsusilə də davamlı mübarizələrin, risklərin olduğu dövrdə bu, belədir. İqlim dəyişikliyi, pandemiya, təchizatdakı fasilələr və əmtəə mallarının qiymətinin artması, xərclərin çoxalması - sərmayə xərcləri, geosiyasi risklər, regional münaqişələr - sadəcə, son münaqişələrdən bir neçəsidir. Bütün bunların hamısı isə qlobal iqtisadiyyatın dekarbonizasiyaya ehtiyacı olduğu bir dövrdə baş verməkdədir. Düşünürəm ki, buna nail olmağın yeganə yolu fundamental dəyişikliklərin aparılması, siyasətlərin həyata keçirilməsi, əlbəttə ki, nəzərəçarpacaq miqdarda investisiyalar vasitəsilə mümkündür.

Türkiyə bu gün digər ölkələrdə olduğu kimi, bu sahədə də böyük addımlar atmaqdadır və enerji təhlükəsizliyini gücləndirməyə çalışır. Bizim enerji planımızda "2050-ci ilədək 0 itki" hədəflərinə çatmaqla bağlı maddələr yer almaqdadır. Bunların arasında ən böyük vəzifələrdən biri enerji resurslarımızı şaxələndirmək və enerji ilə bağlı yüksək tələbatı ödəmək, eyni zamanda asılılığımızı azaltmaq və sıfır hədəflərinə doğru irəliləməkdir.

Bütün bunların öhdəsindən gəlmək üçün biz əsas diqqətimizi altı başlıca istiqamətə yönəltməkdəyik. Ən birincisi, bərpaolunan enerji potensialımızdan faydalanmaqdır. Belə ki, hazırda bu, bizim ümumi qoyuluş gücümüzün 53 faizini təşkil etməkdədir. Lakin bizim məqsədimiz bunu 60 qiqavata çatdırmaqdır. Buraya eyni zamanda kiçik paylaşımlı, miqyaslı və mərkəzləşdirilmiş layihələr aiddir.

İkincisi, bizdə enerji səmərəliliyidir. Bu yaxınlarda biz ikinci milli enerji səmərəliliyi üzrə tədbirlər planını 2030-cu illər üçün elan etmişik.

*Ardı 3-cü səh.*

# Bu hələ başlanğıcdır

## Prezident İlham Əliyev ümumavropa qaz təchizatçısına çevrilən Azərbaycanın ixrac coğrafiyasını daha da genişləndirəcəyini bəyan etdi

*Əvvəli 2-ci səh.*

Burada məqsədimiz 20 milyard dollar investisiyanı enerji səmərəliliyi layihələrinə cəlb etməkdir. Biz təbii qazdan keçid yanacağı kimi istifadə etməyi qarşıya məqsəd qoymuşuq. Eyni zamanda, enerji balansımıza nüvə enerjisini, hidrogen, akkumulyator və digər enerji növlərini əlavə etmək istəyirik. Nəhayət, əsas məqsədimiz təmiz enerji ilə bağlı texnologiyanın inkişaf etdirilməsidir. Burada eyni zamanda birbiri ilə əlaqəli olan üç sahəni qeyd etmək istəyirik. Bu sahələrə investisiyanın cəlb olunmasına ehtiyac var. Ən vacibi, güclü enerji infrastrukturu yaradılması çox önəmlidir. Bu, əsas etibarilə energetika, qaz, eyni zamanda rəqabətədavamlı enerji bazarını rəqəmsallaşdırmaq üçün önəmlidir.

Enerji təhlükəsizliyinə nail olmaq bizim qarşımızda duran böyük məqsəddir. Heç bir ölkə bunu təkbaşına əldə edə bilməz. Bunun üçün dayanıqlı regional əməkdaşlıq zəruridir. Bildiyiniz kimi, regionda neft, qaz, bərpaolunan enerji sahələrində güclü potensial var. Biz birlikdə çalışmaqla, sinerji yaratmaqla, düşünürəm ki, bu resurslardan daha səmərəli şəkildə faydalana və bundan daha çox yararlana bilərik.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr bu baxımdan sıx əməkdaşlığa dair çox parlaq bir nümunədir və bu, göstərir ki, biz bu yolla necə böyük faydalar əldə edə bilərik. Bizim əlaqələrimiz tarixi, strateji əlaqələrə əsaslanır. Enerji sektoru, əlbəttə ki, bizim qarşılıqlı əlaqəmizin əsas dayağını təşkil etməkdədir. Bunların arasında Bakı-Tbilisi-Ceyhan boru kəmərini və digərlərini qeyd edə bilərəm. Əlbəttə ki, bu, qlobal neft bazarı üçün çox önəmlidir. Xüsusilə də "Cənub qaz dəhlizi" bu baxımdan regional əməkdaşlıq üçün çox önəmlidir. Bu strateji təşəbbüs nəinki Türkiyənin enerji təhlükəsizliyini artırıb, eyni zamanda Avropanın enerji təhlükəsizliyini və xalqlarımız arasında geosiyasi əlaqələri gücləndirib.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə bu yaxında imzalanan saziş təbii qaz sahəsində əlaqələrimizi daha da gücləndirib. Biz mövcud təbii qaz təchizatını Türkiyə bazarına və Türkiyə vasitəsilə Avropa bazarına çatdırılması ilə bağlı müqavilə imzalamışıq. Bu gün səhər bununla bağlı kommersiya sazişi imzalamışıq.

Biz Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə sıx əməkdaşlıq edirik. Məqsədimiz burada - Naxçıvan ilə Türkiyə arasında qarşılıqlı enerji bağlantısı imkanlarını artırmaqdır. Bu investisiyaların yekunlaşdırılması ilə daha çox yeni "yaşıl enerji"ni təmin edə və bunları Türkiyə bazarına nəql edə bilərik.

Çıxışımı yekunlaşdırmamışdan əvvəl bildirmək istəyirəm ki, Türkiyə bu istiqamətdə enerji layihələrinin regionda əsas vasitəçisi kimi çıxış edir. Belə ki, Türkiyə Şərq ilə Qərb arasında unikal mövqedə yerləşir. Düşünürəm ki, regional əməkdaşlığı daha da təşviq etməklə, enerji təhlükəsizliyini prioritet kimi görməklə biz dayanıqlı və dinamik enerji landşaftı qura bilərik ki, bu da gələcək nəsillərə xidmət edə bilər.

Sonda, cənab Prezident, mən tam əminəm ki, Azərbaycan qarşıdan gələn COP29 konfransına evsahibliyini yüksək şəkildə həyata keçirəcək, iqlim dəyişikliyi ilə bağlı məqsədə çatmaqda böyük uğurlar əldə edəcək.

Mən sizin hamınıza çox gözəl, uğurlu həftə arzu edirəm. Sağ olun.

* * *

Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri **Sultan Əhməd Əl-Cabir** çıxış edərək dedi:

- Əssalamu əleykum. Sabahınız xeyirli olsun, hər kəsi salamlayıram.



Zati-aliləri, əziz həmkarlar, xanımlar və cənablar.

Həqiqətən də bu gün bu qədər sayda yaxın dostların, tərəfdaşların yanında - Bakıda olmaq bizim üçün böyük məmnuniyyətdir. Düşünürəm ki, bu, olduqca çox mühüm toplantıdır və bu fürsətdən istifadə edərək, mən sizin qarşınızda çıxış edirəm. Qeyd etdiyim kimi, xeyli sayda yaxın dostlarla, tərəfdaşlarla biz burada əhatə olunmuşuq.

İcazənizlə, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Zati-aliləri Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ən xoş arzularını, salamlarını Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə çatdırıram. Eyni zamanda Azərbaycan xalqına onun salamlarını çatdırıram. Bu fürsətdən istifadə edərək, mən bizim SOCAR-dan olan həmkarlarımıza təşəkkür etmək istəyirəm. Eyni zamanda Bakı Enerji Həftəsinin təşkilatçılarına öz təşəkkürümü bildirirəm. Olduqca mühüm bir həftədir. Eyni zamanda bu mühüm tədbirdə iştirak fürsəti yaratdığınıza görə sizə təşəkkür etmək istəyirəm.

Bu il, əlbəttə ki, Azərbaycan üçün olduqca xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan COP29-a evsahibliyi etməyə hazırlaşır. Hazırkı COP prezidenti olaraq Birləşmiş Ərəb Əmirliyi COP29-un sədrliyi ilə sıx əməkdaşlıq etməyə davam edəcək. Əlbəttə ki, burada biz həmkarlarımızla və sədrlərlə daha yaxın əməkdaşlıq etməyə çalışacağıq. Biz bu fürsətdən istifadə edərək bütün ölkələrə, maraqlı tərəflərə üzümüzü tutaraq deyirik ki, onlar COP29-un heç bir şübhəyə yer qoymayan orqan olmasını təmin etməyə dəstək versinlər. Əlbəttə, bunlar hamısı Dubayda əldə olunan nəticələrin davamı kimi təmin olunacaqdır.

Zati-aliləri, həmkarlar, mənim əziz dostlarım, COP28 həqiqətən də Birləşmiş Ərəb Əmirliklərinin konsensusunda böyük bir tarix yazmışdır. Belə ki, Paris Sazişi imzalanandan indiyədək iqlim sahəsində böyük nailiyyətlərin əldə olunması ilə bağlı ətraflı ən mühüm nailiyyətlər dəstini ortaya qoymuşdur. Çox mürəkkəb, çətin geosiyasi fonda biz sübuta yetirdik ki, həqiqətən də, çoxtərəflilik mövcudluğunu qoruyub saxlamaqdadır və biz nikbinliyi təşviq etmişik. Eyni zamanda biz bir daha sübut etdik ki, çoxtərəflilik hələ də səmərəli şəkildə həyata keçirilə bilər. Faktiki olaraq deyərdim ki, çoxtərəflilik hələ də canlıdır.

Biz bu məqsədlə dünyanı bir araya gətirdik. Belə ki, temperatur artımını 1,5 dərəcədə normal səviyyədə saxlamaq üçün onun praktiki yolları ətrafında bütün dünyanı bir yerə topladıq. Buna paralel olaraq, dayanıqlılığı təmin etmişik, sosial-iqtisadi inkişafı hər kəs üçün təmin etməyi bacarmışıq. Biz proaktiv şəkildə sənayeni, xüsusilə də neft-qaz sənayesini buraya cəlb etmişik ki, onlar bu həllərə dəstək versinlər. Neft-qaz sektoru, sadəcə, bu həllin bir hissəsi deyil, mən deyərdim ki, faktiki olaraq bu həllərdə aparıcı rola malikdir. Bu məqsədlə biz çox aydın ambisiyalı hədəflər müəyyən etmişik. Məqsədimiz 2030-cu ilədək bərpaolunan enerji potensialını üç dəfə artırmaqdır. Böyük məmnuniyyətlə deyərdim ki, Zati-aliləri, cənab Prezident də qeyd etdiyi kimi, Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan hazırda üç yeni bərpaolunan enerji layihəsinin təməlqoyma mərasimini qeyd edəcəkdir. Biləsuvar və Neftçala Günəş-elektrik stansiyaları, Abşeron-Qaradağ külək layihəsi ilə birlikdə Azərbaycanın artmaqda olan enerji ehtiyaclarını təmin etmək məqsədilə 1 qiqavat təmiz enerji hasil edəcək.

Bütün bunlar faktiki olaraq, Birləşmiş Ərəb Əmirliklərinin tərəfdaşlıq tarixinə yazılmaqdadır. Belə ki, burada məqsəd bu ölkənin yaşıl inkişafını, artımını gücləndirmək və Dayanıqlı İnkişaf Məqsədlərini qlobal şəkildə təşviq etməkdədir. Qeyd etmək istəyirik ki, bu cür praktiki tərəfdaşlıqlar bizim bu sahə üzrə öhdəliyimizi bir daha nümayiş etdirir, eyni zamanda bizim səmimi niyyətlərimizi və bu sahəyə olan həqiqi marağımızı bir daha ifadə edir. Məqsədimiz burada yaşıl artım gündəliyini inkişaf etdirməkdir.

Həmkarlar, biz əlbəttə ki, hər bir maraqlı tərəfi bu prosesə cəlb etməli və bu yolla maksimum enerji, fəallıq, səy göstərmələrini təmin etməliyik. Mən düşünürəm ki, bu, COP prezidentliyinin, "Troyka"nın əsasında duran bir düşüncədir. Belə ki, COP28, COP29 və COP30-u kompleks şəkildə bir araya gətirməkdə, əlaqə yaratmaqda məqsəd milli öhdəlikli töhfələrlə bağlı növbəti raundlarda hökumətin ambisiyalı fəaliyyətinə dəstək verməkdir. Burada məqsədimiz odur ki, bunları səmərəli şəkildə həyata keçirək. COP29-dan sonrakı məqsədimiz COP30 üçün körpü rolunu oynamaqdır.

Hökumətlər tərəfindən həyata keçirilən fəaliyyətlərlə yanaşı, biz əlbəttə ki, özəl sektordan, sənaye sektorundan addımların atılmasını gözləyirik. Əlbəttə ki, burada heç kəs istisna oluna bilməz, heç kəs kənarda oturub gözləyə bilməz. Mən bu fürsətdən istifadə edərək, SOCAR-ın göstərdiyi səyləri alqışlamaq istəyirəm. Mən deyərdim ki, SOCAR COP28-də həyata keçirilən "Neft və Qazın Dekarbonizasiyası Xartiyası"na qoşulan ilk milli şirkətlərdən biridir. Biz bu gün "Neft və Qazın Dekarbonizasiyası Xartiyası"na baxdıqda görürük ki, hazırda bunlar böyük paya sahibdirlər. Hazırda sənayenin 40 faizindən çoxunun 2030-cu ilədək metan tullantılarının səviyyəsini sıfra, 2050-ci ilədək və ondan əvvəl isə xalis sıfra endirməsi öhdəliyini götürməsini təmin etmişik. Hələ də bunu imzalamayanları bu təşəbbüsə qoşulmağa dəvət edirəm. Qısa müddət ərzində kütləvi müsbət təsir yaratmaq üçün sizin gücünüz, resurslarınız və texnologiyalarınız var.

Zati-aliləri, xanımlar və cənablar, bu cür cəsarətli addımları atarkən biz hər zaman praqmatik, real və səmimi olmalıyıq. Bu, sırf bizim daxilimizdən gəlməlidir. Bu, bizim içimizdə olan bir şeydir ki, biz bunları, əlbəttə, COP28-də həyata keçirmişik. Məhz ona görə də bu cür gözlənilməz nəticələrə nail olmuşuq. Odur ki, mən hər kəsə üzümü tutaraq deyirəm ki, müsbət olmağa davam edin, eyni zamanda praqmatik olmağa davam edin. Biz bunu da etiraf etməliyik ki, enerji keçidi müxtəlif yerlərdə müxtəlif templərlə baş verəcəkdir. Bu, faktiki olaraq bu şəkildə baş verməkdədir. Biz bu reallığı qəbul etməliyik. Qeyd etdiyim kimi, enerji keçidi müxtəlif məkanlarda müxtəlif templərlə baş tutacaqdır. Hər bir sənayenin özü üçün məxsusi həlləri olmalıdır. Əlbəttə ki, heç kəs üçün biz burada eyni həlli tətbiq edə bilmərik. Odur ki, artan enerji tələbatını qarşılamaq üçün bizim hər cür enerji mənbəyinə ehtiyacımız var. Məsələn, bu münasibətlə mən istərdim ki, məlumat mərkəzlərinin artımına diqqət yetirək. Belə ki, bunun genişlənməsinə təkan verən süni intellektin inkişaf etməsidir. Bildiyiniz kimi, hazırda 1600 məlumat mərkəzi mövcuddur. Lakin real proqnozlara əsasən, bu rəqəm 2030-cu ilədək 1600-dən 3000-nə çatacaq. Bütün bunlar, əlbəttə ki, əlavə olaraq minimum 150 qiqavat qoyuluş gücü tələb edir. Bunlar üçün eyni zamanda illik 200 milyard kubmetr təbii qaz tələb olunur. Bunlar, əlbəttə ki, bərpaolunan enerji ilə yanaşıdır. Məqsəd burada enerji ilə bağlı ortaya çıxan bu boşluğu aradan qaldırmaqdır.

Burada dəfələrlə praqmatik, real əsaslara qayıtmaq sözlərini ifadə etdik. Burada nəsillər, sadəcə, tənliyin bir hissəsidir. Biz, əlbəttə ki, onların ehtiyatlarını yaxşı başa düşürük. Dayanıqlı, sabit infrastrukturun olması, əlbəttə ki, çox önəmlidir. Belə ki, bunlar istehsal olunan enerjinin nəqli üçün böyük rola malikdir. Süni intellekt, hamımıza məlum olduğu kimi, enerji tələbatına böyük təkan verən amillərdən biridir. Eyni zamanda süni intellekt emissiyaların azaldılması üçün səmərəliliyə təkan verən digər bir qüvvədir. Faktiki olaraq, süni intellektin inkişafı deyərdim ki, gələcəyimizi formalaşdıran meqatendensiyalardan sadəcə biridir.

Süni intellektin dinamik inkişafı enerjiyə keçid prosesini sürətləndirməklə yanaşı, bütün bunları məsuliyyətli və nizamlı şəkildə həyata keçirməklə ortaya yeni çıxan bazarların yüksəlişi fonunda olduqca çox önəmlidir. Bunlar, əlbəttə ki, meqakeçidlərdir, biz bunları daim nəzərdə saxlamalıyıq. Süni intellekt və enerji arasında əməkdaşlıq nə qədər sıx olarsa, bu o deməkdir ki, daha çox həllər olacaq. Bu həlləri kəşf etməklə dekarbonizasiya edilmiş inkişafı hər yerdə daha dərindən öyrənə bilərik.

Hörmətli həmkarlar, normal sürətlə gedən inkişaf ancaq maliyyə vasitələrinə çıxışla təmin oluna bilər. Burada, əlbəttə ki, mən xeyli həcmdə maliyyə vəsaitindən danışıram. Xüsusilə də qlobal mənbələrlə bağlı bunu qeyd etmək istəyirəm. Faktiki olaraq, mən belə bir faktdan qürurlanıram ki, 100 milyardlıq iqlim maliyyə öhdəliyi nəhayət qarşılanıb. Lakin mən düşünürəm ki, təminatlılıq, çıxış imkanlarının yaradılması, bütün qiymətlərin sərfəliliyinin təmin edilməsi üçün daha çox maliyyə vəsaitinə ehtiyac var. Bir daha təkrarlayıram ki, beynəlxalq maliyyə institutları, çoxtərəfli inkişaf bankları bu baxımdan böyük rol oynaya bilər. Belə ki, onlar yeni ortaya çıxan və inkişaf etməkdə olan bazarlara daha çox investisiya cəlb olunması baxımından önəmlidirlər, o cümlədən bir daha qeyd edirəm ki, inkişaf etməkdə olan bazarların investisiya ehtiyaclarını qarşılamaq üçün çox güclü mexanizm rolunu oynayırlar. Düşünürəm ki, özəl sektor bu baxımdan öz səylərini gücləndirməli və milyardları trilyonlara çevirməyə səy göstərməlidir.

COP29 indiyədək digərlərindən fərqli olaraq bu məsələyə xüsusi diqqət yetirəcəkdir və Birləşmiş Ərəb Əmirlikləri yeni innovativ həllərin kəşf olunması prosesinə davam edəcək. "Altira"nı misal göstərmək istəyirəm, COP28 çərçivəsində 30 milyard dollarlıq katalitik iqlim investisiya fonduna start verilmişdir. Bu, sadəcə, həmin həllərdən biridir və innovativ həllərin nə cür nəticələrə gətirib çıxarmasına da bir nümunədir. Bu, xüsusi şəkildə hazırlanmış və ehtiyaclar nəzərə alınaraq yaradılmış fonddur. Belə ki, 200 milyard dollardan çox investisiya növbəti 6 il ərzində təmin olunacaqdır. Düşünürəm ki, bu fond özlüyündə bir örnəkdir və daha geniş maliyyə imkanlarına çıxış əldə etmək üçün bunları daha dərindən öyrənməliyik.

Zati-aliləri, nümayəndələr, həmkarlar, dostlar, xanımlar və cənablar, hazırda biz indiyədək gözlənilməyən çətinliklərlə üz-üzəyik. Bütün bunlara rəğmən, bu çətinliklər arasında bənzəri olmayan iqtisadi fürsətlər, imkanlar yatır. Bu, bizə imkan verir ki, gələcəyimizi yenidən müəyyən edək, dayanıqlılıq trayektoriyasına doğru işlərimizi daha düzgün tənzimləyək. Dayanıqlı iqtisadiyyata keçid, sadəcə, emissiyaların azaldılması ilə bağlı deyil, bu, özündə yeni iş yerlərinin yaradılması, sağlamlığın yaxşılaşdırılması və dünyanın bir çox yerlərində milyardlarla insanın həyat keyfiyyətinin yaxşılaşdırılması deməkdir. Bu eyni zamanda ədalət, bərabərlik və dünya üçün bir vəd deməkdir. Belə ki, burada yaşayan hər bir uşaq, - istər Şimalda, yaxud da qlobal Cənubda yaşasın, - onlara daha çox inkişaf etməyə imkan yaradır. Bu, həmrəylik, birlik deməkdir. Bu, sadəcə, ittiham etmək deyil. Kollektiv olaraq bizim üzərimizə böyük bir vəzifə düşür. Biz birləşməli, birlikdə çalışmalıyıq. Birlikdə çalışmalıyıq ki, hər bir uşaq harada doğulmasından asılı olmayaraq, istər Şimalda, yaxud da ki, qlobal Cənubda doğulsun, onların inkişaf etmək fürsətləri, imkanları olsun. Bizim üzərimizə düşən vəzifə, məsuliyyət, cavabdehlik budur ki, biz bunları təmin edə, gerçəkləşdirə bilək. Bu, hər bir xalqı addım atmağa çağıran, hər bir sənayeni, hər bir cəmiyyəti, icmanı və faktiki olaraq, hər bir fərdi daha çox səy göstərməyə, sərhədləri, nəsilləri aşan bu hədəfə xidmət göstərməyə edilən bir çağırışdır. Düşünürəm ki, bunu etməmək üçün heç bir səbəb yoxdur. Odur ki, biz yeni texnologiyaları qəbul etməli, əməkdaşlığı daha çox aşılamalı və transformativ siyasətliliklə bağlı öhdəliyimizə sadiq qalmalıyıq ki, yaşadığımız dünyanı qoruya bilək və hər kəs üçün firavanlığı təmin edək. Hamınızı cəsarətlə və yəqinliklə bu hədəf uğrunda hərəkətə dəvət edirəm. Yadda saxlamaq lazımdır ki, biz müştərək məqsəd üçün birləşirik və bütün bu çətinliklərin öhdəsindən yalnız bu yolla gələ bilərik. Biz COP28-də birləşdik, addımlar atdıq və məqsədlərimizə nail olduq. COP29-a gedərkən, gəlin, bütün bu məqsədlərə nail olmaq üçün səylərimizi daha da gücləndirək və konkret nəticələr ortaya qoyaq. Mən sizin hamınıza təşəkkür edirəm, hamınıza uğurlar arzulayıram. Çox sağ olun.

* * *



Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun çoxtərəfli enerji diplomatiyası üzrə baş müşaviri **Harri Kemian** çıxış edərək dedi:

- Cənab Prezident.

Hörmətli qonaqlar, dostlar və həmkarlar.

ABŞ Hökumətini Bakı Enerji Həftəsində təmsil etmək mənim üçün böyük şərəfdir. Birləşmiş Ştatlar və Azərbaycan güclü ikitərəfli əlaqələrə malikdir. Azərbaycan regionda və Avropada enerji təhlükəsizliyinin irəlilədilməsində etibarlı tərəfdaş olmağa davam edir. COP29-a evsahibliyi edən ölkə olaraq Azərbaycan etibarlı enerji təchizatçısı kimi iqlim hədəflərinə nail olunması və qlobal enerjiyə keçidin sürətləndirilməsi üçün öz mövqeyindən istifadə edə bilər. Amerika Birləşmiş Ştatları COP tədbirinin uğurla keçirilməsi üçün qarşıdan gələn aylarda Azərbaycanla əməkdaşlıq etmək niyyətindədir. İndi isə Prezident Baydenin Prezident Əliyevə ünvanladığı məktubu diqqətinizə çatdırmaq istərdim.

* * *

Harri Kemian Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenin məktubunu oxudu.

* * *



Avropa Komissiyasının Energetika üzrə Baş İdarəsinin direktoru xanım **Kristina Lobillo Borrero** çıxış edərək dedi:

- Zati-aliləri Prezident Əliyev.

Azərbaycan Hökumətinin möhtərəm nazirləri.

Bakı Enerji Həftəsinin hörmətli iştirakçıları.

Bizi mötəbər Bakı Enerji Həftəsinə təkrar dəvət etdiyinizə görə sizə Avropa Komissiyası adından təşəkkürümü bildirmək istəyirəm.

Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen, Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson enerji sahəsindəki strateji tərəfdaşlığımıza mühüm əhəmiyyət verirlər. Ortaq məqsədlərimizə nail olmaq üçün yorulmadan çalışdığımız ötən iki il ərzində birlikdə əldə etdiyimiz irəliləyişi həqiqətən təqdir edirlər.

Azərbaycandan Avropaya qaz ixracı 2020-ci ilin axırlarında "Cənub qaz dəhlizi" vasitəsilə başladı. 2021-ci ildən etibarən Azərbaycandan Avropaya qaz təchizatı 40 faizdən çox artmışdır. Məhz bu amil enerji böhranının səbəb ola biləcəyi pis aqibətdən qurtulmaqda və Rusiya yanacağından asılılıqdan digər istiqamətlərə şaxələnməkdə bizim üçün çox faydalı oldu.

Azərbaycan qazının Avropada daha çox istifadəçiyə çatmasını təmin etmək üçün Avropa İttifaqı məkanında infrastrukturu daha da inkişaf etdiririk.

Ölkələr arasındakı qarşılıqlı əməkdaşlıq "yaşıl enerji"yə keçid prosesini daha da sürətləndirir. Bu baxımdan, Azərbaycanı yaxın vaxtlarda bütün dünya üzrə 2030-cu ilədək bərpaolunan enerji tutumunu 3 dəfə, enerji səmərəliliyini isə 2 dəfə artırmağa dair Qlobal Öhdəliyə və bütün dünya üzrə cari onillik ərzində metan emissiyalarını minimum 30 faizə qədər azaltmağa dair Qlobal Metan Öhdəliyinə qoşulması münasibətilə təbrik edirəm.

Mən inanıram ki, üzərinə öhdəlik götürən digər tərəfdaşlarımızla birlikdə noyabr ayında Bakıda baş tutacaq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransında (COP29) bu mühüm öhdəlikləri daha da irəli səviyyəyə yüksəldə bilərik.

Bərpaolunan enerji sahəsində xüsusi əhəmiyyət kəsb edən iki konkret təşəbbüsü də qeyd etmək istəyirəm. Bunlardan birincisi, bölgəmizdə "yaşıl enerji" dəhlizi yaratmaq üçün Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında tərəfdaşlıqdır. Digər qonşu ölkələr də bu təşəbbüsə qoşulmağa maraq göstərirlər. Regional səviyyədə infrastrukturun inkişafı və bazarın inteqrasiyasından daha çox fayda əldə etmək üçün tərəfdaşları inklüziv yanaşma tətbiq etməyə çağırıram.

Digər mühüm təşəbbüs Azərbaycanın Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi ilə Avropa Külək Energetika Kompleksləri Federasiyası (WindEurope) arasında Xəzər dənizində külək enerjisinin istehsalını inkişaf etdirməyə dair razılıqdır. Azərbaycanın nadir potensialı və ambisiyası ilə Avropa İttifaqının dənizdə külək energetika texnologiyaları sahəsindəki sektor üzrə qlobal liderliyinin olması mükəmməl bir uyğunluq təşkil edir.

Mən hesab edirəm ki, bu təşəbbüslər özündə nəhəng bir potensial daşıyır. Bütün tərəflərin ifadə etdiyi yüksək maraq bir daha göstərir ki, bunlar mümkündür və bunları reallaşdırmaq olar.

Bakının COP29-a evsahibliyi bu baxımdan xüsusi bir imkan daşıyır. Belə ki, enerji təhlükəsizliyimizi gücləndirmək, bərpaolunan enerji sahəsinə sərmayəni artırmaq, sənaye bazalarımızı gücləndirmək, bazar məkanlarında ticarəti təşviq etmək və əsrin ortalarınadək istilik effekti yaradan qazların miqdarını sıfır tullantıya çatdırmaq məqsədilə ölkə iqtisadiyyatlarını buna yönəltməyə dair irəli sürülən ideyaları COP29 çərçivəsində daha aydın şəkildə ifadə etmək olar.

Bütövlükdə, COP29-u ümumdünya uğuruna çevirməkdə Avropa İttifaqının tam dəstəyinə güvənə bilərsiniz.

Dəvətinizə görə bir daha sizə təşəkkür edirəm və hamınıza məhsuldar Bakı Enerji Həftəsi arzulayıram.

* * *



Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi **Haysam Əl-Qays** çıxış edərək dedi:

- Mərhəmətli və rəhimli Allahın adı ilə başlayıram.

Zati-aliləri Prezident İlham Əliyev.

Zati-aliləri möhtərəm qonaqlar, xanımlar və cənablar.

Hamınızın gününüz xoş olsun. Həqiqətən də, hər dəfə Bakı şəhərinə qayıtmaq bizim üçün xoş bir hissiyyatdır. Həqiqətən də, bu gün Bakı Enerji Həftəsinin açılış mərasimində olmaq bizim üçün böyük şərəfdir. Azərbaycan Zati-aliləri cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə OPEC-in böyük dostudur, eyni zamanda əməkdaşlıq bəyannaməsinin dəstəkçisidir. Həm OPEC, həm də qeyri-OPEC neft istehsal edən ölkələr arasında böyük dəstəkçidir. Faktiki olaraq zati-aliləri Prezident Əliyev deyərdim, azsaylı qlobal liderlərdən biridir ki, OPEC və qeyri-OPEC istehsalçılarını hələ 2016-cı ildə bir araya gətirmişdir. Belə ki, həmin vaxt əməkdaşlıq haqqında bəyannamə imzalanıb və o vaxt bu, OPEC+ sazişi kimi tanınmışdır. Zati-aliləri eyni zamanda həmin dövrdən etibarən öz dəstəyini daim göstərmişdir. Belə ki, bütün bunların hamısının balanslı, sabit bazarların təmin olunmasında böyük rolu olmuşdur. Bu, sadəcə, neft istehsalçılarının marağında olan məsələ deyil, eyni zamanda istehlakçıların marağında olan məsələdir. Nəticə etibarilə bunlar daha qlobal iqtisadiyyatın marağında olan məsələdir. Əlbəttə ki, Zati-aliləri fəal şəkildə dəstək vermişdir və mənim əziz dostum Pərviz Şahbazov - Azərbaycan Respublikasının energetika naziri yorulmadan bizim bu ümumi səylərimiz üçün çalışmışdır.

Cənab Prezident, icazənizlə mən istərdim ki, Sizin bu yaxınlarda söylədiyiniz çox əhəmiyyətli fikirlərə diqqət çəkim. Siz dediniz ki, təbii yanacağın zəngin olduğu bir ölkənin rəhbəri olaraq, bu ölkənin hüquqlarını müdafiə edəcəyik, investisiyanı və istehsalı gücləndirəcəyik. Zati-aliləri, əlavə etdiniz ki, bütün bu karbohidrogenlər hamısı Allahdan olan hədiyyədir, nemətdir. Bunlar olduqca çox önəmli sözlərdir. Bu qiymətli nemətlər, resurslar, həqiqətən də, Allah tərəfindən bizə verilmiş hədiyyədir, nemətdir. Bunlar insanlıq üçün böyük fayda gətirir. Gəlin, bunu unutmayaq.

Neft və ondan hazırlanan məhsullar maşınların, gəmilərin, təyyarələrin, - bizi Bakıya gətirən təyyarələrdir, - onların işləməsini təmin edir, evlərin isidilməsində böyük rol oynayır. Eyni zamanda neft plastik məhsulların, əczaçılıq məhsullarının, hətta tibbi təchizatların hazırlanmasında böyük rol oynayır. Belə ki, biz çox vaxt bunları ciddi qəbul etmirik. Bu, hələ uzun siyahıda olanların bəziləridir. Bütün bunlar neftin bizim gündəlik həyatımızda rolunu göstərməkdədir. Bu, əlbəttə ki, enerji təhlükəsizliyi baxımından həyati əhəmiyyət daşıyır. Neft həyati əhəmiyyət daşıyır və enerji azlığını aradan qaldırmağa kömək edir və düşünürəm ki, dayanıqlı inkişaf üçün də gələcəkdə də həyati əhəmiyyətini saxlayacaq.

*Ardı 4-cü səh.*

# Bu hələ başlanğıcdır

## Prezident İlham Əliyev ümumavropa qaz təchizatçısına çevrilən Azərbaycanın ixrac coğrafiyasını daha da genişləndirəcəyini bəyan etdi





*Əvvəli 3-cü səh.*

Bütün tərəflərin, bunu mən xüsusilə vurğulamaq istəyirəm ki, bütün insanların ehtiyaclarını qarşılamağa kömək edəcək. Bu məsələlər hər zaman aktual olmuşdur. Mən əziz dostum Muxtar Babayevlə görüşəndə bu məsələləri bir daha qeyd etmişdik. Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri ilə iki həftə əvvəl Vyanada OPEC-in katibliyində görüşmüşdük. Bu möhtərəm komanda ilə yanaşı, OPEC və qeyri-OPEC ölkələrindən olan üzvlərin iştirakı ilə Azərbaycanın inklüziv yanaşma qəbul etməsi bizi həqiqətən də sevindirir. Belə ki, bu inklüziv yanaşma bütün fikirləri, rəyləri, eyni zamanda neft sektoru ilə yanaşı, digər tərəflərin də fikirlərini əks etdirir.

Fürsətdən istifadə edərək, Zati-aliləri, bir daha Sizi təbrik etmək istəyirəm və COP28-də əldə edilən uğurlara görə Birləşmiş Ərəb Əmirliklərini təbrik etmək istəyirəm.

Zati-aliləri Prezident Əliyev.

Möhtərəm qonaqlar.

Aydın şəkildə qeyd etmək istəyirəm ki, biz OPEC-də Azərbaycanın konstruktiv rolunu yüksək qiymətləndiririk. İnşallah, COP29-un da uğurlu olacağına tam inanırıq. Mən hələ də COP28 deyirəm. Biz Azərbaycanın bu istiqamətdə konstruktiv rolunu yüksək qiymətləndiririk, hər kəsi dinləyirsiniz, praqmatik olursunuz, eyni zamanda mütərəqqi yanaşmalar ortaya qoyursunuz. Düşünürəm ki, Sizin uzaqgörən siyasətinizin nəticəsində və komandanızla bu, böyük bir uğur olacaqdır və biz bu işdə sizə daim dəstək verməyə hazırıq.

Beynəlxalq əməkdaşlığın və iqlim fəaliyyətinin gücləndirilməsinə diqqət yetirilməsi bu məqsədlərə, prinsiplərə nail olunması baxımından, əlbəttə ki, çox önəmlidir. Biz hər bir ölkəyə imkan verməliyik ki, onlar milli şərtləri nəzərə alaraq öz yolunu, trayektoriyasını seçə bilsin və bu zaman bərabərlik və ümumi məsuliyyətləri nəzərə alaraq bunu həyata keçirsinlər. Bütün bunları, əlbəttə ki, nəzərə almaq çox vacibdir. Düşünürəm ki, bu trayektoriyadır, yoldur. Biz milyardlarla insanın fərqli şəraitini, ayrı-ayrı xalqların fərqli şəraitlərini, kontekstlərini nəzərə almalıyıq. Milyardlarla insan hələ də enerji çatışmazlığından əziyyət çəkir. Bildiyiniz kimi, milyardlarla insanın hələ də təməl, müasir enerji xidmətlərinə çıxışı yoxdur. Bundan ən ağrılısı isə çoxunun hətta nə nəqliyyat vasitəsi var, yaxud da yaşadığı ölkədən başqa ölkəyə heç vaxt səfər etməyiblər. Odur ki, gələcək enerji trayektoriyasında bu məsələlər nəzərə alınmalıdır və onun əhəmiyyəti vurğulanmalıdır. Bütün insanlar, bütün enerjilər, bütün texnoloji yanaşmalar burada ehtiva olunmalıdır. OPEC-də biz bu yanaşmanı tam dəstəkləyirik. Neft sahəsinə investisiya yatırmaqla yanaşı, bizim ölkələrimiz, o cümlədən Birləşmiş Ərəb Əmirlikləri və tərəfdaş ölkələrimiz, həmçinin Azərbaycan qaz sahəsinə, bərpaolunan enerji sahəsinə və bildiyimiz kimi, karbon emissiyalarının azaldılması texnologiyalarına investisiya yatırırlar.

Həmçinin biz Azərbaycanın ambisiyalı planını alqışlayırıq, bu sahədə təşəbbüslərini yüksək dəyərləndiririk. Eyni zamanda dənizdə külək enerjisi, günəş-elektrik stansiyaları kimi təşəbbüsləri yüksək qiymətləndiririk. Düşünürəm ki, bu, olduqca çox vacibdir. Nəzərə alsaq ki, 2040-cı ilədək qlobal enerji tələbatında 23 faiz artım olacaqdır.

Zati-aliləri, möhtərəm qonaqlar, xanımlar və cənablar.

Biz OPEC olaraq inanırıq və mən bir daha sitata istinad etmək istəyirəm ki, bu enerji Allahdan olan bir nemətdir. Cənab Prezidentin sözlərini burada bir daha xatırlatmaq istəyirəm. Odur ki, hər birimiz gələcək enerji ilə bağlı ən ədalətli yolu seçməliyik. Bu, elə bir yol olmalıdır ki, enerji təhlükəsizliyini təmin etsin və sosial-iqtisadi inkişafın qarşısında maneə, əngəl təşkil etməsin. O, həmçinin zəruri investisiyaların bütün enerji sahələrinə, texnologiyalara yatırılmasına və əlbəttə ki, emissiyaların qarşısının alınmasına kömək etsin.

Cənab Prezidentin çox hikmətli sözlərini nəzərə alaraq, mən əminəm ki, Azərbaycan bütün bu məsələlərin əhəmiyyətini yaxşı anlayır. Xüsusilə nəzərə alsaq ki, bu ölkə, Bakı şəhəri, bildiyiniz kimi, müasir neft sənayesinin beşiyi hesab olunur. Neft sənayesində bir çox inqilablar, inkişaflar burada baş verib. İlklərə imza atan bir ölkə olaraq burada böyük dühalar, dahi insanlar yetişmişdir və dünyanın inkişafına böyük töhfə vermişdir. Bütün bunlara şahid olmaq üçün, sadəcə, Bakıda gəzmək, məncə, kifayət edir. Azərbaycan neftin qədrini bilir, dəyərini bilir və eyni zamanda dünyaya indiyədək verdiyi faydaları yaxşı başa düşür.

Zati-aliləri, möhtərəm qonaqlar, xanımlar və cənablar, çox uğurlu Bakı Enerji Həftəsinə görə təşkilatçılara və nümayəndələrə təşəkkür edirəm. Cənab Prezident, məni dinlədiyinizə görə Sizə təşəkkür edirəm.

* * *



Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) Baş direktoru **Françesko La Kamera** çıxış edərək dedi:

- Cənab Prezident, əziz Zati-aliləri.

Hörmətli qonaqlar, cənab nazirlər.

Xanımlar və cənablar.

Sabahınız xeyir olsun.

Bu gün Bakı Enerji Həftəsində sizin sıralarınıza qoşulmaq mənim üçün xüsusi şərəfdir. Bugünkü müzakirələr mühüm əhəmiyyət kəsb edir, belə ki, biz birlikdə dayanıqlı enerji gələcəyinin kursunu müəyyən edirik.

COP28 bizim ortaq missiyamızın nə dərəcədə vacib olduğunu bir daha vurğulamışdır. 2030-cu ilədək bərpaolunan enerji tutumunu 3 dəfə və enerji səmərəliliyini 2 dəfə artırmağa dair öhdəliklər ambisiyalı olmaqla yanaşı, sıfır tullantıya nail olmaq yolunda mühüm mərhələləri özündə ehtiva edir.

Əgər biz hər kəs üçün təhlükəsiz iqlimli və enerji təminatlı gələcək istəyiriksə, onda bərpaolunan enerji tətbiqi mümkün yeganə effektiv həlldir.

Qeyd edəcəyim dayaqlar bərpaolunan enerjidən istifadəni sürətləndirməyi dəstəkləmək və strukturla bağlı zəruri dəyişiklikliyə təkan vermək üçün özül formalaşdırır. Bunun üçün əvvəlcə yeni istehsalat məntəqələrini yerləşdirmək, ticarət imkanları və tələbat mərkəzlərini formalaşdırmaq, eləcə də regionlar və ölkələr arasında qarşılıqlı bağlantılar qurmaq üçün zəruri infrastruktur yaradılmalı, şəbəkələr, quru və dəniz marşrutlarına sərmayə yatırılmalıdır.

İkincisi, nəzərdə tutulan sərmayələri yatırmağa kömək edən inkişaf etməkdə olan siyasəti və tənzimləyici qanun arxitekturasını daha da təkmilləşdirməkdir.

Nəhayət, qurulmasını planlaşdırdığımız enerji sistemi ilə bacarıq və qabiliyyətlər arasında uzlaşmanı təmin etməyə kömək məqsədilə institusional potensial imkanları strateji baxımdan təkrar tənzimləməliyik.

Enerjiyə keçid özü ilə mühüm sosial-iqtisadi faydalar, o cümlədən ümumi daxili məhsulda (ÜDM) artım, yeni iş yerlərinin yaradılması və əhalinin rifahının yüksəldilməsi kimi faydalar gətirir.

Enerji səmərəliliyi, elektroenergetika sistemləri və enerji elastikliyi (manevr imkanları), nəqliyyat vasitələrinin elektrik enerjisi ilə yüklənməsi infrastrukturu və hidrogenə sərmayənin yatırılması iş imkanlarının xeyli artması ilə nəticələnə bilər. Hazırda mövcud olan 15 milyon iş yeri sayını 81 milyona çatdıra bilər.

Bununla belə, buna nail olmaq üçün düşüncələrdə dəyişikliyin olması zəruridir. Belə ki, ənənəvi yanaşmalardan əmtəə hesab edilən enerji təhlükəsizliyinə və sənaye təmərküzlü yanaşmadan daha çoxistiqamətli yanaşmaya keçid olmalıdır. Bu çoxistiqamətli yanaşmada enerji təhlükəsizliyinin tələb aspekti, regional ticarət, infrastrukturun təhlükəsizliyinin təmin olunması və yüksək bərpaolunan elektrik enerjisi sistemləri ətrafında konsentrasiya olmalıdır.

Aydın məsələdir ki, bu yeni enerji sisteminə keçiddə energetika müəssisələri aparıcı rol oynayacaq.

Elə bu səbəbdən ötən il IRENA Sıfır Tullantı Alyansında Energetika Müəssisələrini (UNEZA) təsis etdi. UNEZA Afrika, Yaxın Şərq və Asiyadan 27 qlobal energetika və enerji şirkətlərindən təşkil olunub, 2030-cu ilin qabaqcıl məqsədlərinə və 2050-ci ilə kimi isə sıfır tullantılı gələcəyə nail olmaq üçün elektrikləşdirmə, bərpaolunan enerjini qəbula hazır şəbəkələr və təmiz enerjinin tətbiqi sahələrini inkişaf etdirmək ətrafında birləşiblər. UNEZA beynəlxalq əməkdaşlıq, biliklərin paylaşımı və enerjiyə keçid prosesində mövcud maneələri aradan qaldırmaq üçün həllərin müəyyən olunması baxımından mühüm bir platforma kimi çıxış edir.

Azərbaycanda "yaşıl enerji"yə keçid prosesinə dəstək vermək üçün COP29-un ilk həftəsində Bakıda Mərkəzi Asiya üzrə İnvestisiya Forumu təşkil edəcəyik. Bu forum özündə ikili məqsəd daşıyacaq. Birincisi, bərpaolunan enerji sahəsinə investisiya yatırmaq üçün əlverişli qanunvericilik mühitinin formalaşması, ikincisi isə, uzlaşdırma proqramı vasitəsilə layihəçilərlə potensial maliyyəçilər arasında əlaqələrin yaradılması məqsədidir. Sözügedən forum bərpaolunan enerjinin 3 dəfə artırılması və Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin icrası istiqamətində sürətli və konkret bir addım kimi xüsusiyyət daşıyacaq.

Biz enerjinin planlaşdırılması zamanı aşağıdan yuxarıya yanaşmanı aşılamaq, ən yaxşı investisiya layihələrini müəyyən etmək üçün hökumətlər və investorlarla sıx işləmək və Enerjiyə Keçidin Sürətləndirilməsi üzrə Maliyyə Platforması (ETAF) vasitəsilə maliyyələşdirməyə dəstək vermək istəyirik. Bunun üçün hökumətlərlə və eyni zamanda investorlarla sıx əməkdaşlığın əhəmiyyətini aşılayırıq. Dediyim kimi, bunlar bu prosesin maneəsiz həyata keçirilməsinə kömək edir və bu xüsusi gündə digər bir mərasim qeyd olunur.

Mərkəzi Asiya IRENA üçün prioritetdir. Ayrı-ayrı ölkələrdə enerjiyə keçid prosesinə dəstək vermək üçün hökumətlər və şirkətlərlə sıx əməkdaşlıq etmək istəyirik. Yeni enerji sisteminin qurulması, sadəcə, texniki vəzifə deyil, bu, bütün maraqlı tərəflərin davamlı öhdəliyini və əməkdaşlığını zəruri edən kollektiv bir səydir.

Diqqətinizə görə təşəkkür edirəm, çox sağ olun.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir tədbir çərçivəsində Neftçala, Biləsuvar Günəş-elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlini qoydular.

Yeni stansiyalar barədə videoçarx nümayiş olundu.

* * *

Daha sonra dövlətimizin başçısı Bakı Enerji Həftəsi çərçivəsində 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgiləri ilə tanış oldu.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR sərgidə geniş təmsil olunur. Dünyada tanınmış və regionun ən böyük neft şirkətlərindən olan SOCAR-ın əsas missiyası Azərbaycan Respublikasının yanacaq-enerji təhlükəsizliyini və neft-qaz, neft-kimya sənayesinin inkişafı üzrə strateji maraqlarını təmin etmək, qabaqcıl və ekoloji təmiz texnologiyalardan istifadə edərək ölkənin elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına dəstək olmaq, regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutmaq, karbohidrogen ehtiyatlarının və emal məhsullarının daxili və xarici bazarlarda satışından maksimal mənfəət əldə etməkdir. Şirkət həmçinin Azərbaycan ərazisindəki neft və qaz yataqlarının axtarışını, kəşfiyyatını və işlənməsini, neftin, qazın və qaz kondensatının hasilatını, emalını və nəqlini, neft və neft-kimya məhsullarının, qazın daxili və xarici bazarlarda satışını, habelə ölkə ərazisində sənayenin və əhalinin təbii qazla təchizatını həyata keçirir.

Prezident İlham Əliyev "BP-Azərbaycan"ın stendinə baxdı. BP şirkəti dünyanın ən tanınmış enerji təchizatçılarından biridir. Mühüm enerji mənbələrinin təhlükəsiz işlənilməsi və hasilatı ilə məşğul olan BP insanlara enerji təminatı istiqamətində müxtəlif həllər təklif edir. 2020-ci ilin fevral ayında BP öz yeni məramını, "xalis sıfır" hədəfini və məqsədlərini elan etdi, insanlar və planetimiz üçün enerji haqqında təsəvvürləri yeniləmək planları olduğunu bildirdi. BP şirkəti Azərbaycanda 31 ildən çoxdur ki, fəaliyyət göstərir və beş böyük enerji layihəsinin operatorluğunu təhlükəsiz və etibarlı şəkildə həyata keçirir. Bu vaxtadək BP öz tərəfdaşları ilə birlikdə ölkədəki layihələrə təxminən 84 milyard dollar sərmayə qoyub və on minlərlə iş yeri yaratmaqla və genişmiqyaslı sosial sərmayə fəaliyyətləri həyata keçirməklə yerli icmalara müsbət təsir göstərib.

Dövlətimizin başçısı "TotalEnergies"in stendi ilə də tanış oldu. "TotalEnergies" şirkəti Azərbaycanda 1996-cı ildən fəaliyyət göstərir, "Abşeron" qaz-kondensat yatağında 35 faiz və BTC boru kəmərində 5 faiz paya sahibdir. "Abşeron" qaz-kondensat yatağının işlənilməsinin birinci fazasının hasilatına 2023-cü il iyul ayının əvvəlində başlanılıb. Gündəlik hasilat gücü 4 milyon kubmetr qaz və 12 min barel kondensat həcmindədir. Qaz Azərbaycanın daxili bazarında satılır.

Çin Xalq Respublikasının "Jınko Solar" şirkəti də sərgidə təmsil olunur. Şirkətin stendi ilə tanışlıq zamanı bildirildi ki, "Jinko Solar Co., Ltd" günəş texnologiyası sahəsində dünyada məşhurdur. Şirkət günəş enerjisi panellərinin hərtərəfli tədqiqi, inkişafı və istehsalı üzrə ixtisaslaşıb və təmiz enerji sahəsində hərtərəfli həllər təqdim edir. "Jinko Solar" məhsullarını dünyanın 190-dan çox ölkəsinə ixrac edir. Beş ildir ki, şirkət modul tədarükü sahəsində dünya liderliyini qoruyur.

Dövlətimizin başçısı Amerika Birləşmiş Ştatlarının "Schlumberger" (SLB) şirkətinin stendi ilə tanış oldu. Bildirildi ki, SLB enerji sahəsində texnologiya şirkətidir. SLB qlobal enerji sənayesinin məhsuldarlığını, davamlılığını təmin etmək üçün qabaqcıl rəqəmsal həllər, innovativ texnologiyalar tətbiq edir və şirkətdə 160-dan çox millətin nümayəndəsi çalışır. Şirkət 120-dən çox ölkədə iş təcrübəsi ilə ümumi mənafe və yeni texnologiya yaratmaq üçün əməkdaşlıq edir.

İtaliyanın "Tenaris" şirkəti isə qlobal enerji sənayesi və bir sıra digər sənaye tətbiqləri üçün boruların və əlaqəli xidmətlərin aparıcı istehsalçısıdır. Şirkət 16 ölkədə polad məhsullarının istehsalı ilə məşğuldur.

"Uzbekneftegaz" ASC-nin stendi ilə tanışlıq zamanı bildirildi ki, müəssisə neft və qazın hasilatı, saxlanması, emalı və satışı ilə məşğuldur və Özbəkistanın ən böyük dövlət şirkətidir. ASC təbii qaz hasilatına görə dünyada 11-ci yerdədir. Neft və qaz sənayesinin fəaliyyəti geoloji kəşfiyyat, neft və qaz yataqlarının işlənilməsi, qazma, hasilat, karbohidrogenlərin emalı, neft məhsulları, neft və qaz, kimya avadanlıqlarının istehsalına qədər bütün neft və qaz əməliyyatları zəncirini əhatə edir və istehlakçıları neft məhsulları ilə təmin edir.

Birləşmiş Ərəb Əmirliklərinin ADNOC şirkəti sabahın təmiz enerji sistemlərinə sərmayə qoyarkən, bu günün enerjisini daha təmiz etmək üçün transformativ addımlar atan mütərəqqi beynəlxalq enerji şirkətidir. Tam inteqrasiya olunmuş müəssisələrdən ibarət ADNOC şəbəkəsi enerji dəyər zəncirində fəaliyyət göstərir və daim dəyişən enerji bazarının tələblərini məsuliyyətlə qarşılamağa kömək edir.

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin stendi ilə tanışlıq zamanı bildirildi ki, "Masdar" ölkənin təmiz enerji çempionu və qlobal davamlılıq problemlərini həll etmək üçün bərpaolunan enerji və yaşıl hidrogen texnologiyalarının inkişafını və tətbiqini genişləndirərək dünyada öz sahəsinin ən böyük şirkətlərindən biridir. 2006-cı ildə yaradılan "Masdar" bu gün 40-dan çox ölkədə fəaliyyət göstərir və onlara təmiz enerji məqsədlərinə nail olmaqda və davamlı inkişaf etməkdə kömək edir. Şirkət Azərbaycanda ümumi gücü 10 qiqavatadək olan bərpaolunan enerji mənbələri layihələri üzrə müqavilələr imzalayıb. Hazırda gücü 230 meqavat olan Qaradağ Günəş-Elektrik Stansiyasının inşası layihəsini icra edir. "Masdar" ən azı 100 qiqavatlıq bərpaolunan enerji portfelini hədəfləyir.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin stendi ilə tanış oldu. Məlumat verildi ki, "ACWA Power" 13 ölkədə istismarda, tikintidə və ya təkmil inkişafda olan 82 aktivə sahib enerji istehsalı və duzsuzlaşdırılma üzrə su stansiyalarının tərtibatçısı, investoru və operatorudur. "ACWA Power"də 4000-dən çox işçi çalışır. "ACWA Power"in portfeli 55,1 qiqavat enerji istehsalı və gündə 8 milyon kubmetr duzsuzlaşdırılmış su istehsal gücünə malikdir. Şirkət bu il fevralın 29-da Cənubi Qafqaz regionunda ən böyük külək enerjisi layihəsi olan 240 MVt-lıq Xızı-Abşeron Külək-Elektrik Layihəsi üzrə saziş imzalayıb. Şirkət bu il mayın 3-də 200 MVt Batareya Enerji Saxlama Sazişi də imzalayıb. Bu, Cənubi Qafqaz regionunda ilk Batareya Enerji Saxlama layihəsidir. Həmçinin "ACWA Power" SOCAR ilə 2024-cü ilin aprelində yaşıl gübrələrlə bağlı əməkdaşlıq sazişi imzalayıb.

Rusiya Federasiyasının "Tatneft" şirkəti neft və qaz hasilatı, neft emalı, neft-kimya, şin biznesi, yanacaqdoldurma məntəqələri şəbəkəsi, kompozit klaster, elektrik enerjisi sənayesi, neft və neft üçün avadanlıqların hazırlanması və istehsalı sahələrində dinamik inkişaf edən qabaqcıl şirkətlərdən biridir. Şirkət qaz sənayesi və xidmət strukturları bloku üzrə ixtisaslaşıb.

Sərgidə Qazaxıstan Respublikası tərəfdən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu stendi də qurulub. Beynəlxalq Trans-Xəzər Nəqliyyat Marşrutu qədim "İpək yolu" dövründə olduğu kimi, indi öz fəaliyyətinə başlayan yeni "İpək yolu" üzərində bu gün bir sıra ölkələrin və şirkətlərin maraqlarını təmsil edən birləşdirici təşkilatdır. Baş ofisi Qazaxıstanda yerləşən assosiasiyanın üzvləri arasında Azərbaycanın Dəmir Yollarını, Xəzər Dəniz Gəmiçiliyini, Bakı Ticarət Limanını qeyd etmək olar.

Builki sərgidə Almaniya Milli Pavilyonla iştirak edir. Pavilyonda alman şirkətləri ilə əlaqələr yaratmaq, peşəkar vasitəçi xidmətləri almaq mümkündür. Həmçinin mühüm biznes məkanı kimi Almaniya barədə kompleks məlumatlar əldə etmək olar.

*Ardı 5-ci səh.*

# Bu hələ başlanğıcdır

## Prezident İlham Əliyev ümumavropa qaz təchizatçısına çevrilən Azərbaycanın ixrac coğrafiyasını daha da genişləndirəcəyini bəyan etdi







*Əvvəli 4-cü səh.*







"Türkiyə Petrolları A.O." (TPAO) 70 illik təcrübə ilə öz biznes fəaliyyətini - kəşfiyyat və hasilatı genişləndirməkdədir. Milli neft şirkəti olaraq TPAO-nun əsas məqsədi "Enerjidə müstəqil Türkiyə" ideyasına töhfə verməkdir. Bu məqsədə çatmaq üçün TPAO bir sıra ölkələrdə, o cümlədən Azərbaycan, Şimali Kipr, İraq, Əfqanıstan və Rusiyada fəaliyyət göstərir. TPAO 1994-cü ildən Azərbaycanda investordur və "Şahdəniz" (19 faiz), CQBK (19 faiz) "Azəri-Çıraq-Günəşli" (5,73 faiz), BTC (6,53 faiz) layihələrində iştirak payına malikdir.

* * *

Prezident İlham Əliyev sərginin xatirə kitabını imzaladı.

Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edildi.

Sonda birgə foto çəkdirildi.

* * *

Regionun enerji sahəsində mühüm hadisəsi olan Bakı Enerji Həftəsi iyunun 6-dək davam edəcək. "Caspian Oil&Gas" və "Caspian Power" sərgilərini özündə birləşdirən Bakı Enerji Həftəsi bütün dünyanın enerji sənayesi sahəsində mövcud olan liderlərini bir araya gətirir və bununla da diqqəti Azərbaycana cəmləşdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Enerji Həftəsinin açılış mərasimində iştirakı bu tədbirin yüksək statusunu təsdiqləyir.

Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) isə baş tərəfdaş qismində çıxış edir.

Bakı Enerji Həftəsində 37 ölkədən 300-dək şirkət iştirak edir. Bu ölkələr arasında İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər ilk dəfədir tədbirə qatılırlar. Builki sərginin tərkibi iştirakçıların ümumi sayının 15 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. Onların əksəriyyəti Azərbaycanın "yaşıl enerji" sahəsinə yüksək maraq göstərən iştirakçılardır. Sərgi sahəsinin 40 faizi isə tanınmış şirkətlərə, bu mühüm tədbirin daimi iştirakçılarına məxsusdur.

Bu il Bakı Enerji Həftəsi əhəmiyyətli bir hadisəyə təsadüf edir. Belə ki, bu il respublikanın neft tarixində yeni dövrün əsasını qoymuş "Əsrin müqaviləsi"nin imzalanmasından 30 il ötür. Bu mühüm tədbir Bakı Enerji Həftəsinin proqramında da öz əksini tapıb. "Əsrin müqaviləsi" görkəmli siyasi və dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin banisi olduğu Azərbaycanın energetika strategiyasının əsas istiqamətini müəyyən edən və Azərbaycanı dünyanın neft ixracatçılarından birinə çevirən təməl hesab edilir. Məhz "Əsrin müqaviləsi" ilə müstəqil Azərbaycanın neft strategiyasının əsası qoyulub.




Eyni zamanda bu il Beynəlxalq Xəzər Neft və Qaz ("Caspian Oil&Gas") sərgisinin təsis edilməsindən 30 il ötür. Azərbaycanda beynəlxalq sərgilərin keçirilməsi təşəbbüsü müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev tərəfindən irəli sürülüb. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyev Azərbaycanın neft-qaz sənayesində ilk ixtisaslaşdırılmış sərginin keçirilməsi təşəbbüsünü dəstəkləyib və həmin dövrdən etibarən "Caspian Oil&Gas" sərgisi neft, qaz və energetika sahəsində aparıcı peşəkarların görüş yerinə çevrilib.

Ənənəvi enerji resursları sənayesini inkişaf etməkdə olan "yaşıl enerji" istiqamətləri ilə birləşdirən Bakı Enerji Həftəsi bu sahədə irəliləyişlərə və ən yaxşı təcrübələrə zəmin yaradır. Belə ki, 2024-cü ildə Bakı Enerji Həftəsi daha bir əhəmiyyətli hadisəyə təsadüf edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu əlamətdar hadisə Bakı Enerji Həftəsinin tədbirlər proqramında yer alıb.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər tədbirin təşkilinin Azərbaycana həvalə edilməsi ölkənin dünyada beynəlxalq və genişmiqyaslı tədbirlərin uğurlu təşkilatçısı statusunu bir daha təsdiqləyir.

Xəzər regionunun əsas neft-qaz layihələri və regionda enerji təhlükəsizliyi "Caspian Oil&Gas" sərgisində müzakirə olunacaq. Sərginin əhatə etdiyi mühüm bölmələrə neft və qaz yataqlarının işlənməsi, neft və qazın nəqli və hasilatı, telekommunikasiya və İT, neft və qaz emalı, enerji sektorunda tikinti-quraşdırma işləri, innovativ texnologiyalar və s. daxildir. Sərgidə süni intellekt, qazma sahəsi, eləcə də neft və qeyri-qaz məhsullarının istehsalı və saxlanması ilə bağlı yeniliklər də təqdim ediləcək.

Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji ("Caspian Power") sərgisində isə beynəlxalq və yerli şirkətlərin energetika və bərpaolunan enerji mənbələrinin inkişafı və istifadəsi sahəsindəki yeniliklər və bununla bağlı təkliflər gündəmdə olacaq. Sərgidə günəş enerjisi, külək enerjisi, geotermal enerji, istilik energetikası, nüvə enerjisi, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri və elektromobillər, enerji və resurslara qənaət edən texnologiyalar və digər sektorlar üzrə məhsul və xidmətlər, eləcə də yeni layihələr nümayiş olunacaq. Sərgi çərçivəsində bir sıra sessiyalar və panel müzakirələri də təşkil ediləcək.

Bakı Enerji Həftəsi çərçivəsində təşkil ediləcək daha bir mötəbər tədbir isə Bakı Enerji Forumudur. Forumda həm Azərbaycan, həm də Xəzər regionu üçün vacib olan enerji məsələləri gündəmdə olacaq. Foruma 600-dən çox nümayəndənin qatılacağı gözlənilir. COP29 ərəfəsində Bakı Enerji Forumunun proqramına "Yaşıl dünya naminə. COP29 strateji inkişaf yolları" adlı xüsusi sessiya da əlavə edilib. Sessiyada məruzəçi qismində iştirak etmək üçün digər ölkələrdən xüsusi qonaqlar dəvət olunub.

Onu da qeyd edək ki, Bakı Enerji Həftəsi çərçivəsində baş tutacaq tədbirlər zamanı ikitərəfli işgüzar görüşlər (B2B, B2G) keçiriləcək.

# C.BAYDEN: "Azərbaycan Avropada qlobal enerji təhlükəsizliyinin mühüm sütunudur"

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Bayden Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanlayıb

Hörmətli cənab Prezident!

Şadam ki, Azərbaycanın qlobal enerji məkanında transformasiyaya yol açan rolunu nümayiş etdirən Bakı Enerji Həftəsinə yenidən evsahibliyi edirsiniz. Builki tədbirlər Bakının noyabr ayında həlledici COP29 tədbirinə evsahibliyi etməyə hazırlaşdığı dönəmdə xüsusi əhəmiyyət kəsb edir. Temperatur artımının 1,5 dərəcədə saxlanılması hədəfinə nail olunması istiqamətində birgə işlədiyimiz bir vaxtda COP29 neft və qaz sektorunda metan tullantılarının məhdudlaşdırılması və təmiz enerji keçidinin irəlilədilməsi kimi əsas qlobal təşəbbüslərin inkişafı baxımından Azərbaycan üçün misilsiz imkan təqdim edir.

Azərbaycan xüsusilə Avropada qlobal enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalır. Xəzər qazı getdikcə çoxsaylı ölkələrə ixrac edilir və bu da Avropa ölkələrinə enerji mənbələrinin şaxələndirilməsinə, kömürdən imtinanın sürətləndirilməsinə yardım edir. Azərbaycan öz enerji tarixində yeni səhifə açarkən təmiz enerji və metan tullantılarının azaldılmasına artan diqqət və sadiqlik məndə məmnunluq doğurur. Xəzərin sahib olduğu əhəmiyyətli külək enerjisi potensialı Azərbaycanın təmiz enerji ixracının neft və qaz ixracını üstələyəcək gələcəyə gətirib çıxara bilər.

Regional sabitlik və əlaqələr Birləşmiş Ştatlar üçün prioritet məsələlərdir. Onilliklərlə davam etmiş münaqişəyə son qoyacaq möhkəm və ləyaqətli sülh sazişi Cənubi Qafqazı transformasiya edəcək və Azərbaycanın regiondakı rolunu fundamental şəkildə dəyişəcək. Birləşmiş Ştatlar bu nəcib iddianı dəstəkləməyə hazırdır. Biz sülh və firavanlığın təmin edilməsinin əsas prinsiplər olaraq qəbul olunmasını gələcək nəsillərə borcluyuq.

Mən möhkəm ikitərəfli əlaqələrimizə yeni təkan vermək imkanını alqışlayıram və COP tədbirinin uğurla keçirilməsi üçün qarşıdakı aylarda birgə əməkdaşlıq etmək arzusundayam. Bakı Enerji Həftəsinin uğurla keçməsini diləyirəm.

***Cozef BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

# R.T.ƏRDOĞAN: "Əməkdaşlığımız Avropanın enerji təhlükəsizliyinə önəmli töhfələr verib"

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı Enerji Həftəsi ilə bağlı məktubu

Əziz iştirakçılar!

Hörmətli qonaqlar!

Hamınızı səmimi-qəlbdən salamlayıram.

Bakı Enerji Həftəsi çərçivəsində təşkil olunan bütün tədbirlərin müsbət nəticələrə yol açmasını diləyirəm. Bu mühüm tədbirin əməkdaşlığımızın dərinləşməsinə səbəb olmasını, bölgəmizdəki sülhə və sabitliyə töhfələr verməsini arzu edirəm.

Can Azərbaycan ilə yaxın münasibətlərimiz bütün sahələrdə olduğu kimi, enerji sahəsində də güclüdür. Uzun illərə əsaslanan və Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri və TANAP kimi infrastruktur layihələri ilə taclandırdığımız əməkdaşlığımız təkcə Türkiyə və Azərbaycana fayda verməyib, bölgənin və Avropanın enerji təhlükəsizliyinə də önəmli töhfələr verib.

Türkmənistan qazının ortaq səylərimizlə Türkiyəyə və Avropaya çatdırılması, TANAP-ın imkanlarının genişləndirilməsi artıq zaman məsələsidir. Bu sahələrdəki fəaliyyətlərimizin çox yaxında bəhrə verməsi, şübhəsiz, Türkiyə və Azərbaycanın daha bir ortaq uğuru olacaq.

Türk dünyası olaraq ölkələrimiz arasında siyasi, iqtisadi, ticari, təhlükəsizlik, hərbi, müdafiə sənayesi, nəqliyyat, səhiyyə, təhsil və mədəniyyət sahələrində olduğu kimi, enerji sahəsində də əməkdaşlığımızı daha yüksək səviyyəyə çatdırmaq və dərinləşdirmək arzusundayıq. Türk Dövlətləri Təşkilatının növbəti Zirvə görüşünün önümüzdəki ay Can Azərbaycanın evsahibliyi ilə Şuşada keçirilməsindən məmnunluq duyduğumu da fürsətdən istifadə edərək bildirmək istəyirəm.

Tarixi İpək yolunu relslər üzərində həyata keçirən Orta dəhlizin onurğa sütunu olan Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirmə işləri tamamlanaraq, yenidən tam fəaliyyətə başlaması ilə yükdaşımalarda təmin ediləcək altı dəfəlik qabiliyyət artımı regional nəqliyyat şəbəkəsinin inkişafı baxımından strateji əhəmiyyətə malikdir.

Bərpaolunan enerjidə, yeni texnologiyalarda və enerji mənbələrinin şaxələndirilməsində iki ölkə olaraq əməkdaşlığımızı gücləndiririk. Naxçıvan vasitəsilə elektrik enerjisi ixracı və İğdır-Naxçıvan təbii qaz boru kəməri layihələrini ən yaxın zamanda başa çatdırmağı hədəfləyirik. Cənubi Qafqazda davamlı sülh və sabitlik əsasında yüksələcək əmin-amanlığın və rifahın təmin olunması üçün fəaliyyətimizi qətiyyətlə davam etdiririk. Azərbaycan və Ermənistan arasında son dövrlərdə əldə edilən müsbət yenilikləri məmnunluqla qarşılayır və imzalanacaq sülh müqaviləsini bölgənin gələcəyi baxımından tarixi fürsət olaraq gördüyümüzü bir daha bildirmək istəyirəm.

Fürsətdən istifadə edərək, 2024-cü il 11-22 noyabr tarixlərində Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi münasibətilə qardaş Azərbaycanı bir daha təbrik edir, konfransa hazırlıq prosesində hər cür dəstəyi verməyə hazır olduğumuzu xüsusi ifadə edirəm.

Enerji sahəsindəki bu dinamik mühit və proseslərin yaxından diqqət mərkəzində saxlanacağı Bakı Enerji Həftəsinin bütün iştirakçılarına uğurlar diləyir, qardaşım Prezident İlham Əliyevə təşəkkürlərimi bildirir, hamınızı ən səmimi hisslərimlə salamlayıram.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Prezidenti***

# Azərbaycanla Türkiyə arasında enerji sahəsində nəhəng layihələr həyata keçirilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərinin önəmi qeyd edildi.

Dövlətimizin başçısı 1996-cı il iyunun 4-də "Şahdəniz" yatağına dair sazişin imzalandığını xatırlayaraq, məhz bu gün Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR ilə Türkiyənin BOTAŞ şirkəti arasında təbii qaz təchizatı, nəqli və tranziti sahəsində bir sıra müqavilələr imzalanmasının böyük önəm daşıdığını dedi.

Alparslan Bayraktar qeyd etdi ki, Azərbaycan və Türkiyə dövlət başçılarının liderliyi ilə ölkələrimiz bir çox mühüm layihələr həyata keçirib və əməkdaşlığımız genişlənir. O, xüsusilə enerji sahəsinə toxunaraq, Türkiyə Petrolları (TPAO), BOTAŞ və SOCAR-ın əməkdaşlığının həm Türkiyənin daxili bazarı, həm də sənayesinin inkişafı üçün əhəmiyyətini vurğuladı. Qonaq SOCAR-ın Türkiyədə böyük sərmayədar olduğunu deyərək, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin qardaş ölkədəki fəaliyyətini məmnunluq hissi ilə qeyd etdi. O, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın roluna toxundu.

Alparslan Bayraktar ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişafa nail olduğunu deyərək, Azərbaycanın enerji, o cümlədən bərpaolunan enerji sahəsində də uğurlar qazandığını qeyd etdi, ölkələrimizin bu istiqamətdə əməkdaşlığının bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.

Qonaq Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə ötən il Naxçıvanda Azərbaycanda və Türkiyədə bərpaolunan enerji mənbələrindən istehsal edilən elektrik enerjisinin ötürülməsi sahəsində əməkdaşlığa dair anlaşma memorandumunun imzalanmasının və İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulmasının önəmini bir daha qeyd etdi və bu layihənin 2024-cü ildə yekunlaşacağına ümidvar olduğunu dedi.

Dövlətimizin başçısı Türkiyə Prezidentinin bugünkü tədbirlə bağlı məktubuna görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulmasından qısa müddət sonra Naxçıvanda boru kəmərinin hazır vəziyyətdə olacağını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı bu layihənin Naxçıvanın elektrik enerjisi istehsalı və təbii qazla təchizatı baxımından çox önəmli layihə olduğunu dedi.

Enerji sahəsində əməkdaşlığımızın geniş gündəliyə malik olduğunu qeyd edən Azərbaycan Prezidenti bu gündəliyin təbii qaz, neft, bərpaolunan enerji növləri, Türk Petrollarının SOCAR ilə birlikdə başqa ölkələrdə birgə fəaliyyəti və digər sahələri əhatə etdiyini vurğuladı.

Ölkələrimiz arasında enerji sahəsində nəhəng layihələrin həyata keçirildiyini deyən dövlətimizin başçısı Azərbaycan-Türkiyə birliyinin bütün sahələrdə olduğu kimi, enerji məsələsində də özünü göstərdiyini qeyd etdi.

Prezident İlham Əliyev hazırda Azərbaycan təbii qazının 8 ölkəyə ixrac edilməsinin əhəmiyyətinə toxundu və bu sahədə əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirdi.

# Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabiri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini qeyd edərək, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın bu ilin əvvəlində Azərbaycana rəsmi səfərinin əhəmiyyətinə toxundu. Prezident İlham Əliyev bu gün Neftçala, Biləsuvar Günəş-elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlinin qoyulmasını dostluq və qardaşlıq münasibətlərimizin nümayişi kimi dəyərləndirdi. Dövlətimizin başçısı təməlqoyma mərasiminin iyunun 4-də keçirilməsinin rəmzi xarakter daşıdığını deyərək, məhz 1996-cı ilin bu günündə "Şahdəniz" yatağına dair sazişin imzalandığını qeyd etdi. Azərbaycan Prezidenti günəş və külək stansiyalarının təməlinin qoyulmasının təkcə enerji sahəsində deyil, ümumilikdə ölkəmizin inkişafında yeni bir mərhələ olacağına əminliyini bildirdi.

Dövlətimizin başçısı əməkdaşlığımızın genişlənməsində şəxsən Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın və Birləşmiş Ərəb Əmirlikləri Hökumətinin verdiyi töhfəni yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev bərpaolunan enerji sahəsində Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanla əməkdaşlıq etməsinin önəmini vurğuladı, qazıntı yanacağı layihələri və COP29 ilə bağlı Birləşmiş Ərəb Əmirliklərinin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Azərbaycan Prezidenti bütün bunların ölkələrimiz arasında güclü tərəfdaşlıq işinə xidmət etdiyini və dostluq əlaqələrimizin göstəricisi olduğunu dedi.

Sultan Əhməd Əl-Cabir Bakıya səfərindən, 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərində iştirak və burada çıxış etməsindən, həmçinin təməlqoyma mərasimində iştirakından böyük məmnunluq hissi keçirdiyini vurğuladı. Qonaq qeyd etdi ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti həmişə bildirir ki, o, ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrini daha da möhkəmləndirmək əzmindədir. Sultan Əhməd Əl-Cabir ölkəsinin daim Azərbaycan ilə bir yerdə olacağını dedi.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Gürcüstan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Bu tarix Azərbaycan xalqının müasir, güclü və inkişaf etmiş dövlətin formalaşmasına gətirib çıxaran müstəqillik və suverenlik yolunda əzmkarlığını və sarsılmaz ruhunu əyani şəkildə nümayiş etdirir.

Qəti şəkildə inanıram ki, biz birgə səylərimiz sayəsində Gürcüstan ilə Azərbaycan arasında dostluğu və strateji tərəfdaşlığı daha da möhkəmləndirəcəyik və beləliklə, firavanlığın, sabitliyin gücləndirilməsinə, regionun inkişafına təkan verilməsində ölkələrimizin rolunu artıracağıq.

Zati-aliləri, Sizə bir daha dərin hörmətimi bildirir, ölkənizə xidmət işində uğurlar, dost Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Əlamətdar bayram - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Banqladeşlə Azərbaycan arasında ikitərəfli sıx dostluq əlaqələri mövcuddur. Qəti şəkildə inanıram ki, xalqlarımız iki ölkə arasındakı dostluq və qardaşlıq əlaqələrini gələcəkdə daha da möhkəmləndirmək istiqamətində birlikdə işləməyə davam edəcəklər.

Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd ŞAHABUDDİN,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Qardaş və dost Azərbaycan xalqı milli bayramının ildönümünü qeyd etdiyi bu günlərdə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram. Cibuti xalqı və hökuməti də ölkənizə tərəqqi, əmin-amanlıq və inkişaf arzulamaqda mənə qoşulur.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan inkişaf yolunda daha da fəal irəliləyir.

Cənab Prezident, əmin ola bilərsiniz ki, Siz ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi naminə həmişə Cibuti xalqı və hökumətinin dəstəyini hiss edəcəksiniz.

Ölkəmiz bütün dünyada sülhün və sabitliyin möhkəmləndirilməsi üçün Azərbaycanla birgə yorulmadan səy göstərəcəkdir.

Cənab Prezident, Sizə bir daha səmimi təbriklərimi çatdırır və qardaşlıq salamlarımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***İsmail Ömər QELLE,***
***Cibuti Respublikasının Prezidenti***

# Ceyhun Bayramov həmkarları ilə telefonla danışıb

İyunun 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri şahzadə Feysəl bin Fərhan Al Səud arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri müzakirə edilib. Nazirlər iki ölkə arasında dost münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğunu qeyd ediblər.

Nazirlər Azərbaycan və Səudiyyə Ərəbistanı arasında müxtəlif, o cümlədən siyasi, iqtisadi, enerji təhlükəsizliyi, humanitar və sair sahələr üzrə ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin mövcudluğunu məmnuniyyətlə qeyd edərək münasibətlərin inkişafında yüksəksəviyyəli qarşılıqlı səfərlərin və təmasların mühüm rol oynadığını bildiriblər.

Ceyhun Bayramov postmünaqişə dövründə Səudiyyə Ərəbistanının ölkəmizə göstərdiyi dəstəyin əhəmiyyətini qeyd edib, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minalarla çirklənmənin mümkün mənfi təsirlərinin aradan qaldırılması və ölkəmizin minatəmizləmə fəaliyyəti istiqamətində göstərilən 3 milyon ABŞ dolları məbləğində dəstəyə görə minnətdarlıq bildirib.

Bununla yanaşı, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın prezidentliyi və evsahibliyinə hazırlıq prosesi çərçivəsində Səudiyyə Ərəbistanı ilə əməkdaşlıqdan məmnunluq ifadə edilib, ölkələrimiz arasında "yaşıl enerji"yə keçid istiqamətində əməkdaşlığın cari vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazirlər qarşıdan gələn Qurban bayramı münasibətilə təbriklərini və ən xoş arzularını çatdıraraq, bu mübarək bayramın sülh, birlik və əmin-amanlıq gətirməsini diləyiblər.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun iyunun 4-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan ilə telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı ölkələrimiz arasında strateji tərəfdaşlıq çərçivəsində görülən işlər, həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə əməkdaşlıq perspektivləri, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

Bununla yanaşı, bölgədə postmünaqişə dövründə keçmiş köçkünlərin öz doğma torpaqlarına geri qayıtması və yenidənqurma işlərində əsas təhdidlərdən biri olan ərazilərin minalanması problemi ilə mübarizə istiqamətində BƏƏ tərəfindən ANAMA-ya bu yaxınlarda 5 milyon ABŞ dollarında yardım göstərilməsinə görə qarşı tərəfə təşəkkür edilib. Göstərilən yardımın həmrəylik göstəricisi olduğu vurğulanıb.

Bakı Enerji Həftəsi çərçivəsində iyunun 4-də Neftçala və Biləsuvar elektrik stansiyasının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlinin qoyulmasının, eləcə də SOCAR və BƏƏ-nin "Masdar" şirkəti arasında imzalanan üç bərpaolunan enerji layihələri üzrə Səhmdarlar Sazişinin iki ölkə arasında sərmayə sahəsində əməkdaşlığının genişlənməsinə müsbət töhfə verdiyi qeyd edilib.

Bununla yanaşı, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın prezidentliyi və evsahibliyinə hazırlıq prosesi çərçivəsində BƏƏ-nin COP28 prezidentliyi ilə əməkdaşlıq məsələləri, ölkələrimiz arasında "yaşıl enerji"yə keçid istiqamətində əməkdaşlığın cari vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Telefon danışığı zamanı həmçinin digər beynəlxalq platformalarda əməkdaşlıq istiqamətləri müzakirə olunub. Tərəflər qarşıdan gələn Qurban bayramı münasibətilə təbriklərini çatdırıb, ən səmimi arzu və diləklərini bildiriblər.

# "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 671 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissədə "420" rəqəmləri "455" rəqəmləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş 1 nömrəli Əlavə - "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturu" üzrə:

2.1. 1-ci hissənin ikinci-yeddinci abzasları müvafiq olaraq 1.1-1.6-cı bəndlər hesab edilsin;

2.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Aparatı

2.1. Strateji planlaşdırma və monitorinq baş idarəsi

2.2. Qanunvericilik baş idarəsi

2.3. Notariat, qeydiyyat və reyestr baş idarəsi

2.4. İcra xidməti (baş idarə səlahiyyətli)

2.5. Probasiya xidməti (baş idarə səlahiyyətli)

2.6. Beynəlxalq əməkdaşlıq baş idarəsi

2.7. Bələdiyyələrlə iş baş idarəsi

2.8. Cəzaların icrasına nəzarət baş idarəsi

2.9. İstintaq idarəsi

2.10. İnsan resursları idarəsi

2.11. Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi

2.12. Ədliyyə sahəsində rəqəmsallaşma və innovasiyalar idarəsi

2.13. Maliyyə və təminat idarəsi

2.14. Mətbuat xidməti (idarə səlahiyyətli)";

2.3. 3-cü hissə üzrə:

2.3.1. ikinci-yeddinci abzaslar müvafiq olaraq 3.1-3.6-cı bəndlər hesab edilsin;

2.3.2. 3.5-ci bənd ləğv edilsin.

3. Həmin Fərmanla təsdiq edilmiş 2 nömrəli Əlavə - "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının tərkibi"ndə "Ədliyyə sahəsində xidmətlər" sözləri "Notariat, qeydiyyat və reyestr" sözləri ilə və "İcra baş idarəsinin" sözləri "İcra xidmətinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli, "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 2 avqust tarixli 438 nömrəli, "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin yaradılması haqqında" 2007-ci il 12 mart tarixli 543 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 790 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissədə "yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti (bundan sonra - "Dövlət Reyestri Xidməti")" sözləri "(bundan sonra - Ədliyyə Nazirliyi)" sözləri ilə əvəz edilsin;

1.2. 8.2-ci bənddən "Azərbaycan Respublikası" sözləri çıxarılsın;

1.3. 17-ci, 18-ci, 23-cü hissələrdə, 24-cü və 27-ci hissələrin ikinci cümlələrində ismin müvafiq hallarında "Dövlət Reyestri Xidməti" sözləri ismin müvafiq hallarında "Ədliyyə Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.4. 26-cı hissənin ikinci cümləsində "Dövlət Reyestr Xidməti" sözləri "Ədliyyə Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 438 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 664 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.3-cü bəndə "4.5-ci," sözlərindən sonra "7.1-ci, 8.2-ci, 9.2-ci, 10.1-ci, 10.5-ci, 10.7-ci," sözləri əlavə edilsin;

2.2. 3.4-cü bənd ləğv edilsin.

3. "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 mart tarixli 543 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 222 (Cild I) aşağıdakı dəyişiklikər edilsin:

3.1. 2-ci hissədən "yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti" sözləri çıxarılsın;

3.2. 5-ci hissədə "Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinə" sözləri "Nazirliyinə" sözü ilə əvəz edilsin;

3.3. həmin Fərmanla təsdiq edilmiş "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin aparılması qaydası haqqında Əsasnamə" üzrə:

3.3.1. 5-ci hissədə "yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti" sözləri "(bundan sonra - Ədliyyə Nazirliyi)" sözləri ilə əvəz edilsin;

3.3.2. 6-cı və 15-ci hissələrdə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti" sözləri "Ədliyyə Nazirliyi" sözləri ilə əvəz edilsin;

3.3.3. 22-ci hissədə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin" sözləri "Ədliyyə Nazirliyi və onun" sözləri ilə əvəz edilsin;

3.3.4. 24-cü hissədə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinin və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin" sözləri "Ədliyyə Nazirliyi və onun" sözləri ilə əvəz edilsin;

3.3.5. 26-cı hissədən "Azərbaycan Respublikasının" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 3.1-ci, 3.2-ci və 3.4-cü bəndlərində "Ədliyyə sahəsində xidmətlər" sözləri "Notariat, qeydiyyat və reyestr" sözləri ilə, "ədliyyə sahəsində xidmətlər üzrə" sözləri "notariat, qeydiyyat və reyestr üzrə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 aprel tarixli 34 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 9-cu hissədə, 36.2-ci, 44.2-ci və 70-3.2-ci bəndlərdə "Ədliyyə sahəsində xidmətlər" sözləri "Notariat, qeydiyyat və reyestr" sözləri ilə, "ədliyyə sahəsində xidmətlər üzrə" sözləri "notariat, qeydiyyat və reyestr üzrə" sözləri ilə əvəz edilsin;

5.2. 57.1-ci bənddə "İcra baş idarəsinin" sözləri "İcra xidmətinin" sözləri ilə əvəz edilsin;

5.3. 65-ci hissədə birinci halda "Bələdiyyələrlə iş mərkəzinin" sözləri "Bələdiyyələrlə iş baş idarəsinin" sözləri ilə, "Bələdiyyələrlə iş mərkəzinin rəisi" sözləri "bələdiyyələrlə iş sahəsində müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2024-cü il*

# Baş nazir Əli Əsədov Minskdə Avrasiya Hökumətlərarası Şurasının iclasında qonaq qismində iştirak edib



**İyunun 4-də Minskdə Avrasiya Hökumətlərarası Şurasının geniş tərkibdə iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov qonaq qismində iştirak edib.

İclasda çıxış edən Ə.Əsədov bildirib ki, Azərbaycanın Avrasiya İqtisadi İttifaqı (Aİİ) üzrə tərəfdaş dövlətlərlə ikitərəfli formatda sıx əlaqələri mövcuddur.

"Ən yüksək səviyyədə etibarlı və intensiv siyasi dialoq bunun bariz sübutudur. Bu ilin əvvəlindən Qazaxıstan, Qırğızıstan və Belarus prezidentləri Azərbaycana dövlət səfərinə gəliblər, Azərbaycan Prezidenti isə Rusiyaya işgüzar səfər edib", - deyə Baş nazir bildirib.

Vurğulanıb ki, Azərbaycanın tərəfdaş ölkələrinin hər biri ilə qarşılıqlı faydalı əməkdaşlığın bütün spektri üzrə qarşılıqlı münasibətlərin mütərəqqi inkişafını təmin edən çox möhkəm ikitərəfli müqavilə-hüquq bazası yaradılıb.

İqtisadi-ticari əməkdaşlıq sahəsini qarşılıqlı fəaliyyətin prioritet istiqaməti adlandıran Ə.Əsədov qeyd edib ki, 2023-cü ilin yekunlarına görə Azərbaycanın Aİİ üzrə tərəfdaşlarla ticarət dövriyyəsi təxminən 9 faiz artıb.

Bildirilib ki, dövlət başçılarının tapşırıqlarını yerinə yetirmək üçün hökumətlərin xətti üzrə ikitərəfli formatda iqtisadi-ticari əməkdaşlığın hələ istifadə olunmamış potensialının həyata keçirilməsi üçün müxtəlif variantlar işlənib hazırlanır.

Qarşılıqlı investisiya fəaliyyətinin müsbət dinamikasına diqqət çəkən Baş nazir qeyd edib ki, gündəmdə uzunmüddətli perspektivə yönəlmiş bir sıra yeni ikitərəfli investisiya layihələri var.

Nəqliyyat-tranzit sahəsindəki əməkdaşlığa toxunan Ə.Əsədov vurğulayıb ki, bu gün Azərbaycanın səyləri ölkənin tranzit potensialının gücləndirilməsinə və onun ərazisindən keçən beynəlxalq dəhlizlər üzrə yük axınının artırılmasına yönəlib.

Etibarlı və müasir nəqliyyat infrastrukturu sayəsində Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinin (BND), xüsusilə Şimal-Cənub və Şərq-Qərb BND-lərin inkişafına öz töhfəsini verir.

"Yaşıl enerji" sahəsində əməkdaşlığın və iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizənin aktuallığını vurğulayan Baş nazir, iclas iştirakçılarına Azərbaycanın bərpaolunan enerji resursları sahəsində uğurla həyata keçirdiyi layihələr barədə məlumat verib.

Qeyd olunub ki, Azərbaycan Aİİ üzrə tərəfdaşlarla regional və beynəlxalq təşkilatlar çərçivəsində də çoxtərəfli formatda əməkdaşlıq edir.

"Hesab edirəm ki, ölkələrimizin üzv olduğu və genişspektrli istiqamətlər üzrə səmərəli qarşılıqlı fəaliyyət göstərdiyi Müstəqil Dövlətlər Birliyi platformasını qeyd etmək yerinə düşər", - deyə Ə.Əsədov əlavə edib.

# Azərbaycanda "Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya" mövzusunda beynəlxalq konfrans keçirilir



**Ədliyyə Nazirliyi və Baş Prokurorluq tərəfindən Türk Ədliyyə Təlim Şəbəkəsinin fəaliyyəti çərçivəsində "Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya" mövzusunda beynəlxalq konfrans keçirilir.**

AZƏRTAC xəbər verir ki, konfransın açılış mərasimində ədliyyə naziri Fərid Əhmədov, baş prokuror Kamran Əliyev, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov, Türk Akademiyasının prezidenti Şahin Mustafayev və Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Sədi Cəfərov iştirak ediblər.

İyunun 4-ü və 5-i tarixlərində Bakı şəhərində keçirilən konfransda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Şimali Kipr Türk Respublikasından 30-a yaxın nümayəndə iştirak edir.

Konfransda müasir dünyanın çağırışları və "Türk Dünyasına Baxış 2040" sənədinin məqsədlərinə uyğun olaraq, türk dövlətlərində müasir informasiya texnologiyalarının hüquqi sahədə tətbiqi və istifadəsinin genişləndirilməsi imkanları müzakirə olunur.

Türk dövlətləri arasında əməkdaşlığın miqyasının genişlənməsi, gələcək inteqrasiya hədəfləri üzrə fəaliyyətlərin güclənməsi, xüsusilə də ölkələrin iqtisadi və mülki qanunvericilik sistemlərinin yaxınlaşdırılması məqsədilə Türkiyə Ədliyyə Akademiyası və Qazaxıstan Ali Məhkəməsi yanında Ədliyyə Akademiyasının rektorlarının, Özbəkistanın Məhkəmə-Hüquq Şurası yanında Ali Hakimlər Məktəbinin direktorunun da iştirakı ilə keçirilən konfrans türk dövlətlərinin ədliyyə işçilərinin, hakimlərin və prokurorların təlimi ilə məşğul olan qurumların nümayəndələrini, praktiki hüquqşünasları, hüquqşünas alimləri və elm müəssisələrini də bir araya gətirib.

İki gün davam edəcək konfransda türk dövlətlərində məhkəmə, eləcə də prokurorluq sistemlərində elektron informasiya texnologiyalarından istifadə, ölkələrin mülki qanunvericiliyinin təhlili və yaxşılaşdırılması, hakim və prokurorların tədrisində elmi tədqiqatların və tədrisin təşkilində elektron texnologiyaların rolu mövzularında panel sessiyalar və müzakirələr keçiriləcək.

Qeyd edək ki, Türk Ədliyyə Təlimi Şəbəkəsi 2022-ci il 12 dekabr tarixli İstanbul Anlaşma Memorandumu əsasında Türk Dövlətləri Təşkilatına daxil olan ölkələri təmsil edən 11 ixtisaslaşmış tədris qurumu tərəfindən təsis edilib. Şəbəkənin ilk həmsədri 2023-cü ildə Türkiyə Ədliyyə Akademiyası olub. Ötən il dekabrın 28-də növbəti il üçün həmsədrliyin Azərbaycana verilməsi barədə qərar yekdilliklə qəbul olunub. Hazırda Ədliyyə Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi şəbəkənin 2024-cü il üzrə həmsədrləridir.

# *Baş prokuror:* "Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq-mühafizə orqanları ilə əməkdaşlığın inkişafı prioritetdir"

**"Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi prioritetdir". Bunu baş prokuror Kamran Əliyev "Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya" mövzusunda keçirilən beynəlxalq konfransda deyib.**



Bildirilib ki, tarixi bağlarımız, ortaq dinimiz və dilimizlə qardaşlıq münasibəti olan Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişafı prioritet məsələlərdəndir. Qeyd edilib ki, 2021-ci il noyabrın 1-də Bakıda Türk Dövlətləri Təşkilatının Baş Prokurorlar Şurasının yaradılması da bu istiqamətdə atılan mühüm addımlardan biri idi. Bu şura üzv ölkələrin hüquq-mühafizə orqanları arasında əməkdaşlığı daha da dərinləşdirəcək və səmərəli fəaliyyət göstərmələrinə imkan verəcək.

"Sahəvi dövlət qurumlarını birləşdirən şuralar türk dövlətləri arasında səmərəli əməkdaşlığın inkişafı üçün təqdirəlayiq platformadır. Bu şuralar vasitəsilə türkdilli ölkələr arasında bütün sahələrdə əməkdaşlıq daha da irəli gedəcək", - deyə baş prokuror əlavə edib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Qırğızıstan Joqorku Keneşinin Sədri ilə görüşüb



**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 4-də ölkəmizdə rəsmi səfərdə olan Qırğız Respublikası Joqorku Keneşinin Sədri Nurlanbek Şakiyevin başçılıq etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, əvvəlcə Joqorku Keneşin Sədri Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Sonra o, Milli Məclisdə Heydər Əliyev Muzeyində olub və Xatirə kitabını imzalayıb.

Görüşdə xalqlarımızın ortaq tarixinin, mədəniyyətinin, dil və dininin ölkələrimiz arasında əlaqələrin əsasını təşkil etdiyi qeyd olunaraq bildirilib ki, müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasındakı əlaqələr məhz bu möhkəm təməl üzərində qurulub. Vurğulanıb ki, ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü tamam olub. Bu illər ərzində dövlətlərimiz arasındakı əlaqələr dostluq və qarşılıqlı anlaşma prinsipləri əsasında davamlı inkişaf edib və artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında dövlət başçıları səviyyəsində səfərlərin və görüşlərin müstəsna rolu qeyd edilərək vurğulanıb ki, prezidentlərimiz arasında qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlər, fəal siyasi dialoq iki ölkə arasında əlaqələrin dinamikasına çox mühüm təsir edir.

Görüşdə Azərbaycan-Qırğızıstan münasibətlərində qarşılıqlı etimadın yaradılması və inkişaf etdirilməsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləri xüsusi qeyd olunub.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq etmələrindən razılıq ifadə olunub. O cümlədən qeyd edilib ki, Türk Dövlətləri Təşkilatı ölkələrimiz arasında çoxtərəfli əməkdaşlıqda xüsusi əhəmiyyətə malikdir. Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə keçirilmiş andiçmə mərasimindəki proqram xarakterli çıxışında Azərbaycanın qarşısında duran vəzifələrdən danışarkən, bizim türk dünyasından başqa ailəmizin olmadığını bildirib.

Görüşdə qeyd olunub ki, qanunvericilik orqanlarımız arasında səmərəli əməkdaşlıq qurulub və bu əməkdaşlığı daha da dərinləşdirmək üçün yaxşı imkanlar var. Parlament sədrlərinin və üzvlərinin qarşılıqlı səfərləri, deputatlarımızın müxtəlif beynəlxalq və regional təşkilatlar çərçivəsində daimi təmasları bu əməkdaşlığın inkişafına mühüm təkan verir. Bu mənada parlament komitələri, dostluq qrupları arasındakı əlaqələrin önəminə diqqət çəkilib.

Qırğız Respublikası Joqorku Keneşinin Sədri Nurlanbek Şakiyev 28 May - Müstəqillik Günü münasibətilə təbriklərini çatdıraraq, Azərbaycan xalqına sülh və firavanlıq arzulayıb. O, ötən il Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək məqsədilə ölkəmizə səfər etdiyini xatırladaraq, Ulu Öndərin bütün türk dünyasının qüruru olduğunu və bu tədbirdə iştirak etməklə dahi liderin xatirəsinə hörmət və ehtiramlarını ifadə etdiklərini söyləyib. Nurlanbek Şakiyev bu kimi tədbirlərin yalnız parlamentlər deyil, xalqlarımız arasında da münasibətlərin inkişafına töhfə verdiyini bildirib.

O, qarşılıqlı səfərlərin, deputatlarımız arasında təmasların ikitərəfli əlaqələrin, parlamentlərarası əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd edib. Nurlanbek Şakiyev deyib ki, ölkələrimiz arasında çoxəsrlik tarixi kökləri olan dostluq münasibətlərinin inkişaf etdirilməsi xalqlarımızın maraqlarına uyğundur. Joqorku Keneşin Sədri parlamentlərimizin beynəlxalq platformalarda qarşılıqlı dəstəyinin davam etdirilməsi, birgə təşəbbüslərin irəli sürülməsi ilə bağlı fikirlərini bölüşüb.

Söhbət zamanı Milli Məclisin Sədri qonağa regiondakı vəziyyət haqqında məlumat verib. O, Azərbaycanın öz ərazilərini Ermənistanın 30 illik işğalından qurtarmasından, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsindən söz açıb, ölkəmizin regionda sülhün əldə olunması istiqamətində atdığı addımlardan və irəli sürdüyü təşəbbüslərdən, sülh sazişinin imzalanması istiqamətində görülən işlərdən danışıb, üçüncü tərəflərin regionda sülhün bərqərar olmasına törətdiyi əngəlləri diqqətə çatdırıb.

Sahibə Qafarova qonaqların Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə - Füzuli və Şuşa şəhərlərinə səfəri zamanı işğal dövründə Ermənistan tərəfinin törətdiyi dağıntılarla və Azərbaycanın azad edilmiş ərazilərdə apardığı genişmiqyaslı bərpa və quruculuq işləri ilə yaxından tanış olacaqlarını deyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Qırğız Respublikası parlamentinin nümayəndə heyəti Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycanda rəsmi səfərdə olan Qırğız Respublikası Joqorku Keneşinin Sədri Nurlanbek Şakievin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 4-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonda Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.



Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı, Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Musa Quliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Milli Məclisdə gənclərlə görüş keçirilib



**İyunun 4-də Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev "Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək" İctimai Birliyinin təşkil etdiyi "Liderlik Akademiyası"nın iştirakçıları ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, gəncləri Milli Məclisdə görməkdən məmnunluğunu ifadə edən Adil Əliyev ali qanunvericilik orqanının fəaliyyəti barədə geniş məlumat verib. Bildirilib ki, parlament qanunvericilik sahəsində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Bununla yanaşı, Milli Məclis xarici ölkələrin parlamentləri, beynəlxalq parlament təşkilatları ilə səmərəli əməkdaşlıq edir. Qeyd olunub ki, Milli Məclisin deputatları vətəndaşlarla sıx təmasda olur, seçicilərlə görüşür, onları narahat edən məsələlərin həlli ilə bağlı zəruri tədbirlər həyata keçirirlər.

Prezident İlham Əliyevin bu il fevralın 7-də xalqımızın yekdil iradəsi ilə yenidən Prezident vəzifəsinə seçildiyini vurğulayan Milli Məclis Sədrinin müavini cənab İlham Əliyevin fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində siyasi xəttimizin əsas cizgilərini müəyyənləşdirdiyini qeyd edib. Diqqətə çatdırılıb ki, gənclər siyasətinin də yer aldığı proqram xarakterli çıxışda dövlətimizin başçısı gənc nəslin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin, onların vətənpərvərlik ruhunda formalaşmasının önəmini xüsusi qeyd edib.

Vitse-spiker Azərbaycan gəncliyi ilə bağlı dövlət proqramlarının, habelə gənclərin inkişaf strategiyasının, eləcə də xaricdə təhsillə bağlı müxtəlif layihələrin uğurla icra olunduğunu söyləyib. O bildirib ki, ölkəmizdə gənclərlə bağlı məşğulluq tədbirləri genişlənir, gənclərin ictimai həyatda fəallığının artırılması istiqamətində əhəmiyyətli addımlar atılır.

Adil Əliyev Azərbaycanın 44 günlük Vətən müharibəsində gənclərimizin göstərdiyi şücaətdən bəhs edərək əldə edilən tarixi Zəfərin bir daha xalqımızın əyilməz ruhunu nümayiş etdirdiyini, Vətən sevgisi ilə yetişən gənclərin torpaqlarımızın azadlığı uğrunda canlarından keçməyə hazır olduğunu vurğulayıb.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Liviya səfiri: "İşğaldan azad edilən ərazilərdəki genişmiqyaslı işləri heyranlıqla izləyirəm"

**İyunun 4-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Liviyanın Azərbaycandakı səfiri Ali Salem Naserlə görüşüb.**



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şeyxülislam qarşıdan gələn Qurban bayramı münasibətilə təbriklərini, xoş arzularını Liviyanın rəhbərliyinə və xalqına yetirməyi səfirdən xahiş edib. Müqəddəs bayramın bütün müsəlman aləminə sülh, əmin-amanlıq və rifah gətirməsi üçün dualar etdiyini diqqətə çatdırıb.

İki dost ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən QMİ sədri Azərbaycanla Liviyanın beynəlxalq müstəvidə bir çox məsələlərə münasibətdə eyni mövqedən çıxış etdiyini və bu münasibətlərin möhkəm dayaqlara əsaslandığının göstəricisi olduğunu diqqətə çatdırıb. O, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra Azərbaycanda həyata keçirilən böyük layihələr, bərpa olunan dini və mədəniyyət abidələri barədə səfirə ətraflı məlumat verib.

Şeyxülislam bildirib ki, COP29-a evsahibliyi Azərbaycanda mövcud davamlı sabitliyin, dayanıqlı iqtisadi inkişafın daha bir mühüm nümayişi olacaq.

Liviyanın Azərbaycandakı səfiri Ali Salem Naser ölkəmizdə çalışmaqdan və xalqımızın qazandığı uğurları görməkdən məmnunluq duyduğunu bildirib. Səfir Şuşaya və işğaldan azad olunan digər ərazilərə səfərləri zamanı həyata keçirilən genişmiqyaslı işləri heyranlıqla izlədiyini qeyd edib.

Diplomat ölkələrimiz və xalqlarımız arasında münasibətlərin daha da möhkəmlənməsi üçün səy göstərdiyini, müxtəlif, o cümlədən dini sahədə əlaqələrin güclənməsinə töhfə vermək istəyində olduğunu bildirib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda xatirə fotosu çəkdirilib.

# Kolumbiya Konqresi Azərbaycanın Müstəqillik Günü ilə bağlı bəyanat yayıb

**Kolumbiya Konqresinin Nümayəndələr Palatasının Kolumbiya-Azərbaycan dostluq qrupunun üzvləri tərəfindən 28 May - Müstəqillik Günü ilə əlaqədar bəyanat yayımlanıb.**

Bu barədə AZƏRTAC-a Azərbaycanın Meksikadakı səfirliyindən məlumat verilib.

Bildirilib ki, bəyanatda Azərbaycanın Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə təbriklər çatdırılmaqla yanaşı, builki milli bayramın ərazi bütövlüyünün bərpasından sonra ilk dəfə bütün ölkəni əhatə etməsi ilə əlamətdar olmasına diqqət çəkilir, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, eləcə də Ermənistanla münasibətlərin normallaşması və dayanıqlı sülhün əldə edilməsi istiqamətində Azərbaycanın səyləri alqışlanır.



Bəyanatda işğaldan azad edilmiş ərazilərdəki mina terrorunun nəticələri xüsusi vurğulanır, Kolumbiya Hökuməti və beynəlxalq ictimaiyyət Azərbaycanın həyata keçirdiyi minatəmizləmə fəaliyyətini dəstəkləməyə çağırılır.

Həmçinin COP29 tədbirinə evsahibliyi etməsi ilə əlaqədar ölkəmizə təbriklər çatdırılır və uğurlar arzulanır.

Bəyanatın xatirələşdirilmiş nüsxəsi Boqota şəhərində Azərbaycanın Müstəqillik Günü ilə əlaqədar keçirilmiş rəsmi qəbul zamanı ölkəmizin Kolumbiyadakı səfiri Məmməd Talıbova təqdim edilib.

# Azərbaycan və Türkiyə mediatorları qarşılıqlı səfərlər barədə razılığa gəliblər

**"Azərbaycan və Türkiyə hər tərəfdən 100 mediator olmaqla qarşılıqlı səfərlər barədə razılığa gəliblər. Bu, iki ölkənin mediasiya sahəsində təcrübə mübadiləsinə kömək edəcək. Müvafiq razılaşma artıq əldə edilib".**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov iyunun 4-də Ankarada keçirilən Mediasiya mərkəzlərinin və Türkiyə mediatorlarının Platformasının (TURAMEP) təsis edilməsi mərasimində deyib.

Nadir Adilov tədbir iştirakçılarını Azərbaycanda mediasiya sistemi, o cümlədən vasitəçilik prosedurlarının tətbiqinin məqsəd və prinsiplərini müəyyən edən bu sahənin normativ-hüquqi tənzimlənməsi, ölkə mediatorlarının fəaliyyəti haqqında məlumatlandırıb.

O deyib ki, Azərbaycanın Mediasiya Şurası onlarla mediasiya mərkəzini, eləcə də sayı daim artan yüzlərlə mediatorları birləşdirir. Onun sözlərinə görə, Azərbaycanda mediatorlara olan əsas tələblərdən biri Mediasiya Şurasına mütləq üzvlükdür.

Nadir Adilov türk dövlətlərinin əməkdaşlığının hüquqi sahədə və birbaşa mediasiya sahəsində böyük potensiala malik olduğunu bildirib.




TURAMEP-in rəhbəri azərbaycanlı həmkarına minnətdarlığını bildirib və məlumatlandırıb ki, Türkiyə mediasiya sistemində bu gün 45 minə yaxın mediator fəaliyyət göstərir. Onların səyləri nəticəsində təkcə ötən il ölkədə 1,5 milyon hüquqi mübahisənin təxminən 65 faizi məhkəməyə qədər həll olunub.



# XƏYALİ ERMƏNİSTANDAN REAL ERMƏNİSTANA KEÇİD

## "Dəmir yumruq" bu dəyişmənin təkanverici qüvvəsi oldu

Kim nə deyirsə, desin:

İnsanları düz yola gətirməyin və ağıllandırmağın bir yolu da güc tətbiqidir!

Söhbət burada həm də məcburetmədən sonra həqiqətin və reallığın dərkindən, "ağıllandırıldıqdan sonra" düzgün yola qayıtmaqdan gedir.

**Qudurğanlıq edən, boş xülyalarla yaşayan, özünə deyil, başqalarına arxalanan dövlətlər də belədir.**

* Sülh yolu ilə danışırsan, eşitmir...

* Müəyyən güzəştlər təklif edirsən, razılaşmır...

* Beynəlxalq hüququ, mötəbər qurumlar tərəfindən qəbul edilmiş sənədləri xatırladırsan, qulaqardına vurur.

*Elə ki, "dəmir yumruğ"unu işə salırsan, başını əzib ordusunu darmadağın edirsən, əvvəlcə "qohum-əqrəba"sını köməyə çağırır, bundan bir şey çıxmadığını görəndə isə quzuya dönür.*

**Ürəyindəki niyyəti, istəyi başqa cür olsa da, yaranmış reallığın sərt üzü ilə hesablaşmağa, gücün qarşısında ipəyə dönərək güzəştə getməyə məcbur olur!**

**Həm də bundan betərindən qorunmaq üçün!**

❖ ❖ ❖

Ötən əsrin doxsanıncı illərinin əvvəlində:

* Ermənistan SSRİ-nin dağılmasından;

* Əli Azərbaycan xalqının qanına batmış Qorbaçovun hakimiyyətə gəlməsindən;

* Havadarlarının ona arxa duraraq silahlandırmasından;

* Erməni diasporunun siyasi və maliyyə dəstəyindən;

* Habelə Azərbaycana maymaq, qətiyyətsiz, təcrübəsiz və səriştəsiz insanların başçılıq etməsindən istifadə edərək ərazimizin 20 faizini işğal etdi.

* Nə beynəlxalq hüquqa məhəl qoydu;

* Nə BMT-nin 4 qətnaməsinin tələblərini yerinə yetirdi;

* Nə də Azərbaycanın "ən yüksək səviyyəli muxtariyyət" təklifinə əhəmiyyət verdi.

*Keçmiş DQMV-ni və Azərbaycanın daha iki rayonunu öz ərazisinə birləşdirmək, özününküləşdirmək niyyətini də gizlətmədi.*

■ İkili standartların əsas yanaşma üsuluna çevrilməsi;

■ BMT-nin öz qərarının icrasına aciz və səhlənkar münasibət bəsləməsi;

■ Münaqişənin sülh yolu ilə həlli məqsədilə yaradılan ATƏT-in Minsk qrupunun dişsiz və fərsiz, əksinə, erməni dəyirmanına su tökmək istiqamətində fəaliyyət göstərməsi;

*Habelə dünyada sözükeçən dövlətlərin lider, siyasətçi və parlamentarilərinin erməni diasporu tərəfindən rüşvət və korrupsiya yolu ilə ələ alınması sayəsində Qarabağ münaqişəsi acı bağırsaq kimi uzandıqca uzandı.*

* Ta o vaxta qədər ki, Azərbaycan iqtisadi cəhətdən gücləndi!

* Ta o vaxta qədər ki, Azərbaycanın siyasi nüfuzu artaraq dünyadakı mövqeləri əsaslı şəkildə möhkəmləndi!

* Ta o vaxta qədər ki, Azərbaycan özünə qüdrətli, ən müasir silahlarla silahlanmış ordu qurdu!

* Ta o vaxta qədər ki, Ermənistanın baş naziri Paşinyan içib sərxoş olaraq əsl niyyətlərini açıqladı, "Qarabağ Ermənistandır və nöqtə" deməklə sülh danışıqlarına nöqtə qoydu!

**Beləliklə, "dəmir yumruğ"un işə salınmasına əsas yaratmış oldu!**

❖ ❖ ❖

Münaqişənin gedişində və həllində diqqətçəkən bir neçə vacib məqam da vardır.

Əvvəla, Ermənistan işğal etdiyi ərazilərə "öz torpağı" kimi baxmır, Orta əsrlər vəhşiliyi və vandallığı nümayiş etdirirdi.

Belə ki, "din ayrı qardaşları" ilə birlikdə işğal etdikləri bütün əraziləri talayır, evləri və digər binaları söküb materiallarını İranın inşaat bazarlarında satdırır, bağları, meşələri qırıb daşıyır, dini, mədəni, tarixi abidələri və qəbiristanlıqları dağıdır, kənd və şəhərləri xarabalıqlara çevirirdilər.

Ələ keçirdikləri torpaqlarda isə məskunlaşma apara bilmirdilər.

* Əvvəla, hayların o qədər əhalisi yox idi.

* İkincisi, heç kəs hazır evini qoyub xarabalıqlarda yaşamaq istəmirdi.

* Ən nəhayət, xaricdən gətirilən Livan və Suriya ermənilərinin böyük əksəriyyəti şəraitsizliyi görərək geri qayıdırdı.

* İşğal faktına görə Azərbaycan tərəfindən blokadaya salınan bu ölkə yoxsul və perspektivsiz vəziyyətə düşdüyündən yerli əhali də məqam tapan kimi xaricə qaçırdı.

* Oğlan uşaqlarını orduda xidmətdən yayındırmaqdan ötrü köç edənlər də çox idi və bu proses indi də davam etməkdədir.

**Ermənistanı dünyada müdafiə edənlər çox olsa da, beynəlxalq aləm işğal faktını qəbul etmədi, Hayastanın özü də daxil olmaqla heç bir dövlət keçmiş DQMV-nin müstəqilliyini tanımadı!**

*Azərbaycan tərəfi isə bəzən təklənməsinə, müxtəlif təpkilərlə qarşılaşmasına baxmayaraq, torpaq itkisinə səbəb olacaq heç bir addım atmadı, sənəd imzalamadı!*

**Heydər Əliyevin siyasi kursunu ləyaqətlə davam etdirən cənab İlham Əliyev dəfələrlə açıq və qətiyyətli şəkildə bəyan etdi:**

*"Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcək, öz ərazisində ikinci Ermənistan dövlətinin yaranmasına yol verməyəcəkdir!"*

Dövlət başçısı İlham Əliyev sözdə dediklərini əməli işi ilə də möhkəmləndirdi.

Daim milli maraqlara söykənən daxili və xarici siyasət yürütdü, ölkənin iqtisadi gücünü artıraraq siyasi nüfuzunu yüksəltdi, dostlarının sayını artırmaqla dünyadakı mövqeyini möhkəmləndirdi, hücum diplomatiyası tətbiq etməklə beynəlxalq qurum və təşkilatlarda fəal və səmərəli iş aparıb, müasir və qüdrətli ordu qurdu.

**İlk dəfə Azərbaycan 2016-cı ilin dördgünlük Aprel müharibəsində öz gücünü və imkanlarını nümayiş etdirdi.**

*Amma Aprel dərslərindən nə Ermənistanın havadarları və müdafiəçiləri nəticə çıxardılar, nə də vassal dövlətin qudurğan başçıları...*

**Müdrik və uzaqgörən siyasət yürüdən, hər addımını məharətlə ölçüb-biçən Azərbaycan Prezidenti İlham Əliyev isə hadisələri "yetişdirdikdən" sonra əlverişli və dəqiq məqam seçdi:**

"Dəmir yumruğ"u işə saldı!

*44 gün ərzində üç cəbhədə - hərb meydanında, diplomatiya sahəsində və informasiya müharibəsində döyüşərək hər üç cəbhənin qalibi və qəhrəmanı oldu!*

**Otuzillik işğaldan sonra ilk dəfə olaraq Ermənistan və onun havadarları mövcud reallığı dərindən dərk etdilər.**

Rusiyanın vasitəçiliyi ilə imzalanan üçtərəfli Bəyanat təkcə kapitulyasiya aktı olmadı, həm də, əslində, Ermənistanı bir dövlət kimi məhvolmadan xilas etdi!

**"Xilasolma"nın" şərtini isə Müzəffər Ali Baş Komandan İlham Əliyev irəli sürmüşdü:**

*"Düşmən ordusunun Azərbaycan ərazisindən tam çıxarılma qrafiki verilməyincə hərbi əməliyyatlar dayandırılmayacaqdır!"*

*Belə də oldu!*

❖ ❖ ❖

Məğlubiyyətlə barışmaqda çətinlik çəkən Ermənistan sonralar cığallıq etməyə cəhdlər göstərdi.

Həm də elə güman edirdi ki, havadarlarının dəstəyi ilə son məqamda nəyəsə nail ola biləcək!

**Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin polad iradəsi və dönməz qətiyyəti hər cür məkrə və oyunbazlıqlara üstün gəldi!**

*"Dəmir yumruq" müxtəlif formada bir neçə dəfə işə salındı:*

■ 23 mart 2023-cü ildə unikal əməliyyatla Laçın yolu üzərində nəzarət-buraxılış məntəqəsi quruldu!

**Ərazi bütövlüyümüz bərpa olundu!**

■ 20 sentyabr 2023-cü ildə cəmi 23 saat çəkən lokal antiterror əməliyyatı nəticəsində Qarabağ ərazisindəki bütün terrorçular zərərsizləşdirildi, qanunsuz hərbi birləşmələr ləğv edildi və tərk-silah olunaraq ərazimizdən çıxarıldı!

**Dövlət suverenliyi və Konstitusiya əsasları təmin edildi!**

■ 16 aprel 2024-cü ildə yüksəksəviyyəli razılıq əsasında Rusiya sülhməramlı kontingenti ərazimizi tərk etdi.

**Bütün bədbin proqnozlar puça çıxdı, sülhməramlılar musiqi sədaları altında bizdən ayrıldılar.**

Bu gün isə birbaşa və vasitəçilərsiz sülh danışıqları, delimitasiya və demarkasiya prosesləri gedir.

*Ermənistanın baş naziri N.Paşinyan özünün dərk etdiyi həqiqəti xalqına da çatdırmaq istəyir:*

*"Xəyali Ermənistan"dan yaxa qurtararaq real Ermənistanı məhvolmadan xilas etməliyik".*

*"Sərhədlərin müəyyənləşdirilməsi və sülh müqaviləsinin imzalanması bugünkü Ermənistanın xilasına xidmət edir".*

**Bunu Ermənistanda başa düşməyənlər, yaxud anlamaq istəməyənlər də var!**

"Mifik Ermənistan" hesabına vəzifəyə gələnlər, vəzifədə olarkən xalqı çapıb-talayanlar, habelə bu adla ermənilərdən pul toplayaraq milyardlara yiyələnən, yaşadıqları dövlətlərdə rüşvətlə vəzifə əldə edərək ölkə siyasətinə təsir göstərməyi bacaran erməni diasporunun üzvləri yağlı tikəni əldən buraxmaq istəmirlər.

*Onların məqsədi nə müstəqil Ermənistan, nə də azad, firavan yaşayacaq erməni xalqıdır!*

**Diaspor xaricdə rahat və təhlükəsiz yaşamaqla "Böyük Ermənistan" adı ilə, əslində, millətlərini fəlakət və məhrumiyyətlərə salmaqla şəxsi maraq və sərvət toplamaq hərisliklərini təmin edir.**

**Qurbanlıq qoyuna çevrilən erməni xalqı isə, deyəsən, ayılmaqdadır.**

*Bu dəfə erməni kilsəsi işə qarışaraq avam camaatın önünə çıxıb.*

*Keşiş Baqrat Qalstanyan sülh danışıqlarına, sərhədlərin müəyyənləşdirilməsinə etiraz hərəkatının başında dayanır.*

Arxasından görünənlər isə Koçaryan və Sarkisyan, Katalikos II Qaregin və işğal dövründə milyardlar qazanan xunta üzvləridir.

Bu gün revanşizm, hikkə, pul qazanmaq ehtirası erməni xalqının taleyini dəyişə biləcək proseslərə qarşı çıxan xuntanın gözünü kor edib.

Onlarla müqayisədə Paşinyan daha gözüaçıq görünür!

**Çünki 44 günlük Zəfər müharibəsində İlham Əliyevin "dəmir yumruğ"u onu ağıllandıraraq gözünü açdı!**

**Bugünkü reallığı, Azərbaycanın qüdrətini və imkanlarını görüb dərk etməsində yardımçı oldu!**

*Həmin "dəmir yumruq" daim hazır vəziyyətdədir!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev isə bütün xəbərdarlıqlarını edib.**

**Həm Paşinyana, həm keçmiş prezidentlərə, həm bütün erməni diasporlarına, həm də Ermənistanın müdafiəçilərinə və havadarlarına!**

Başa düşənlər yeni reallıqları dərk edərək lazımi nəticələri çıxarıblar!

**Başa düşməyənləri isə başa salmağın qısa və təsirli yolunu Müzəffər Ali Baş Komandan İlham Əliyev hamıdan yaxşı bilir!**

❖ ❖ ❖

Paşinyan sülh danışıqlarına "nöqtə" qoyanda dünyadan xəbərsizliyini, Azərbaycanın imkanlarını düzgün dəyərləndirmədiyini, Ermənistanın gücünü isə şişirtdiyini sübut etmişdi.

Başı daşdan-daşa dəyən, ağır məğlubiyyət yaşayan, reallıqları dərindən dərk edən erməni baş naziri artıq doğru yoldadır. Əslində:

*"Biz tarixi deyil, müasir Ermənistanı qorumalıyıq" söyləməklə və ona uyğun addımlar atmaqla erməni xalqına böyük xidmət göstərir.*

Beyni xülyalarla zəhərlənmiş, aldadılmış erməni xalqı bunu başa düşüb qiymətləndirə biləcəkmi?

Yoxsa yenə "dəmir yumruq" işə düşməlidir?

❖ ❖ ❖

**Hadisələrdən göründüyü kimi, revanşistlərin önünə erməni kilsəsinin keşişləri keçib.**












**Kilsəni daim terrorçu yuvasına, gizli silah-sursat anbarına çevirən kilsə təmsilçiləri...**

*44 günlük Zəfər müharibəsində əlinə avtomat götürərək ordunu işğala ruhlandıran keşişlər də vardı.*

*Bu gün yenə də hayları yanlış yola çəkirlər.*

Amma "dəmir yumruq" işə düşən kimi əvvəlkitək qaçıb kilsədə gizlənəcəklər.

İndi isə ciblərinə pul basanlar olduğundan meydana çıxıblar.

**Qədim türk məsəlidir: "Meydan boş qalanda ora çaqqal sürüsü dolar".**

**Revanşistlərin yenidən Azərbaycanla müharibə aparmağa, bizdən torpaq almağa gücləri çatmaz!**

**Getdi o günlər daha!**

*Ermənistan dövlətçiliyinin xilas yolu yaxın qonşuları Türkiyə və Azərbaycanla razılaşıb, onların tələblərini yerinə yetirməkdədir!*

**Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İzmir şəhərində "EFES - 2024" çoxmillətli təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə açıq şəkildə bildirdi:**

*"Qarabağın 30 illik işğaldan sonra azad edilməsi bölgədə tarixi fürsət pəncərəsi açıb və bu fürsətdən istifadə etmək lazımdır. Erməni xalqı gələcəyini xaricdə "qəzəl" oxuyanlarda deyil, əsrlərdir birlikdə yaşadığı qonşularda görməli, anlamalı və lazım olanı cəsarətlə etməlidir".*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev də xəbərdarlığını edib!**

**"Dəmir yumruq" hazır vəziyyətdədir və gicişən baş axtarır.**

Yeganə yol sülh danışıqları ilə Azərbaycanın tələblərini ödəməkdir!

**Bəxtiyar SADIQOV**







# Bakı Enerji Həftəsi bütün iştirakçılar üçün faydalı olacaq

**"Bakı Enerji Həftəsi Azərbaycanın enerji potensialının təqdim edilməsi ilə yanaşı, bu sahədə əməkdaşlığın gücləndirilməsi və ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Dünyanın aparıcı şirkətlərinin, müxtəlif dövlət və hökumət rəsmilərinin enerji məsələləri ilə bağlı müzakirəsinə imkan yaradan bu platforma yüksək statusa malikdir. Bakı Enerji Həftəsi həm də Azərbaycanı dünyaya qlobal işgüzar tədbirlərin təşkil edildiyi mərkəz kimi tanıdır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, Bakı Enerji Həftəsi regionun enerji sahəsində mühüm hadisəsi hesab edilir: "Özündə 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi - "CaspianOil&Gas", 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi - "Caspian Power" və 29-cu Bakı Enerji Forumu. "CaspianOil&Gas" və "Caspian Power" sərgiləri kimi 3 vacib tədbiri birləşdirən Bakı Enerji Həftəsi xüsusi əhəmiyyət kəsb edir. Dünyanın enerji sənayesinin liderlərini bir araya toplaması, xüsusilə də açılış mərasimində Prezident İlham Əliyevin iştirakı Bakı Enerji Həftəsinin əhəmiyətliliyini təsdiq edir".

Deputat qeyd edib ki, bu işgüzar tədbir nəticə etibarilə enerji sahəsində dövlət-özəl əməkdaşlığını gücləndirəcək, yeni ideyaların müzakirəsinə imkan yaradacaq: "Həmçinin enerji sahəsində real və perspektivə hesablanan növbəti addımların atılması da mümkün olacaq. Bununla yanaşı, innovasiya və texnologiyaların təqdimatı baxımından da Bakı Enerji Həftəsi faydalı hesab edilməlidir. Nəzərə almaq lazımdır ki, günümüzün ən vacib məqamlarından biri innovativ dəyişikliklərdir. Bu baxımdan Bakıda keçirilən tədbir həm də şirkətlər tərəfindən yeni innovasiyaların təqdim edilməsi və bu sahədə Dördüncü Sənaye İnqilabının nəticələrinin müzakirəsi istiqamətində mühüm töhfə olacaq".

Vüqar Bayramovun sözlərinə görə, bu platforma Azərbaycanın enerji sahəsindəki potensialını nümayiş etdirməsinə də şərait yaradır: "Dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı, nəqliyyatı və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələrin və təşkilatların cəlb edildiyi Bakı Enerji Həftəsi həm də ökəmizin enerji sahəsindəki üstünlüyünün bir növ təqdimatıdır. İqlim dəyişmələrinin yaratdığı fəsadlar, onların qarşısının alınması yolları, eləcə də "yaşıl enerji" kimi mövzular da Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlərdə müzakirə ediləcək. Beləliklə, bu regional və qlobal tədbirdən ölkəmiz, eləcə də iştirakçılar faydalana biləcəklər".

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

# Çin təmsilçisi: "Sərgidə iştirakımızın əsas məqsədi yerli və xarici şirkətlərlə tərəfdaşlıq qurmaqdır"

**"Sərgidə iştirakımızın əsas məqsədi yerli və xarici şirkətlərlə tərəfdaşlıq qurmaq, öz logistika xidmətlərimizi beynəlxalq səviyyədə nümayiş etdirməkdir".**




Bunu AZƏRTAC-a Bakı Enerji Həftəsi çərçivəsində 29-cu "Caspian Oil&Gas" və 12-ci "Caspian Power" sərgisində Çinin "Sichuan BLojoe International Logistics Co,, Ltd" şirkətinin direktoru Hao Luo deyib.

Təmsil etdiyi şirkət haqqında məlumat verən iştirakçı deyib: "Şirkətimiz logistika sahəsində fəaliyyət göstərir. Hazırda Çindən Azərbaycana 500-dən çox konteyner gəlir. Bundan əlavə, qeyd etmək istəyirəm ki, şəhəriniz olduqca gözəldir. Bu, mənim Azərbaycana ilk səyahətimdir və Bakı olduqca xoşumuza gəldi".

*Əvvəli 1-ci səh.*

# 37 ölkə, 300 şirkət...

## Azərbaycan qlobal enerji təhlükəsizliyinə mühüm töhfə verir

Özündə üç mühüm tədbiri birləşdirən Bakı Enerji Həftəsi bütün dünyanın enerji sənayesi sahəsində mövcud olan liderlərini bir araya gətirir və bununla da diqqəti Azərbaycana yönəldir.

ABŞ Prezidenti Cozef Bayden də Bakı Enerji Həftəsinə görə Prezident İlham Əliyevə məktub ünvanlayıb.

Vurğulayaq ki, bu, ABŞ Prezidentinin bir həftə ərzində Azərbaycana göndərdiyi ikinci təbrik məktubudur.

C.Bayden məktubunda xüsusi qeyd edir ki, regional sabitlik və əlaqələr Birləşmiş Ştatlar üçün prioritet məsələlərdir. Onilliklərlə davam etmiş münaqişəyə son qoyacaq möhkəm və ləyaqətli sülh sazişi Cənubi Qafqazı transformasiya edəcək və Azərbaycanın regiondakı rolunu fundamental şəkildə dəyişəcək: "Birləşmiş Ştatlar bu nəcib iddianı dəstəkləməyə hazırdır. Biz sülh və firavanlığın təmin edilməsinin əsas prinsiplər olaraq qəbul olunmasını gələcək nəsillərə borcluyuq".

Baydenin bu məktubu bir neçə müddətdir Azərbaycan ABŞ əlaqələrinin pozulduğunu iddia edən qərəzli qüvvələrə, bununla bağlı yalanlar tirajlayan erməni lobbisinə tutarlı cavabdır. Əgər ABŞ bundan sonra da Azərbaycan ilə Ermənistan münasibətlərində neytrallığını qorusa, ölkələrimiz arasındakı əlaqələr daha da inkişaf edər.

Onu da qeyd edək ki, Bakı Enerji Həftəsi dünyada çox nadir enerji toplantısıdır ki, ABŞ Prezidenti təbrik ünvanlayıb. Bu, həm də Azərbaycanın qlobal enerji təhlükəsizliyi üçün mühüm təşəbbüslərinə göstərilən etimadın təzahürüdür.

Sərgi və forum iştirakçılarına Böyük Britaniya və Türkiyənin dövlət başçılarından da təbrik məktubları göndərilib.

Bakı Enerji Həftəsinə bu cür beynəlxalq səviyyəli maraq həm də ölkəmizin güvənli, etibarlı tərəfdaş olduğunun əyani sübutudur. Tədbirin açılışında Prezident İlham Əliyev də məhz bu məqamı xüsusi vurğuladı: "Bizim vədlərimiz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanan bütün müqavilələr tam həyata keçirilib, onlar parlament səviyyəsində ratifikasiya edilib və qanun şəklində imzalanıb. Yəni həmin müqavilələrin bir sözü, bir ifadəsi belə dəyişdirilməyib. Məhz buna görə də biz daha bir sürətli inkişafı görürük - "yaşıl enerji" və bərpaolunan enerji resurslarının istehsalı".

### Növbəti qlobal tədbirə evsahibliyi

Budəfəki Bakı Enerji Həftəsi bir sıra əlamətdar hadisələrə təsadüf etməsi ilə də diqqət çəkir. Belə ki, bu il Azərbaycanın enerji strategiyasının müəllifi, Ulu Öndər Heydər Əliyevin qətiyyəti ilə "Əsrin müqaviləsi"nin imzalanmasının 30-cu ili tamam olur. Bu əlamətdar hadisə Bakı Enerji Həftəsinin proqramında da əksini tapıb.

Həmçinin bu il Beynəlxalq Xəzər Neft və Qaz "Caspian Oil&Gas" sərgisinin təsis edilməsindən 30 il ötür. Ötən 30 il ərzində Azərbaycanda enerji sahəsi üzrə mühüm nailiyyətlər əldə edilib və ölkəmizin təşəbbüsü və iştirakı ilə regionda qlobal enerji layihələri həyata keçirilib. Buna görədir ki, hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyində başlıca rola malikdir.

Açılış mərasimində "Avropa Komissiyası Azərbaycanı ümumavropa qaz təchizatçısı adlandırır. Yəni bu gün qazımızı idxal edən 8 ölkədən 6-sı Avropa ölkəsidir", - deyən Prezident İlham Əliyev onu da bildirib ki, təchizatımızın coğrafiyası bundan sonra da genişlənəcək.

Qeyd edək ki, Bakı Enerji Həftəsində 37 ölkədən 300-dək şirkət iştirak edir. İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər isə ilk dəfədir ki, bu tədbirə qatılırlar. Builki sərginin tərkibi iştirakçıların ümumi sayının 15 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. Onların əksəriyyəti Azərbaycanın "yaşıl enerji" sahəsinə yüksək maraq göstərən xarici iştirakçılardır.

Göründüyü kimi, Bakı Enerji Həftəsinin timsalında Azərbaycan növbəti qlobal tədbirə uğurlu evsahibliyi edir. Dünyanın dörd bir yanından mötəbər qonaqların Bakıya üz tutaraq qlobal enerji məsələlərini müzakirə etməsi həm də Azərbaycanın bu sahədə aparıcı ölkə olaraq qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələri bir daha nümayiş etdirir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Prezident İlham Əliyevin Bakı Enerji Həftəsinin açılış mərasimindəki çıxışı xarici mediada geniş işıqlandırılıb

**Prezident İlham Əliyevin Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılış mərasimində çıxışı xarici mediada geniş işıqlandırılıb.**










AZƏRTAC xəbər verir ki, Türkiyənin aparıcı media qurumları - Anadolu Agentliyi, "TRT", "Haber Global" media qurumları, "Yirmidört.tv", "Haberler.com", "Ekovitrin", "Son dakika" və digər onlayn media qurumlarında, "Akşam" və digər qəzetlərdə tədbir barədə silsilə məqalələr dərc edilib.

"Prezident Əliyev: Azərbaycanın təbii qaz qıtlığı aradan qaldırılıb", "Bakıda 29-cu Beynəlxalq Xəzər Neft və Təbii Qaz Sərgisi işə başlayıb", "Azərbaycan Prezidenti Əliyev: Azərbaycan qaz təchizatı məsələlərində özünü etibarlı tərəfdaş kimi artıq sübut edib", "Prezident Əliyev Bakı Enerji Həftəsində çıxış etdi: Azərbaycan Avropanın qaz təchizatçısıdır" və digər sərlövhələrlə yayımlanan xəbərlərdə Azərbaycan Prezidentinin tədbirdəki çıxışı xüsusilə diqqət mərkəzində saxlanılıb.

Dövlətimizin başçısının fikirlərinə istinadla bildirilib ki, "Şahdəniz" layihəsi Azərbaycanda qaza olan qıtlığı aradan qaldırdı. Bu gün 8 ölkə Azərbaycan qazını idxal edir. Bunlardan 6-sı Avropa ölkəsidir və Avropa Komissiyası Azərbaycanı ümumavropa qaz təchizatçısı adlandırır: "Bu il 24 milyard kubmetrdən artıq olacaq. Səkkiz ölkə Azərbaycandan qaz alır və Azərbaycan qaz təchizatında etibarlı tərəfdaş olduğunu bir çox ölkələrə sübut etdi".

Yazılarda Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərlə bağlı qeyd edilib ki, son 30 il ərzində Azərbaycanın imzaladığı bütün müqavilələr tam həyata keçirilib: "Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb. Bunun nəticəsidir ki, biz bu gün bərpaolunan enerji sahəsində növbəti sürətli inkişafın şahidiyik".

Türkiyə mətbuatında Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərdə bərpaolunan enerji potensialı barədə fikirləri xüsusilə diqqət mərkəzində saxlanılıb: "2027-ci ilədək 2 qiqavat həcmində bərpaolunan enerjinin əldə edilməsi tamamilə real hədəfdir. Bir daha təkrar edirəm ki, bu, sadəcə, başlanğıcdır". Bundan başqa, qardaş ölkə mediası dövlətimizin başçısının "Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı var. 2020-ci ilin noyabrında həmin ərazilər azad ediləndən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyalar istifadəyə verilib. 3-5 il ərzində bu rəqəm 500 meqavata çatacaqdır. Beləliklə, bərpaolunan enerjinin 1 qiqavat həcmi bizə yarım milyard kubmetr qaza qənaət etməyə imkan verəcək ki, bazarın bu qaza ehtiyacı var və bu ehtiyac davam edəcəkdir" fikri də oxucuların diqqətinə çatdırılıb.

Yazılarda ildən-ilə miqyası genişlənərək Bakı Enerji Həftəsi adlandırılan bu tədbirin ilk dəfə 1994-cü ildə keçirildiyi və o vaxtdan bəri Azərbaycanın enerji sektoruna birbaşa xarici sərmayənin cəlb edilməsində çox vacib rol oynadığı qeyd olunub. Xəbərlərdə 30-dan çox ölkədən 300 şirkətin iştirak etdiyi sərgilərdə neft hasilatı və enerji nəqli, neft və təbii qazın saxlanması və xidmətlərinə dair innovativ texnologiyaların nümayiş etdirildiyi bildirilir.

Rusiya mediası da Prezident İlham Əliyevin çıxışını geniş işıqlandırıb. Bu ölkə mətbuatında yayımlanan materiallarda Azərbaycanın dövlət başçısının qaz ixracının coğrafiyasının genişləndirilməsi ilə bağlı bəyanatına xüsusi diqqət yetirilib. Azərbaycan lideri vurğulayıb ki, bu gün bizim təbii qazı alan səkkiz ölkədən altısı Avropa ölkəsidir. "Hazırda öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan təbii qazına ehtiyacı olan daha bir neçə ölkə ilə danışıqların aktiv fazası gedir", - TASS Agentliyi Prezident İlham Əliyevin çıxışından sitat gətirib.

"PRIME" İqtisadi İnformasiya agentliyi dövlət başçısının bu il Azərbaycandan qaz ixracının həcminin 24 milyard kubmetrdən çox olacağı barədə dediklərinə istinad edib.

"Neft i kapital" nəşri yazıb ki, Azərbaycan 5 ildən sonra bərpaolunan enerji gücünün 2 qiqavatını təqdim edəcək. Nəşrin Azərbaycan Prezidentinin çıxışına həsr olunmuş materialında həmçinin bildirilib ki, Qarabağ və Şərqi Zəngəzur regionları böyük hidroenergetika potensialına malikdir.

"Vestnik Kavkaza" agentliyi Azərbaycan Prezidentinin çıxışından çıxarışlar dərc edərək Azərbaycanın son 30 ildə imzaladığı bütün razılaşmaların tam şəkildə yerinə yetirildiyini xüsusi vurğulayıb. Bunun sayəsində respublika "yaşıl enerji" və bərpaolunan resursların istehsalını inkişaf etdirməyə müvəffəq olub. "Şahdəniz" layihəsi Azərbaycanda qaz qıtlığına son qoydu", - agentlik əlavə edib.

İspandilli mediada da Bakı Enerji Həftəsinə və dövlətimizin başçısının çıxışına dair məqalələr yayımlanıb. İspaniyanın "Invest.com", "El Periodico de la Energia" nəşrlərində, eləcə də İsveçrənin ispan dilində yayımlanan "Swissinfo" portalında yer alan yazılarda bu gün Azərbaycan qazının altısı Avropada yerləşən səkkiz ölkəyə ixrac olunmasından, Azərbaycanın qaz ixracının coğrafiyasını genişləndirməyi planlaşdırmasından və enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan qazına ehtiyacı olan bir neçə ölkə ilə fəal danışıqların aparılmasından söz açılıb. Məqalələrdə bu il ölkəmizin 24 milyard kubmetrdən çox qaz ixrac edəcəyi, 2020-ci ilin dekabrında istifadəyə verilən TAP kəmərinin Azərbaycan qazını Xəzər dənizindəki yataqlardan Avropaya nəql etməsi və onun "Cənub qaz dəhlizi"nin bir hissəsi olması xüsusi vurğulanıb. Bundan başqa, yazılarda dövlətimizin başçısının 2023-cü ildə Azərbaycanın TAP vasitəsilə Avropaya 11,8 milyard kubmetr qazın nəql etməsi, ümumilikdə ixracı nəzərdə tutulan 24 milyon kubmetr qazın təxminən 12 milyard kubmetrinin Avropanın payına düşməsi, bu göstəricinin 2021-ci ildə 8 milyard kubmetrdən çox olması barədə fikirləri diqqətə çatdırılıb. İspandilli media qurumları Azərbaycanın TAP vasitəsilə qaz tədarükünü artırmaq üçün səylərini daha da artırması barədə Prezidentin fikirlərinə xüsusilə geniş yer verib.

Enerji məsələləri ilə bağlı ərəb dilində yayımlanan nüfuzlu "Attaqa.net" nəşri də dövlətimizin başçısının çıxışında səsləndirdiyi fikirlər, Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər, Azərbaycanın "yaşıl enerji" siyasəti barədə xəbərlər dərc edib. Xəbərlərdə dünyada enerji böhranının yaşandığı bir dövrdə Azərbaycanın evsahibliyi etdiyi bu mötəbər tədbirdə 30-dan çox ölkədən 300-dək şirkətin qatıldığı və mühüm müzakirələrin aparıldığı, eləcə də ABŞ və Türkiyə prezidentlərinin tədbirlə bağlı təbrik məktubları ünvanladıqları bildirilib. Nəşrdə dövlətimizin başçısının Azərbaycanın qaz ixracını artırması planları ilə yanaşı, ölkəmizin bərpaolunan enerji potensialından istifadə istiqamətində atdığı addımlar barədə də məlumat verilib və Prezident İlham Əliyevin çıxışında Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı, həmin ərazilərin azad edilməsindən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyaların istifadəyə verilməsi və 3-5 il ərzində bu rəqəmin 500 meqavata çatacağı barədə fikirləri əksini tapıb. Məqalələrdə Azərbaycanın bərpaolunan enerji sahəsində əməkdaşlığı inkişaf etdirməsi, Prezident İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin Bakı Enerji Həftəsi çərçivəsində iki günəş və bir külək-elektrik stansiyasının təməlini qoyması barədə məlumat verilib. Bundan başqa, SOCAR ilə Türkiyənin BOTAŞ şirkəti arasında təbii qaz təchizatı, nəqli və tranziti sahəsində bir sıra müqavilələrin imzalandığı da qeyd olunub.



# Dövlətçiliyin xilas məqamı

## 31 il əvvəl süqut ərəfəsində olan müstəqilliyimizi Heydər Əliyevin Qurtuluş missiyası qorudu

**AXC-Müsavat hakimiyyətinin siyasi səriştəsizliyinin yaratdığı dərin böhranlar 1993-cü ilin ortalarına doğru özünün pik həddinə çatmışdı. Ölkə faktiki olaraq idarə olunmurdu. Mərkəzdənqaçma, dərinləşən siyasi böhran, separatizm meyillərinin yaranması və inkişafı dövlətçiliyimizi və yenicə qazandığımız müstəqilliyimizi məhvə doğru aparırdı. Bütün bunların nəticəsi olaraq cəbhə xəttində hərbi uğursuzluqlar ard-arda davam edirdi.**

### Gəncə hadisələri siyasi böhranın kulminasiya nöqtəsi idi

Onsuz da vəziyyətin gərgin olduğu respublikamızda 1993-cü ilin yayında siyasi və hərbi şərait xüsusilə ağırlaşmışdı. Əbülfəz Elçibəy iqtidarı faktiki olaraq hakimiyyət strukturlarına, o cümlədən silahlı birləşmələrə nəzarəti tam itirmişdi. Artıq bir sıra ərazilərdə - Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda silahlı birliklər separatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər. Ölkədə vətəndaş müharibəsi qaçılmaz idi.

Xatırladaq ki, hələ 1993-cü ilin fevralında prezident Ə.Elçibəy keçmiş korpus komandiri S.Hüseynovun rəhbərlik etdiyi 709 saylı hərbi hissənin ləğv edilməsi haqqında sərəncam imzalamışdı. Mərkəzdənqaçmanın, hakimiyyətsizliyin, iqtidarın dövlət idarəçiliyini tamamilə itirməsinin nəticəsi idi ki, S.Hüseynov bu sərəncamın tələblərinə tabe olmadı. Prezidentin 709 saylı hərbi hissənin rəhbərliyinin dəyişdirilməsi və onun Ağcabədi rayonuna köçürülməsi haqqında yeni sərəncamı da kağız üzərində qaldı. Üstəlik, Gəncəyə gələn hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri girov götürüldülər.

Bundan sonra hakimiyyət 709 saylı hərbi hissənin tərk-silah edilməsi ilə bağlı növbəti səhv qərar qəbul etdi və bununla da ölkədə qardaş qırğınına əsas yaratdı. İyunun əvvəllərində Gəncədə sözügedən hərbi hissə ilə hökumət qüvvələri arasında silahlı toqquşma baş verdi.

Gəncədə baş verənlər AXC-Müsavat qaragüruhunun idarəçilikdə buraxdığı kobud səhvlərin artıq özünün kulminasiya nöqtəsinə çatmasından xəbər verirdi. Çoxsaylı insan ölümünə səbəb olan bu qardaş qırğını ölkədəki anarxiyanın, xaosun, özbaşınalığın, cəbhə bölgələrində bir-birinin ardınca baş vermiş uğursuzluqların, hakimiyyətdə olanların pozucu fəaliyyətinin və AXC-Müsavat iqtidarına qarşı ümumxalq inamının olmamasının məntiqi nəticəsi idi.

### Antiazərbaycançı qüvvələrin planları alt-üst oldu

Bundan sonra S.Hüseynovun tabeçiliyindəki silahlı dəstə Gəncə və ətraf rayonlarda yerli hakimiyyət strukturlarını devirərək Bakıya doğru hərəkət etməyə başladı. Baş verənlər Azərbaycandakı hərbi-siyasi böhranı daha kritik həddə çatdırdı və ölkə vətəndaş müharibəsi astanasına gətirildi. Həmin faciəvi və iztirablı hadisələr zamanı antiazərbaycançı qüvvələrin fikrincə, Azərbaycan parçalanmalı, dövlətçiliyimiz və müstəqilliyimiz məhv olmalı idi.

Lakin Ulu Öndər Heydər Əliyevin həmin günlərdə Naxçıvandan Bakıya gəlişi antiazərbaycançı qüvvələrin planlarını alt-üst etdi. Vətəninin ağır günündə xalqın istəyi ilə Naxçıvandan Bakıya gələn Ulu Öndərin böyük səyləri və müdrikliyi nəticəsində ölkədə vətəndaş müharibəsinin qarşısı alındı. Ümummilli Liderin hakimiyyətə qayıdışı ilə Azərbaycan məhv olmaq təhlükəsindən xilas oldu.

Heydər Əliyev bu hadisələrlə bağlı çıxışlarının birində deyib: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı və ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Güclü siyasətçi, praqmatik lider, müdrik dövlət xadimi kimi Heydər Əliyevin titanik səyləri nəticəsində müstəqilliyin ilk illərində dağılmaq və dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmış Azərbaycanı bütün fəlakətlərdən qurtarmaq mümkün oldu. Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə ölkədə ictimai-siyasi sabitlik təmin edildi, ölkə stabil inkişaf yoluna qədəm qoydu. Heydər Əliyev dövlətçiliyimizi və müstəqilliyimizi qorudu, müasir Azərbaycan dövlətinin banisinə, xalqımızın Ümummilli Liderinə çevrildi. Ulu Öndərin siyasi hakimiyyətə gəlişinin ilk rəsmiləşdiyi tarix - iyunun ayının 15-i isə təqvimə Milli Qurtuluş Günü kimi həkk olundu.

31 il əvvəl Heydər Əliyevin xilas etdiyi, inkişaf yoluna çıxardığı Azərbaycan indi Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qürurlu dövrünü yaşayır. Torpaqlarımızın azad olunması və ərazi bütövlüyümüzün bərpa edilməsi isə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu müasir Azərbaycanın inkişaf və yüksəliş tarixini daha da şərəfləndirdi. Bu tarixi uğurlarımız göstərir ki, Prezident İlham Əliyevin tarixinin ən qüdrətli mərhələsinə yüksəltdiyi Azərbaycan qarşısında dayanan bütün hədəflərə qətiyyətlə çatan dövlətdir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Demokratiya pərdəsinə bürünmüş təcavüzkar Fransa

## Xalqları ağır məhrumiyyətlərə düçar edən bu ölkənin insan hüquqlarından danışmağa haqqı yoxdur



**"Fransa dövləti yarandığı gündən müstəmləkəçilik siyasəti yürüdüb və bu gün də təcavüzkar əməllərini həyata keçirməkdə davam edir. Əllidən çox ölkəni uzun illər öz təsiri altında saxlayan və həmin xalqlara olmazın müsibətlər yaşadan Fransanın demokratiyadan, insan haqlarından və azadlıqdan danışmağa haqqı yoxdur".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, bu ölkənin Əlcəzairdə, Polineziyada, Korsikada, Malayziyada, Cənub-Şərqi Asiyada, Latın Amerikasında, Sakit okean hövzəsində həyata keçirtdiyi müstəmləkəçilik siyasəti və kütləvi qırğınlar törətməsi onu zülmkar, qəddar bir dövlət kimi bəşəriyyətə təqdim edir. Əlcəzairdə bir milyondan çox insanın qətlinə fərman verən və bu gün də qətllər törədən rəsmi Paris Azərbaycana münasibətində də yaramaz mövqe tutub. "Bir çox halda Fransa Prezidenti Makron çirkin siyasətini demokratiya, insan hüquqları adı altında pərdələməyə çalışır. Fransa bu gün dənizaşırı ərazilərdə məkrli siyasətini davam etdirir. Xüsusilə Polineziyanın azadlığı uğrunda gedən mübarizənin qarşısının alınmasında, ada ölkəsinə qarşı münasibətlərdə bu, özünü aydın göstərir. Ölkələrin müstəqilliyindən, insanların hüquqlarından, beynəlxalq normalardan danışan Paris bu gün Polineziyanın mübarizə əzmini yatırtmaqdan ötrü ən çirkin yollara əl atır. Hətta bu xalqların dilləri belə qadağan edilir", - deyə o əlavə edib.

Tahir Rzayev qeyd edib ki, Polineziyada davam edən iğtişaşlar və Fransanın bu etirazların qarşısını amansızlıqla alması xalqın gələcək arzularını boğmağa xidmət edir. Uzun illər Polineziyanın kömür və qaz mədənlərini istismar edən, xalqı ağır vəziyyətdə yaşamağa vadar edən Fransa çirkin məqsədlərini həyata keçirmək üçün insanların qətlinə fərman verməkdən də çəkinmir. Dünyada baş verən hadisələr, müstəqillik uğrunda mübarizə aparan xalqların iradəsi deməyə əsas verir ki, Fransanın səyləri əbəsdir. Çünki xalqların müstəqillik arzusu qarşısında heç bir qüvvə tarixən davam gətirə bilməyib.

Komitə sədri vurğulayıb ki, Fransanın özünü demokratik dövlət kimi təqdim etməsi bəşəri xəyanətdir, insanlığa qəsd kimi qiymətləndirilməlidir: "Xalqları zülm altında saxlamaq, onların dilini, tarixini saxtalaşdırmaq və insanları ən ağır məhrumiyyətlərə düçar etmək demokratiya, azadlıq deyil, xalqların mənəviyyatına, tarixinə təcavüzdür. Təəssüf ki, Fransa kimi təcavüzkar ölkə bu gün BMT Təhlükəsizlik Şurasında üzv statusu daşıyır. Əslində, belə ölkələr çox ciddi sanskiyalara məruz qalmalı və haqlarında qətnamələr çıxarılmalıdır".

Fransanın uzun illər Emənistanı dəstəklədiyini və bu gün də onu silahlandırdığını xatırladan komitə sədri bildirib ki, bu dövlət həmçinin təcavüzkarlıq yoluna qədəm qoyan, bu çirkin məqsədi həyata keçirən bir çox ölkəni himayəsinə alır və dünyada müharibələrin alovlanmasına, qarşıdurmaların genişlənməsinə rəvac verir. Haqq, ədalət hər zaman qalib gəlir və Fransanın məkrli siyasəti uzun müddət davam edə bilməz. Ona görə də bir çox xalqın, eləcə də Polineziyanın müstəqillik arzuları həqiqətə çevriləcək və Fransanın müstəmləkəçilik siyasəti bəşəriyyət tərəfindən layiqincə qiymətini alacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistan dünyada mina terrorçusu kimi tanınır



**"Azərbaycan dünya miqyasında mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. Ermənistan 30 illik işğalçılıq siyasəti zamanı ərazilərimizə 1.5 milyondan çox mina yerləşdirib. Ölkəmizin ərazisinin 12 faizi minalarla və partlamamış sursartlarla çirklənib. Bu, kənd təsərrüfatı üçün yararlı torpaq fondunun 28 faizi deməkdir. Bu faktlar sübut edir ki, mina terroru Ermənistanın müharibə cinayətlərinin ayrılmaz tərkib hissəsidir".**

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat qeyd edib ki, müharibədən sonra xeyli ərazilər minalardan təmizlənib: "Lakin reallıq bundan ibarətdir ki, minatəmizləmə işi uzun müddət tələb edən prosesdir. Bunun nəticəsidir ki, müharibə artıq 4 ilə yaxındır bitsə də, mina qurbanlarının sayı getdikcə artır. Bunun əsas səbəbləri sırasında Ermənistanın Azərbaycan ərazisində basdırdığı minaların dəqiq xəritələrini təqdim etməməsi, keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı obyektlərə tələ xarakterli minalar yerləşdirməsidir. Onu da qeyd etmək lazımdır ki, 2020-ci ildən 2023-cü ilə qədər ermənilər tərəfindən yeni minalanmış zonalar yaradılıb, Azərbaycanın ərazisinə minalar basdırılıb. Bunun məsuliyyəti Ermənistanın üzərinə düşür".

Deputatın sözlərinə görə, Azərbaycan dövlətinin qarşısında dayanan əsas vəzifələrdən biri 30 illik erməni işğalı zamanı vəhşicəsinə dağıdılmış yurd yerlərimizi bərpa etmək, həmin şəhər və kəndlərə yenidən həyat verməkdir. Lakin Ermənistanın törətdiyi cinayətlər sırasında ərazilərimizin kütləvi minalanması hələ də ən böyük təhdidlərdən biri kimi qalması keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmasına əngəl yaradır.

"Dövlət tərəfindən minaların təmizlənməsi sahəsində böyük işlər görülür. Minatəmizləmə ən müasir və qabaqcıl texnologiyalardan istifadə edilməklə, əsasən də daxili resurslar hesabına həyata keçirilir. Bu gün işğaldan azad olunmuş əraziləri öz hesabına əsaslı bərpa edən və yenidən quran Azərbaycan mina probleminin həllinə də böyük vəsaitlər sərf etmək məcburiyyətindədir", - deyə müsahibimiz əlavə edib.

Sevinc Fətəliyeva qeyd edib ki, mayın 30-31-də ölkəmizdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) birgə təşkilatçılığı ilə "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda 3-cü Beynəlxalq humanitar minatəmizləmə konfransının keçirilməsi dünya ictimaiyyətinin diqqətinin bu problemə yönəlməsi baxımından böyük əhəmiyyət kəsb edir: "Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətində bildirilib ki, müharibənin 2020-ci ildə başa çatmasından bu günə qədər əksəriyyəti mülki olan 361 vətəndaşımız mina qurbanı olub, onlardan 68-i həlak olub, 293-ü isə ağır yaralanıb. Ümumilikdə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkib, onlardan 358-ni uşaqlar, 38-ni isə qadınlar təşkil edir.

Deputat dövlət başçısının müraciətində minaların ətraf mühitə mənfi təsirlərini dəyərləndirdiyini də diqqətə çatdırıb. Prezident qeyd edib ki, "mina partlayışları insanların həyatına təhlükə yaratmaqla və ümumiyyətlə, yaşamaq hüququnu sual altına qoymaqla bərabər, ətraf mühitə də böyük ziyan vurur. Belə ki, partlayışlar zamanı yaranan plastik tullantılar ekoloji fəsadlara səbəb olaraq torpaqların strukturuna mənfi təsir göstərir. Uzun müddət torpağın içində qalan minalar zərərli kimyəvi reaksiyalara gətirib çıxarır. Minalara görə istifadə olunmayan torpaqlar təbii eroziyaya və aşınmaya məruz qalır. Bu baxımdan bugünkü konfransın Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 öncəsi təşkil edilməsi xüsusi önəm daşıyır".

"Belə bir mühüm platformanın yaradılması, ölkəmizdə bu mövzuda beynəlxalq konfransların keçirilməsi Azərbaycanın qlobal səviyyədə minalanmaya qarşı mərkəz statusu qazandığını göstərir. Beynəlxalq birlik minaların təmizlənməsi prosesində Azərbaycana ciddi dəstək verməli, Ermənistandan dəqiq mina xəritələrinin verilməsini tələb etməlidir. Azərbaycan ərazisində baş verən mina terroruna görə məhz Ermənistan məsuliyyət daşıyır", - deyə Sevinc Fətəliyeva vurğulayıb.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı, Qızılhacılıda dövlət sərhədinin mühafizəsi yüksək səviyyədə aparılır








**İşğaldan azad edilmiş kəndlərdə dövlət sərhədinin mühafizə və müdafiəsi yüksək səviyyədə təşkil olunur.**

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildirilib ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı Prezident İlham Əliyevin diplomatik məharəti, dəqiq və məqsədyönlü siyasəti nəticəsində Qazax rayonunun işğaldan azad edilmiş və dövlət başçısının növbəti ali tapşırığına uyğun olaraq DSX tərəfindən nəzarətə götürülmüş Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı, Qızılhacılı kəndlərinin ərazilərində dövlət sərhədinin mühafizə və müdafiəsi yüksək səviyyədə aparılır.





# Azərbaycan minalanmaya qarşı mübarizədə qlobal mərkəz statusu qazanıb

## 4 ildə 140 min hektara yaxın sahə 119 min 946 mina və partlamamış hərbi sursatdan təmizlənib

**Müharibələrin bəşəriyyətə gətirdiyi bəlaların izləri uzun illər özünü göstərir. Münaqişələr bitdikdən sonra da minalarla çirklənmiş ərazilər insanların təhlükəsizliyinə təhdid yaradır, günahsız canlar alır, ətraf mühitə ciddi ziyan vurur.**




Bu gün dünyada minalanmadan ən çox əziyyət çəkən ölkələrdən biri də Azərbaycandır. Ölkə ərazisinin 12 faizi erməni işğalçıları tərəfindən 30 il ərzində mina tarlasına çevrilib. Dəqiq mina xəritələri isə Ermənistan tərəfindən bu günə qədər Azərbaycana təqdim edilməyib.

Vətən müharibəsindən ötən müddətdə əksəriyyəti mülki olan 361 vətəndaşımız mina qurbanına çevrilib, onlardan 68-i həlak olub, 293-ü isə ağır yaralanıb. Bütün bunlar Ermənistanın müharibə cinayətlərinin bariz nümunəsidir. Ümumilikdə isə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkib. Onların arasında 358-i uşaqdır.

Müharibədən sonra da keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə ermənilər tərəfindən tələ xarakterli minalar yerləşdirilib. Ümumilikdə, 2020-ci ildən 2023-cü ilə qədər "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda keçirilmiş beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubunda minaların yaratdığı problemlərə toxunan Prezident İlham Əliyev bildirib ki, minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər eyni zamanda yenidənqurma və bərpa işlərinə əngəl yaradır, 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına ciddi maneə törədir. Dövlət başçısı qeyd edib ki, ölkəmiz humanitar minatəmizləmə fəaliyyətini demək olar ki, tam şəkildə öz resursları hesabına həyata keçirir. Humanitar minatəmizləmə Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biridir və onun təməli Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulub.

İkinci Qarabağ savaşından sonra keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına tezliklə qayıtmaları, təhlükəsiz şəraitdə yaşamaları üçün Qarabağ və Şərqi Zəngəzurun minalardan təmizlənməsi prioritet istiqamətlərdən biridir. Azərbaycan bu məqsədlə ən müasir və qabaqcıl texnologiyalardan istifadə edir. Ötən ildən başlayaraq bu sahədə qadınlar da fəaliyyət göstərirlər. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən ötən 4 il ərzində 140 min hektara yaxın sahə 119 min 946 mina və partlamamış hərbi sursatdan təmizlənib. Lakin hələ bundan daha çox minalı ərazilər qalmaqdadır.

Ümumilikdə, Azərbaycan dövlətinin minatəmizləmə sahəsində gördüyü işlər, ərazilərin mümkün qədər tez minalardan təmizlənməsi istiqamətində atılan addımlar Böyük qayıdışın qısa zamanda işğaldan azad olunmuş bütün şəhər və kəndlərimizi əhatə etməsinə və insanların təhlükəsiz yaşayışına hədəflənib.

Vətəndaşlarının sosial rifahını, təhlükəsiz, rahat yaşamını əsas tutan Azərbaycan dünyada daim sülhün, sabitliyin, əmin-amanlığın tərəfdarıdır. Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət də bunu təsdiq edir. Ölkəmiz dövlətlərin ərazi bütövlüyünü və suverenliyini tanıyır, müharibədən əziyyət çəkən xalqlara yardım əlini uzadır. Terrorizmin, müharibə cinayətlərinin qurbanı olanlara hər zaman dəstək nümayiş etdirir, bu istiqamətdə təşəbbüslərlə çıxış edir. Elə Azərbaycanın təşəbbüsü ilə minatəmizləmə sahəsində keçirilmiş üç konfrans da bunu nümayiş etdirir. Bütün bu təşəbbüslərin və görülən işlərin nəticəsidir ki, Azərbaycan artıq qlobal səviyyədə minalanmaya qarşı mübarizənin mərkəzi statusunu qazanıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Avropada böhran səngimir

## Narazı fermerlər bu dəfə traktorlarla Fransa-İspaniya sərhədini bağlayıblar

**İyunun 6-dan 9-dək "xristian klubu" adlandırılan, rüvşət qalmaqalları ilə ad çıxaran Avropa Parlamentinə seçkilər keçiriləcək. Lakin seçkilər öncəsi köhnə qitədə etirazlar səngimir. Bəzi ölkələrdə fermerlər yenə də üsyan edirlər.**



Ötən gün 3000-ə yaxın fermer Fransa ilə İspaniya arasındakı sərhədi bağlayıb. Etirazçıların əsas tələblərinə enerji qiymətlərindəki artımın qarşısını almaq və Avropa İttifaqı çərçivəsində "ərzaq suverenliyinə" nail olmaq daxildir.

Fermerlərin etirazları Fransa və İspaniya sərhədində yenidən nəqliyyatın hərəkətində xaosa səbəb olub. Koordinasiyalı hərəkətlə minə yaxın traktor Pireney adaları boyunca, qərbdə Basklar ölkəsindən şərqdə Kataloniyaya qədər səkkiz sərhəd keçidini bağlayıb.

Sərhəd bölgəsindəki Monpelye-Barselona və Bordo-Bilbao əsas magistral yolları nəqliyyat üçün tamamilə bloklanıb. Hakimiyyət orqanları sürücüləri bütün səfərləri təxirə salmağa və ya digər nəqliyyat növlərindən istifadə etməyə çağırır.

Nümayişçilər milli kənd təsərrüfatı həmkarlar ittifaqlarının aksiyaya dəstək vermədiyini deyirlər. İspaniya tərəfində səfərbərlik "Teleqram" vasitəsilə yerli kollektivlərin gücü ilə həyata keçirilir.

Qeyd edək ki, ilin əvvəlindən bir çox Avropa ölkəsində fermerlərin etirazları başlayıb, lakin hakimiyyətin sektora dəstək üçün əlavə tədbirlər elan etməsi və bəzi ekoloji qaydaların qüvvəyə minməsini ləngitməyə söz verməsi ilə etiraz dalğası səngiyib.

Hazırkı kampaniya iyunun 6-dan 9-dək keçiriləcək Avropa Parlamentinə seçkilər öncəsi fermerlərin özləri barədə xatırlatması üçün bir üsuldur. Etirazçılar enerji qiymətlərinin artmasına qarşı çıxır və üçüncü ölkələrdən kənd təsərrüfatı məhsullarının idxalına Aİ ekoloji standartlarının tətbiq edilməsini tələb edirlər.

Südçü fermerlərdən biri, Fransa Kənd Təsərrüfatı İttifaqının üzvü Johann Barbe deyir: "Avropa Parlamentinə seçilsəydim, ilk işim Avropanın kənd təsərrüfatı sektorunun məqsədlərini yenidən nəzərdən keçirmək olardı. Biz fermerləri torpaqda işləməyə daha yaxşı həvəsləndirməliyik. Qida istehsalında Avropanın suverenliyinin təmin edilməsi çox vacibdir. Bu gün biz böyük miqdarda toyuq idxal edirik. Biz toyuq yetişdirmək istəyən quşçularımıza lazımi şərait yaratmalıyıq ki, istehlakçılar yedikləri məhsulun keyfiyyətinə inansınlar. Onu da qeyd etmək istərdim ki, biz Avropa qitəsində daha çox soya zülalı istehsal etməliyik. Bu, süd məhsullarının istehsalı, eləcə də digər məqsədlər üçün lazımdır. Belə zülal həm də donuzçuluq üçün zəruridir. Təəssüf ki, Avropanın hələ öz soyası yoxdur. Ümumiyyətlə, biz Avropanın kənd təsərrüfatı üçün ən yaxşı kursu müəyyən etməliyik".

Vətəndaş Koalisiyası partiyasından Marta Vçislo isə Polşanın ərzaq bazarının ucuz Ukrayna çörəyi ilə dolacağından narahatdır: "Mən Ukrayna ilə həmsərhəd olan Lyublin vilayətindənəm. Bizim üçün əsas olan sərhəd təhlükəsizliyi, ərazi təhlükəsizliyi və ərzaq təhlükəsizliyidir. Polşa Ukraynadan keyfiyyəti bilinməyən taxılın axınına imkan verməməlidir. Biz nə yediyimizi və Avropa İttifaqına nəyin daxil olmasına icazə verdiyimizi bilməliyik".

Qeyd edək ki, Avropanın ifrat sağçıları fermerlərin şikayətlərindən faydalanmaq və qarşıdan gələn iyun seçkilərində onların müdafiəçisi kimi çıxış etmək üçün əməkdaşlıq müqaviləsi bağlayıblar.

Brüssel görüşündən sonra İspaniyanın "Platforma 6-F" qurumu Avropanın 12 kənd təsərrüfatı assosiasiyasına qoşulub. Bu ifrat sağçı assosiasiyaların yaradacağı vahid cəbhə "Yaşıl kurs"un dayandırılmasını, Avropanın daxili bazarının qorunmasını və üçüncü ölkələrlə azad ticarət sazişlərinə son qoyulmasını tələb edəcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# "Komando başlanğıc kursu"nun buraxılış mərasimi keçirilib

**Bu ilin hazırlıq planına uyğun olaraq, "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, mərasimdən əvvəl xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla anılıb.





Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub. Mərasimdə çıxış edənlər məzunlara Müdafiə Nazirliyi rəhbərliyinin təbriklərini çatdırıb, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar. Azərbaycan Ordusunda hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında belə kursların əhəmiyyəti xüsusi vurğulanıb.

Buraxılış mərasimində kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim olunduqdan sonra şəxsi heyət təntənəli marşla tribuna önündən keçib.

# Kibertəhlükəsizlik günün vacib şərtlərindən birinə çevrilir



**Azərbaycan üçün kibertəhlükəsizliyin vacib şərt sayılması regionda bir sıra hərbi-siyasi hadisələrin aramsız davam etməsidir. Əslinə qalsa, bu gün kiberhücumlara bir çox dövlət və özəl şirkət mütəmadi olaraq məruz qalır. Bu, indiki zamanda adi bir haldır.**

Mütəxəssislər Azərbaycanın kibertəhlükəsizlik sahəsindəki imkanlarını yüksək qiymətləndirirlər. Çünki Rusiya-Ukrayna müharibəsi fonunda şiddətlənən qlobal şəbəkə mübarizələri, bir sıra ölkələrin doğurduğu hibrid təhlükələr bizi daha ciddi tədbirlər görməyə, daha ayıq olmağa məcbur edir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili mətbuata açıqlamasında deyib: "Nəzərə alsaq ki, Azərbaycan son dövrlərdə kiberhücumlara ən çox məruz qalan ölkələr sırasındadır, bu baxımdan kibertəhlükəsizlik çox önəmli rol oynayır və daim diqqət mərkəzində saxlanılmalıdır".

Sitatın davamı kimi qeyd edək ki, Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi yeni təlim proqramları həyata keçirir, bu istiqamətdə kadr hazırlığını genişləndirir. Qeydiyyatdan keçmiş namizədlər ardıcıl olaraq imtahan və müsahibə proseslərinə cəlb edilir, mütəxəssislər tərəfindən namizədlərin məntiqi, analitik düşüncə qabiliyyəti və digər parametrləri yoxlanılır. Proqram çərçivəsində 2 qrup mütəxəssisin hazırlanması planlaşdırılır - "Red Team" (hücum), "Blue Team" (müdafiə). Tədris müddətində ixtisaslaşmış kadr hazırlığı ilə yanaşı, məlumatlandırma, yüksəkvəzifəli kibertəhlükəsizlik mütəxəssislərinin ixtisaslarını artırması, kibertəhlükəsizlik məhsullarının araşdırılması və yeni məhsul hazırlığı istiqamətində də təlimlər keçirilir.

Kibertəhlükəsizlik standartları ölçüsündən, sənayesindən və sektorundan asılı olmayaraq bütün təşkilatlara şamil edilir. Bu standartlar istifadəçi və ya şirkətin kiber ekosistemini müdafiə edən qlobal səviyyəli nəşr materialıdır. Əsas məqsəd kiberhücumların qarşısını almaq, təşkilatları belə hücumlardan qorumaq və təhdidləri maksimum dərəcədə azaltmaqdır.

Kibertəhlükəsizlik standartları alətlər, siyasətlər, kibertəhlükəsizlik konsepsiyaları, təhlükəsizlik prosedurları, təlimatlar, risklərin idarə edilməsi sistemləri, təlimlər, ən yaxşı təcrübələr, təminat və texnologiyalar toplusundan ibarətdir. Bu yerdə beynəlxalq kibertəhlükəsizlik standartlarından bəzilərini sadalamaq yerinə düşərdi: FINRA Maliyyə Sənayesi Tənzimləmə Təşkilatı deməkdir. Bu, standart vəsaitləri idarə edən və ya maliyyə əməliyyatları ilə məşğul olan qurumların təhlükəsizliyini təmin etmək üçündür. Kibertəhlükəsizliklə bağlı ölkəyə xas aşağıdakı standartlar da mövcuddur: NERS, NİST, FIPS 140 və s. Bu standartlar bizneslərini qorumaq üçün hər bir təşkilatın riayət etməli olduğu yanaşma üsullarını müəyyən edən siyasətlər toplusu kimi fəaliyyət göstərir. Ümumiyyətlə, kibertəhlükəsizlik sahəsində çox standartlar var. Qeyd edilənlər ən ümumi və yüksək səviyyəli standartlardır. Təşkilatlarda bu cür kibertəhlükəsizlik standartının olması istifadəçilərə onların paylaşılan məlumatlarının təhlükəsiz qalmasına zəmanət verir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Yerli xalqların qətiyyətli mübarizəsi Fransanı geri çəkilməyə məcbur edəcək

**Xalqlar, ölkələr zülmə, işğala uzun müddət dözə bilmirlər, müstəmləkədən qurtarmaq üçün günlərin birində güclərini birləşdirib etiraz səsini qaldırırlar. Üstündə ağalıq edənləri tarixin səhifəsindən silib atmağa çalışırlar.**

Fransanın dənizaşırı əraziləri hesab olunan ölkələrdə də son illər rəsmi Parisə qarşı etirazlar güclənməkdədir. Onlar əsrlərdən bəri davam edən zülmə artıq dözə bilmirlər. Fransanın müstəmləkəsi olan ölkələr Parisin zülmündən xilas olmaq və müstəqil dövlətə çevrilmək üçün qətiyyətli addımlar atmağa başlayıblar. Fransanın müstəmləkəçilik siyasətindən, hüquqlarının tapdalanmasından artıq cana doyan yerli xalqlar öz ölkələrində azad yaşamaq, öz müqəddəratlarını özləri təyin etmək, öz sərvətlərinə sahiblik etmək istəyirlər.

Tarixi hadisələrin gedişi göstərir ki, XXI əsrdə də Fransa neokolonial siyasətindən əl çəkmək istəmir. Rəsmi Paris bu gün özünün sərhədlərindən minlərlə kilometr uzaqda, Cənubi və Mərkəzi Amerika, Afrika, Asiya və Okeaniyada 13 ərazini hələ də nəzarətində saxlayır. Fərqli inzibati-hüquqi statusda olan həmin ərazilər əsrlərdir ki, Fransanın istismarçı neokolonial siyasətinin qurbanına çevriliblər. Həmin ərazilərdən ən böyüyü Fransız Qvianası hesab edilir. Fransız Qvianası Cənubi Amerika materikinin şimal-şərqində yerləşir və XVII əsrdən Fransa tərəfindən idarə olunur.

Tarixə nəzər saldıqda, Parisin müstəmləkə siyasətinin işğal etdiyi ərazilərdə etnik tərkibə, əhali sayına, həyat səviyyəsinə nə qədər mənfi təsir göstərdiyini Fransız Qvianasının timsalında görmək olar. Məhz fransız kolonialistləri yerli hindu xalqlarını kütləvi şəkildə məhv edib, yerli sərvətlərə sahiblənmək üçün Afrikadan qaradərili insanları qul kimi gətirib işlətməyə başlamışdılar. Təəssüflər olsun ki, həmin amansız müstəmləkə siyasətinin ağır nəticələri bu gün də qalmaqdadır. Bölgənin etnik tərkibini dəyişmək cəhdlərinə baxmayaraq, fransızlar regionda 12 faiz təşkil edir və getdikcə azalır. Digər tərəfdən isə, Fransa sərt tropik iqlimi olan Fransız Qvianasından daha çox cinayətkarları və siyasi fəalları sürgün etmək üçün istifadə edir.



Müstəmləkəçiliyə məruz qalan və müstəqillik arzusunda olan ölkələrdən biri də Fransadan təqribən 17 min kilometr uzaqda - Sakit okeanın cənubundakı 5 arxipelaqdan ibarət Fransız Polineziyasıdır. Bu ölkə yerli dildə Maohi Nui adlandırılır. 1840-cı illərdə - Fransa-Taiti müharibəsinin başa çatması (1844-1847) əvvəlcə Markiz adalarında, sonradan isə Taitidə Fransanın müstəmləkə quruluşunun tətbiqinin başlanğıcı oldu. Taiti Kraliçası IV Pomare 1843-cü ildə qurulmuş Fransız protektoratını nəhayət, qəbul etmək məcburiyyətində qaldı. Bir müddət sonra - 1880-ci ildə Kral V Pomare Taiti Krallığını Fransaya verməyə razı oldu. Bu razılaşma həmin il dekabrın 30-da imzalanan qanunla təsdiqləndi. Bu qanun krallığın bütün subyektlərinə Fransa vətəndaşlığı verirdi.

Polineziyanın yerli əhalisi səsvermə hüququnu yalnız 1946-cı ildə əldə edib və 1957-ci ildə ilk yerli hökumətini qurub. Buna baxmayaraq, 1977-ci ilədək Polineziya məktəblərində yerli dillər tədris olunmayıb. Polineziya həm də bəzi epidemik xəstəliklərin (çikunqunya böhranı, Denge epidemiyası) yayıldığı ərazi kimi tanınır. Bu azmış kimi, 30 il ərzində - 1966-1996-cı illərdə Fransa tərəfindən burada 200-ə yaxın nüvə sınağı həyata keçirilib. 1966-1974-cü illərdə 46 yerüstü, 1975-1996-cı illərdə isə 147 yeraltı sınaq həyata keçirilib. Bu sınaqlar yerli əhali və ümumiyyətlə, bölgədə ətraf mühit üçün ağır fəsadlarla nəticələnib. Belə ki, məhz nüvə sınaqları yerli əhali arasında xərçəng xəstəliyinin geniş yayılması ilə nəticələnib. Sınaqlar zamanı fransızlar əsasən 120 kilotonluq bombalardan istifadə ediblər. Müqayisə üçün qeyd edək ki, Xirosima və Naqasakiyə atılan bombaların hər biri 15-23 kiloton olub. Bundan əlavə, nüvə sınaqları zamanı bir sıra uğursuzluqlar da baş verib. Bunun da nəticəsində ərazilər geniş çirklənməyə məruz qalıb. Ümumilikdə isə, bu günə qədər təqribən 170 min nəfər Fransanın orada həyata keçirdiyi nüvə sınaqlarının qurbanı olub.

Fransanın müstəmləkəsi olan Polineziya 1946-cı ildə BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısına salınsa da, Parisin təzyiqi nəticəsində 1947-ci ildə oradan çıxarılmışdı. Fransa hazırda yenə də bu istiqamətdə fəaliyyətini davam etdirir. Polineziyanın həm icraedici, həm də qanunvericilik hakimiyyətində üstünlüyə malik olması Fransa dövləti üçün ciddi narahatlıqlar yaradır. Çünki Fransız Polineziyasının Parisin müstəmləkəsi altındakı digər ərazilərdən fərqi ondadır ki, Fransa yerli əhalinin assimilyasiyasına nail ola bilməyib. Məhz bunun nəticəsidir ki, Fransanın Yeni Kaledoniyada etnik icmalar arasında tətbiq etdiyi "parçala və hökm sür" siyasətini burada uğurla həyata keçirə bilmir. Bununla belə, Fransa alternativ yollar taparaq dini icmalara təsir göstərməyə çalışır. Polineziya əhalisi əsasən protestant və katolikdir. Çoxluq təşkil edən protestantlar müstəqillik tərəfdarıdır, katoliklərin əksəriyyəti isə, əksinə, bunun əleyhinədir. Polineziyanın adalardan ibarət olmasından sui-istifadə edən Fransa hökuməti katoliklərin çoxluq təşkil etdiyi ərazilərdə rəhbər şəxsləri müxtəlif yollarla öz tərəfinə çəkməyə çalışır və məqsədinə çatmaq üçün bütün çirkin yollara əl atırlar.

Adalarda gedən bu proses neokolonializm ilə mübarizə aparan Azərbaycan tərəfindən də yaxından izlənilir. Fransanın kolonial siyasətinin qurbanı olan bölgələr də bunu yaxşı bilir və Azərbaycanın prosesə verdiyi dəstəyi çox yüksək qiymətləndirirlər. İnamla demək olar ki, müstəmləkə altında yaşayan xalqların qətiyyətli mübarizəsi Fransanı Polineziyadan və başqa adalardan geri çəkilməyə məcbur edəcək. Gec-tez haqq-ədalət zəfər çalacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*




# Beynəlxalq Enerji Agentliyi Azərbaycanla COP29 çərçivəsində əməkdaşlıq edəcək



**Hazırda ölkəmiz COP29-a sədrliyinin fəal fazasına daxil olur və bu qlobal tədbirin uğurla keçirilməsi üçün səylər getdikcə artırılır. Odur ki, müxtəlif təşkilatlar tərəfindən keçirilən görüş və tədbirlərin də əsas mövzusu COP29-dur.**

Prezident İlham Əliyev Beynəlxalq Enerji Agentliyinin (BEA) icraçı direktoru Fatih Birolu qəbul edərkən də məhz COP29-a hazırlıqla bağlı Azərbaycanda görülən işlər barədə fikir mübadiləsi aparılıb.

Söhbət zamanı ölkəmizlə Beynəlxalq Enerji Agentliyi arasında səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluq bildirilib. "Yaşıl enerji"nin inkişafı istiqamətində atılan uğurlu addımlar qeyd edilib, ölkəmizin Avropa İttifaqının enerji təhlükəsizliyinə verdiyi töhfə vurğulanıb. Əməkdaşlığın perspektivləri müzakirə olunub.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyevin Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol ilə görüşündə də COP29-a hazırlıq prosesi ilə bağlı ətraflı məlumat səsləndirilib. F.Birol dövlətimizin başçısı tərəfindən qəbul olunduğunu və COP29-la bağlı səmərəli müzakirələr aparıldığını məmnuniyyətlə vurğulayıb, rəhbərlik etdiyi təşkilatın qarşıdakı möhtəşəm tədbirin uğurla keçirilməsinə töhfə verməyə hazır olduğunu bildirib.

Energetika naziri Pərviz Şahbazov və BEA-nın icraçı direktoru arasında da görüş olub. Energetika Nazirliyində keçirilən görüşdə qlobal neft və qaz bazarlarındakı vəziyyət, Avropada qaza tələbat dinamikasına təsir edən faktorlar, eləcə də bərpaolunan enerji istehlakının artması və enerji təchizatında müasir tendensiyalar nəzərdən keçirilib. Fatih Birol Azərbaycanın Avropa üçün etibarlı enerji tərəfdaşı olduğunu artıq sübuta yetirdiyini vurğulayıb.

Bununla yanaşı, görüşdə ölkəmizin bərpaolunan enerji kursu, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın "yaşıl enerji" zonası kimi inkişafına dair konsepsiyası, "Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan-Türkiyə-Avropa" və "Mərkəzi Asiya-Azərbaycan-Avropa" "yaşıl enerji" dəhlizlərinin yaradılması istiqamətində fəaliyyətindən bəhs edilib. "Yaşıl enerji" keçidində, bərpaolunan enerji güclərinin enerji sisteminə inteqrasiyasında önəmli rol oynayan şəbəkənin gücləndirilməsini təmin edən məsələlər müzakirə olunub. Bu xüsusda enerji saxlanc sistemləri, yüksəkgərginlikli sabit cərəyan (HVDC) kabelləri, həmçinin enerji səmərəliliyinin artırılması üzrə fəaliyyətin dəstəklənməsinin və qlobal əməkdaşlığın vacibliyi bildirilib. COP29 çərçivəsində enerji sahəsində fəaliyyət gündəliyində olan məsələlərlə bağlı BEA ilə birgə əməkdaşlıq razılaşdırılıb.

Təbiidir ki, bu gün COP29 bir çox dünya siyasətçisinin də diqqət mərkəzindədir. Tədbirin yüksək səviyyədə keçəcəyi barədə olduqca nikbin proqnozlar səsləndirilir. Məsələn, Böyük Britaniya Parlamentinin Lordlar Palatasının üzvü Lord David Evans bununla əlaqədar deyib: "COP29-un Azərbaycanda keçirilməsi inanılmaz bir nailiyyətdir. Mən hesab edirəm ki, Azərbaycan buna çox layiqdir və əminliklə deyə bilərəm ki, COP29-da böyük uğur qazanacaq".

"Biz azərbaycanlı həmkarlarımızın uğuruna sevinirik. Biz bilirik ki, bu cür mötəbər tədbiri üzərinə götürmək nə dərəcədə məsuliyyətli və çətin işdir. Bakı beynəlxalq səviyyədə bütün ölkələrin nümayəndələrini qəbul edəcək. Mən Azərbaycan dövlətinə, oradakı həmkarlarımıza bu işdə uğurlar arzulayıram". Bu sözləri isə Moldova Parlamentinin Xarici siyasət və Avropaya inteqrasiya komitəsinin sədri İna Koşeru deyib.

"XXI əsrdə yaşayırıq, bizim üçün ən böyük problem iqlim dəyişikliyidir. Dünyada iqlim dəyişikliyi, su resurslarının azalması dünya ölkələrinə yeni prinsiplərin, texnologiyaların tətbiqini təşviq edir. Yəni iqlim dəyişikliyinin qarşısını almaq üçün yeni texnologiyalar tətbiq edilməlidir. O texnologiyalar ki, ilk növbədə istixana qazlarının azalmasına səbəb olsun. Bu, enerji sahəsində baş verməlidir. Qazıntı yanacağı, o cümlədən kömür azaldılmalıdır, alternativ, "yaşıl enerji" mənbələrindən istifadə edilməlidir. Enerji sektoru iqlim dəyişikliyinin əsas amillərindən biridir. Əgər istixana qazlarının azalmasını təşviq edən texnologiyalar tətbiq olunsa, meşə örtüyü artırılsa, - bu, Moldovada da çox aktualdır, - iqlim dəyişikliyinin qarşısı alınar".

Bunları söyləyən İ.Koşeru COP29 tədbirinin olduqca vacibliyini və əhəmiyyətini də vurğulayıb, COP29-un qeyd edilən problemlərin müzakirəsi üçün əla platforma olacağını və onların həllinə öz töhfəsini verəcəyini deyib: "Azərbaycan dövlətinə təşəkkür edirik ki, bu cür vacib beynəlxalq tədbirin keçirilməsinə razılığını verib. Biz bu gün iqlim dəyişiklikləri ilə bağlı problemləri həll etməsək, gələcəkdə uşaqlarımız ciddi təhlükələrlə qarşılaşa bilərlər".

"Azərbaycan üçün əsl imkan COP29-un sədri olduğu dövrdə bütün dünyaya Azərbaycan haqqında həqiqəti başa salmaq və etnik və dini müxtəlifliyin, tolerantlığın ölkəsi olduğu barədə doğru bir təsəvvür yaratmaqdır".

Ceymstaun Fondunun İdarə Heyətinin üzvü, ABŞ-nin Azərbaycandakı sabiq səfiri, beynəlxalq ekspert Metyu Brayza Azərbaycanı Müstəqillik Günü münasibəti ilə, həmçinin COP29-a evsahibliyi edəcəyi üçün təbrik edib: "Mən Azərbaycanı indi təbrik edirəm, çünki o, qlobal temperaturun 1,5 dərəcədən yuxarı qalxmasının qarşısını almaq və iqlim dəyişikliyi ilə mübarizə aparan səylərə COP29-un ev sahibi olaraq rəhbərlik edir. Fikrimcə, bu, Azərbaycan üçün ən optimist Müstəqillik Günüdür. Çünki Azərbaycan ən əsası, öz torpaqlarını bərpa edib və Qarabağ, ətrafındakı yeddi bölgənin keçmiş sakinlərinin öz evlərinə Böyük qayıdışını təmin edir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Masdar" Azərbaycanda daha bir neçə "yaşıl enerji" layihəsinin icrasına başlayacaq



**Energetika Nazirliyində nazir Pərviz Şahbazov və BƏƏ-nin sənaye və yüksək texnologiyalar naziri, "Masdar" şirkətinin İdarə Heyətinin sədri Sultan Əhməd Əl-Cabirin rəhbərlik etdiyi nümayəndə heyətləri arasında görüş olub.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə "Masdar" şirkəti ilə quruda və dənizdə "yaşıl enerji" layihələrinin icrası, hər iki ölkənin apstrim sektorunda dövlət şirkətlərinin iştirakı, həmçinin COP29 çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib. 1000 MVt gücündə günəş və külək enerjisi stansiyalarının inşası ölkələrimizin "yaşıl enerji" keçidinə birgə töhfəsi kimi dəyərləndirilib.

Görüşün yekununda Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında 445 MVt gücündə Biləsuvar, 315 MVt gücündə Neftçala günəş-elektrik stansiyaları və 240 MVt gücündə Abşeron-Qaradağ külək-elektrik stansiyası layihələri üzrə "İnvestisiya müqaviləsinə Əlavə", "Enerji alqı-satqı müqaviləsi", "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" və "Torpaq icarə müqaviləsi" imzalanıb.

Müqavilələri Azərbaycan tərəfindən energetika naziri Pərviz Şahbazov və "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev, "Masdar" şirkəti tərəfindən isə baş icraçı direktor Məhəmməd Cəmil Əl-Ramahi imzalayıb.

# Azərbaycanlı pianoçunun COP29-a aid hazırladığı musiqi layihəsinin Danimarkada təqdimatı olub

**Danimarkanın paytaxtı Kopenhagendə gənc azərbaycanlı pianoçu, beynəlxalq müsabiqələr laureatı, "Qran-pri" mükafatçısı, Avstriyanın Anton Brukner adına Konservatoriyasının tələbəsi Ayan Məmmədlinin "Yurdumun gözəlliyi həzin musiqilərdə" adlı layihəsinin təqdimatı və bununla bağlı solo konserti keçirilib.**



AZƏRTAC xəbər verir ki, Danimarka-Azərbaycan Gənclər Cəmiyyətinin təşkilatçılığı və Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunan tədbir COP29-a həsr edilib. Kopenhagenin "Valby Kulturhaus" adlı möhtəşəm mədəniyyət mərkəzində təşkil olunan konsertdə əvvəlcə Azərbaycan və Danimarkanın Dövlət himnləri səsləndirilib.

Tədbirin təşkilatçısı, Danimarka-Azərbaycan Gənclər Cəmiyyətinin sədri Kərim Elhan qeyd edib ki, bu il Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29 kimi mötəbər tədbirə evsahibliyi edəcək. Təbii ki, iqlim dəyişikliyi kimi ekoloji məsələlərdə yaranan problemlərin aradan qaldırılması dünyanın hər yerində olduğu kimi, Danimarkada da hər kəsi düşündürən, narahat edən son dərəcə aktual məsələlərdəndir. Bu istiqamətdə maarifləndirici tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan düşünürük ki, Azərbaycanımızın təbiətini, füsunkar regionlarını və onların gözəlliklərini vəsf edən milli musiqilərin əsərlərimizin diliylə əcnəbilərə çatdırılması həm məmləkətimizin təbii gözəlliklərinin, həm də milli musiqimizin təbliği baxımından son dərəcə maraqlı bir layihə olardı. Bu məqsədlə Avstriyada musiqi təhsili alan Ayan Məmmədli ilə yaratdığımız əməkdaşlıq əlaqələri əsnasında onun "Yurdumun gözəlliyi - həzin musiqilərdə" adlı COP29-a aid hazırladığı musiqi layihəsinin Danimarkanın paytaxtında təqdimatı olduqca qürurvericidir.

Gənc pianoçu Ayan Məmmədli deyib: "Mən də hamı kimi, yaşıl təbiəti, dənizi, çayları, təmiz ekologiyanı çox sevirəm. Bildiyiniz kimi, bütün dünyada ekologiyanın qorunması, zəngin enerji mənbəyinin əldə edilməsi çox vacib məsələdir. Hər kəs bunun üçün çalışmaqdadır. Hər il dünyanın müxtəlif yerlərindən hökumət nümayəndələri COP-da toplaşaraq, iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edirlər. Sevindirici haldır ki, bu il bu mötəbər tədbirin növbəti toplantısı mənim doğma vətənim Azərbaycanda keçiriləcək. Hazırda bu möhtəşəm tədbirlə bağlı çox ciddi hazırlıqlar görülür. Mən də bu işə öz töhfəmi verməyə çalışdım. Bu məqsədlə də bir musiqiçi kimi, bütün insanlara yaşıl və təmiz dünyamız naminə öz musiqilərimlə çağırışlar etmək istəyirəm. Bugünkü konsertdə sizlərə ifa edəcəyim əsərlərdə Azərbaycanımızın çox gözəl təbiətinə və iqlimə həsr olunmuş musiqi əsərləri səslənəcək".

Ayan Məmmədli danimarkalı tamaşaçılar qarşısında Azərbaycanın muğam, xalq mahnıları ilə yanaşı, bəstəkarlardan Qara Qarayev, Cövdət Hacıyev, Vaqif Mustafazadə, həmçinin bəzi Avropa bəstəkarlarının da əsərlərindən nümunələr səsləndirib.

Gənc pianoçu təşkil olunan konsertdə fəal və uğurlu iştirakına görə təşkilatçılar tərəfindən fəxri fərman və təşəkkürnamə ilə təltif olunub.

# Bonn şəhərində BMT-nin iqlim konfransı keçirilib

**İyunun 4-də Almaniyanın Bonn şəhərində BMT-nin beynəlxalq iqlim konfransı işə başlayıb. Tədbirdə 6 minə yaxın siyasətçi, diplomat və alim iştirak edir.**

AZƏRTAC Almaniyanın "Tagesschau" xəbər portalına istinadla bildirir ki, beynəlxalq konfransın ən mühüm mövzusu iqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirilməsidir.

"Biz iqlimlə bağlı fəaliyyətin əsas amili olan maliyyələşmədə ciddi irəliləyiş əldə etməliyik. Burada, Bonn şəhərində sizləri yeni, kollektiv, kəmiyyət etibarilə iqlim maliyyəsi hədəfinə nail olmaq üçün planlardan real variantlara keçməyə çağırıram", - deyə BMT-nin iqlim dəyişikliyi üzrə icraçı katibi Simon Still açılış nitqində bildirib.

Ekspertlər iqlim dəyişikliyi ilə mübarizə xərclərinin əvvəllər razılaşdırıldığından qat-qat yüksək olacağını gözləyirlər. Belə ki, "NewClimate" İnstitutundan Hannah Fekete bununla bağlı vurğulayıb: "Paris iqlim sazişində ölkələr ildə ən azı 100 milyard dollar maliyyə öhdəliyi götürməyə razılaşdılar. Amma reallıqda bu rəqəm daha yüksək olmalıdır. Deməli, bu məbləğin milyardlarla deyil, trilyonlarla olacağı ehtimalı daha yüksəkdir".

Xüsusən iqlim dəyişikliyi ilə bağlı dəyən zərərin ödənilməsi və iqlimin qorunmasının maliyyələşdirilməsi üçün ən azı 1 trilyon dollar tələb olunacaq. Söhbət Qlobal Cənubun bu məsələdə kompensasiya almasından, eləcə də orada enerji keçidinin maliyyələşdirilməsindən gedir. Ölkələrin bir çoxu mədən yanacaqları ilə vidalaşa, külək və ya günəş enerjisinə sərmayə yatıra bilmir. Lakin son nəticədə ekspertlərin fikrincə, iqlim məqsədlərinə nail olmaq üçün dünyanın bütün yerlərində dəyişiklik lazımdır. "Tagesschau" portalı yazır ki, bu, noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) da diqqət mərkəzində olmalıdır.

Vuppertal İqlim, Ətraf Mühit və Energetika İnstitutunun mütəxəssisi Manfred Fişik qeyd edir: "Builki iqlim konfransı iqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirilməsi və ona uyğunlaşmaq ilə bağlı mühüm qərarlar qəbul etmək, həmçinin hökumətlərin gələn il iqlimin qorunması üzrə gözlənilən hədəflərin ambisiyasını artırmaq istiqamətində fəaliyyətlərinə təkan verəcək". Onun sözlərinə görə, hazırda hər iki sahədə iqlim dəyişikliyinin artan təsirləri fonunda beynəlxalq ictimaiyyət tərəfindən hərəkətə keçmək üçün ciddi iradə yoxdur. Bu fəaliyyət əsasən texnoloji inkişaflar, külək və elektrik enerjisi mənbələrindən istifadə məqsədilə əsas texnologiyaların tətbiqində xərclərin azaldılması ilə idarə olunur. Ancaq bu prosesləri təkbaşına yerinə yetirmək mümkün deyil.



Bonn konfransının məqsədlərindən biri iqlim tematikasını qlobal siyasətin diqqət mərkəzinə qaytarmaqdır. Ukraynada və Yaxın Şərqdə davam edən müharibələrə, eləcə də bir çox digər qlobal böhrana ayrılan diqqət iqlim dəyişikliyi problemini tədricən arxa plana keçirib.

Təkcə son aylar baş verən daşqınlar iqlimin qorunması siyasətinin nə qədər vacib olduğunu göstərir. İqlim dəyişikliyi bütün dünyada getdikcə daha çox ağır təbii fəlakətlərə səbəb olur. Ekspertlərin fikrincə, bütün bunlar daha ardıcıl və məqsədyönlü hərəkət etmək üçün yetərli əsasdır. Bu həm də gələcək nəsillərin maraqlarına uyğundur, habelə UNICEF-in Bonn konfransında vurğulamaq istədiyi bir məsələdir. Qlobal Cənubda gənc ailələr və uşaqlar isti hava dalğalarından və quraqlıqdan əziyyət çəkirlər. UNICEF-in icraçı direktorunun müavini Kitty van der Heyden bununla bağlı deyib: "Məhz bu səbəbdən biz iqlim siyasətində uşaqlara da diqqət yetirməliyik. Onlar son dərəcə həssasdırlar və bir çoxu yoxsulluqdan ciddi şəkildə təsirlənir. Söhbət onların dolanışığından gedir. Uşaqlar dünya əhalisinin üçdəbirini təşkil edir".

Uşaqlar hələ doğulmadan əvvəl də iqlim dəyişikliyinin mənfi təsirinə məruz qalırlar. Temperaturun həddən artıq yüksək olduğu, isti havaların ifrat dərəcədə uzun sürdüyü və iqlim dəyişikliyi səbəbindən getdikcə intensivləşdiyi bir çox Afrika ölkəsində hamilə qadınlar isti hava dalğalarının səbəb olduğu stres ucbatından vaxtından əvvəl doğuş problemi yaşayırlar. Bu, UNICEF-in vurğulamaq istədiyi mənfi iqlim təsirlərindən yalnız biridir.

Bonn şəhərində keçirilən konfransın əsas ideyası iqlim dəyişikliyinin nəticələrini bir daha vurğulamaqdır. Tədbirdə qarşıdakı illər üçün təkcə maliyyələşdirmə üzrə yol xəritəsi müzakirə olunmur, həm də iqlim dəyişikliyinin qlobal fəsadlarını aradan qaldırmaq istiqamətində yeni təşəbbüslər ətrafında fikir mübadiləsi aparılır. "Burada söhbət həmçinin Bakı konfransına ən yaxşı hazırlığın təmin edilməsindən gedir. Bütün bu məsələlərin həlli üçün Bonn konfransı nümayəndələrinin iyunun 13-dək vaxtı olacaq", - deyə "Tagesschau" qeyd edir.

İŞİMİZ, GÜZƏRANIMIZ

# Davamlı islahat, yüksələn reytinq

**Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu iqtisadi islahatlar beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankının, Davos Dünya İqtisadi Forumunun, Beynəlxalq Valyuta Fondunun (BVF) və digər beynəlxalq təşkilatların açıqladığı reytinqlərdə Azərbaycan aparılan iqtisadi islahatlar və xarici investisiyaların təşviqi baxımından dünyanın aparıcı ölkələrindən biri kimi dəyərləndirilir.**




Xəbər verildiyi kimi, cari il mayın 29-da Beynəlxalq Büdcə Tərəfdaşlığı təşkilatı "Açıq Büdcə İndeksi - 2023" hesabatını dərc edib. Hesabatda Azərbaycanın mövqeyi 2021-ci ilin reytinq göstəricisi (57 bal) ilə müqayisədə 10 bal daha yuxarı olub və bununla ölkəmiz büdcə barədə kifayət qədər məlumat dərc edən ən qabaqcıl dövlətlər qrupuna düşüb. Azərbaycan həm də 100 mümkün baldan 67 bal toplamaqla müstəqillik tarixi ərzində bu göstərici üzrə ən yüksək nəticə əldə edib. Bundan əlavə, Azərbaycan dünya üzrə orta reytinq göstəricisindən (45 bal) 22 bal yuxarı olmaqla ümumi reytinqdə ən çox irəliləyən ölkələrdən biri olub.

Sənədin ölkəmiz üçün daha bir əhəmiyyəti 2021-ci ildən etibarən ardıcıl olaraq Azərbaycanda büdcə ilə bağlı qiymətləndirilən 8 əsas büdcə sənədinin (ilkin büdcə bəyanatı, büdcə layihəsi, təsdiq edilmiş büdcə, vətəndaş büdcə bələdçisi, dövlət büdcəsinin icrasına dair aylıq hesabatlar, dövlət büdcəsinin icrasına dair yarımillik hesabat, dövlət büdcəsinin icrası üzrə illik hesabat, dövlət büdcəsinin icrasına dair audit hesabatı) hamısının ictimaiyyətə açıqlanmasının "Beynəlxalq Büdcə Tərəfdaşlığı" tərəfindən qeyd edilməsidir. Bununla yanaşı, hesabatda sözügedən sənədlər üzrə həm keyfiyyət, həm də məlumatlılıq səviyyəsinin artırılması üzrə irəliləyişlərə nail olunması da göstərilib.

Məlumat üçün bildirək ki, büdcə prosesinə dair diaqnostik qiymətləndirmə aləti hesab olunan Açıq Büdcə Sorğusu (Open Budget Survey) 2006-cı ildən başlayaraq Beynəlxalq Büdcə Tərəfdaşlığı (International Budget Partnership) təşkilatı tərəfindən hər iki ildən bir tərtib edilir və Azərbaycan ilk qiymətləndirmədən etibarən müvafiq sorğuda iştirak edir. Sorğuda hər bir sual 100 ballıq şkala ilə qiymətləndirilir. Müvafiq olaraq cavablar təsdiqləyici sənədlərə istinad verilməklə (sənədin linki yerləşdirilməklə) əsaslandırılmalıdır.

Bu sahədəki uğurlarımızın səbəbi, sözsüz ki, dövlət başçısının iqtisadi sahədə aparılan islahatların daha da genişləndirilməsini daim diqqətdə saxlamasıdır. Buna görədir ki, təkcə cari ilin ötən dövründə ölkəmizin iqtisadi göstəriciləri dünyanın iki mötəbər təşkilatı tərəfindən yüksək qiymətləndirilib. Beynəlxalq Valyuta Fondunun (BVF) 2024-cü ilin hesabatına görə, Azərbaycan xarici investisiyalar üçün ən cəlbedici ölkə elan edilərək "Top-7"yə daxil olub. Aydındır ki, BVF kimi mötəbər maliyyə qurumu müəyyən qərar qəbul edərkən onu ətraflı araşdırır və yalnız bundan sonra nəticəni açıqlayır. Deməli, Azərbaycanın bu sahədə dünyanın 200-dən çox ölkəsi sırasında seçilməsi təsadüfi deyil. Təsadüfi olmayan həm də Azərbaycanın MDB məkanında adambaşına düşən xarici investisiyaya görə öndə qərarlaşmasıdır.

İqtisadçı professor Fikrət Yusifov bu barədə deyib: "Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox xarici sərmayə yatırılıb. Müqayisə üçün deyək ki, bu qədər xarici sərmayə Ermənistanın 62 illik dövlət büdcəsinə bərabər bir məbləğdir. Neftlə bağlı iqtisadiyyatı şaxələndirmək yolunu tutmuş Azərbaycan hökumətinin ən böyük uğurlarından biri də son 20 ildə ölkə iqtisadiyyatına cəlb edilmiş xarici investisiyaların 200 milyard dollara yaxın məbləğinin məhz iqtisadiyyatın real sektoruna yönəldilməsi oldu".

Yeri gəlmişkən, qeyd edək ki, dünyada baş verən məlum hadisələrə görə indi xarici sərmayə cəlb etmək çox çətinləşib. Bu səbəbdən də 2023-cü ildə sərmayə cəlb etmək məqsədilə xarici investorların sorğuları müvafiq olaraq cavablandırılmış, onların mərkəzi icra hakimiyyəti orqanları ilə əlaqələndirilməsi, həmçinin ölkəmizdə yaradılmış biznes və investisiya mühiti haqqında məlumatların təqdim edilməsi istiqamətində müvafiq işlər görülmüş, mütəmadi olaraq şirkətlərə "sonradan qayğı" xidmətləri göstərilmişdir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə mövcud investisiya imkanlarından yararlanması məqsədilə 2023-cü il ərzində yerli və xarici şirkətlərin müraciətlərinə baxılmış, görüşlər keçirilərək təhlillər aparılmışdır.

Bunlardan savayı, xarici sərmayədarlarda inam yaratmaq üçün müxtəlif layihələr işlənmişdir. Onlardan biri ölkəmizdə yaradılmış investisiya mühiti ilə bağlı potensial investorların ətraflı məlumat əldə etmələri üçün investisiya bələdçisinin hazırlanmasıdır. Bələdçidə potensial sektorlar, iqtisadi göstəricilər, nəqliyyat marşrutları, qanunvericilik, xüsusən investorlar üçün güzəşt və imtiyazlar, eləcə də onlara dəstək ola biləcək aidiyyəti dövlət qurumları və mexanizmləri barədə məlumatlar əks olunmuşdur. Eyni zamanda "İnvestisiya fəaliyyəti haqqında" qanunun icrası ilə bağlı investisiya fəaliyyətinin həyata keçirilməsinə dair investorlara göstərilən xidmətlərin rəqəmsallaşdırılması və "bir pəncərə" prinsipi əsasında xidmət göstərilməsi ilə bağlı təkliflər hazırlanmışdır.

Bütün bunlar onu göstərir ki, ölkəmizdə aparılan iqtisadi və sosial siyasətin, icra edilən layihələrin dünyanın mötəbər təşkilatları tərəfindən dəfələrlə yüksək qiymətləndirilməsi təsadüfi deyil. Üstəlik, antiazərbaycançı qüvvələrin daim ölkəmizi əsassız tənqid etməsinə ən tutarlı cavab da beynəlxalq qurumların ölkəmiz barədə bu cür mötəbər rəylər verməsidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# SOCAR ilə BOTAŞ arasında türkmən qazının Azərbaycandan Türkiyəyə nəqli ilə bağlı müqavilə imzalanıb

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Türkiyənin BOTAŞ şirkəti arasında təbii qaz təchizatı, nəqli və tranziti sahəsində bir sıra müqavilələr imzalanıb.**



İmzalanma mərasimində Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar iştirak ediblər.

İmzalanan müqavilələr iki ölkə hökumətləri arasında bu ilin mayın 14-də imzalanmış "Təbii qaz sahəsində Əməkdaşlıq haqqında" Sazişdən irəli gəlməklə, SOCAR tərəfindən Türkiyəyə təbii qaz təchizatı, Azərbaycan qazının Türkiyə vasitəsilə Bolqarıstan bazarına çatdırılması, Naxçıvana qaz təchizatı sahəsində əməkdaşlıq və türkmən qazının Azərbaycan və üçüncü ölkələr vasitəsilə Türkiyəyə nəqli ilə bağlı müddəaları əhatə edir.

Mərasimdə həmçinin Azərbaycan Qaz Təchizatı Şirkəti və BOTAŞ arasında "Şahdəniz" yatağından qazın Türkiyəyə təchizatının davam etdirilməsini nəzərdə tutan müqavilə imzalanıb.

# Ünvanlı sosial yardım almaq üçün müraciət prosedurları yenilənir

**Bundan sonra ünvanlı sosial yardım üçün müraciət zamanı ailəni təmsil edən şəxslərdən ailə üzvlərinə dair bir sıra məlumatların qeyd edilməsi tələb olunmayacaq.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) İdarə Heyətinin sədri Himalay Məmişov "Ünvanlı yardım" elektron sisteminin yenidən qurulması ilə əlaqədar ünvanlı yardım üçün müraciət prosedurunda tətbiq edilən yeniliklərə dair keçirdiyi brifinqdə bildirib.

O, ünvanlı yardım üçün müraciət edərkən "Ərizə-bəyannamə"də qeyd edilməsi tələb olunmayan məlumatların sırasını diqqətə çatdırıb. Qeyd olunub ki, bu sıraya aşağıdakı məlumatlar daxildir:

- əməkhaqqı, pensiya, müavinət, təqaüd, kompensasiya, işsizlikdən sığorta ödənişi almaları, tələbə, şagird, işsiz, keçmiş məcburi köçkün, hərbi xidmətdə olmaları, daşınmaz əmlakı, torpaq pay mülkiyyəti, sahibkarlıq fəaliyyəti və nəqliyyat vasitəsinin olması;
- kommunal xərcləri, telefon nömrələri və xərcləri, sərhədkeçməsi, cəzaçəkmə müəssisəsində olması, əlilliyinin olması, əlilliyi olan şəxsə qulluq etməsi, özünüməşğulluq proqramı üzrə müqaviləsinin olması;
- 3 yaşadək uşağa qulluq etməsi, buna, habelə hamiləlik və doğuma görə məzuniyyətlə əlaqədar ödənişlər alması.

DSMF sədri bu məlumatların e-sistem tərəfindən müvafiq qurumların informasiya sistemlərindən əldə ediləcəyini bildirib. O, ailənin maddi-məişət şəraiti yoxlanarkən bir sıra məlumatların "Ərizə-bəyannamə"də düzgün qeyd olunmadığı müəyyən edildikdə, həmin məlumatlara düzəliş edilməsi və müraciətə yenidən baxılması imkanının yaradıldığını da vurğulayıb. Bildirilib ki, yeni "Ünvanlı yardım" e-sisteminə giriş yalnız "Digital (ASAN) Login" üzərindən mümkün olacaq.

Ünvanlı yardım üçün müraciət prosedurundakı yeniliklər barədə ətraflı məlumat verən H.Məmişov media nümayəndələrinin suallarını da cavablandırıb.

# Şərqi Zəngəzurda ilk hərrac, Laçında növbəti əmək yarmarkası keçiriləcək

**Yer təkinin istifadəyə verilməsi üzrə Şərqi Zəngəzur coğrafi-iqtisadi rayonunda ilk dəfə hərrac təşkil olunacaq. Bu barədə "Trend"ə Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyindən məlumat verilib.**

Bildirilib ki, tədbir Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin təşəbbüsü ilə keçiriləcək. Hərrac iyunun 12-də Zəngilan rayonunun Ağalı kəndində olacaq. Laçın rayonundakı "Əhmədli" və Qubadlının "Hacılı" əhəng daşı yataqları hərraca çıxarılacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi isə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə həmin rayonda növbəti əmək yarmarkası təşkil edəcək.

İyunun 6-da keçiriləcək yarmarkada işsiz və işaxtaran şəxslərə 20-dən çox müəssisə tərəfindən müxtəlif istiqamətlər üzrə 200-dən çox vakansiya təqdim ediləcək.

Onlara agentliyin icra etdiyi aktiv məşğulluq proqramları, layihələr barədə ətraflı məlumatlar da veriləcək.

# Azərbaycan neftinin qiyməti 79 dollara qədər ucuzlaşıb

**"Azeri Light" markalı neftin bir barelinin qiyməti 3,5 dollar və ya 4,2 faiz azalaraq 79,25 dollar olub.**

AZƏRTAC xatırladır ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.




# Kənd yerlərində əhalinin məşğulluq imkanları araşdırılır

## Bu istiqamətdə beynəlxalq layihə reallaşdırılır

**Kənd Təsərrüfatı Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin təşkilatçılığı ilə FAO-nun Texniki Əməkdaşlıq Proqramı (TCP) üzrə maliyyələşdirilən "Kənd yerlərində əhalinin rifahının yaxşılaşdırılması üçün məşğulluq imkanlarının araşdırılması" layihəsi çərçivəsində seminar keçirilib.**



Seminarda Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Gənclər və İdman Nazirliyi, Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA), Dövlət Məşğulluq Agentliyi (DMA), Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), eləcə də layihənin digər maraqlı tərəflərinin nümayəndələrinin iştirakı ilə kənd yerlərində məşğulluq imkanları müzakirə olunub.

Tədbirdə çıxış edən AKİA-nın layihə və proqramlar şöbəsinin müdiri Fərid Əmirov kənd yerlərində məşğulluğun artırılması üçün gənclər və qadınlar da daxil olmaqla inklüziv dəstək siyasətinin həyata keçirilməsinin prioritet məsələ olduğunu qeyd edib. FAO-nun Azərbaycandakı ofisinin tərəfdaşlıq və proqram üzrə mütəxəssisi Aynur Seidyusif Kənd Təsərrüfatı Nazirliyi ilə sıx əməkdaşlığın davam etdiriləcəyini, həmçinin kənd təsərrüfatının inkişafı istiqamətində texniki məsləhət və tövsiyələr verməyə hazır olduqlarını bildirib.

FAO-nun beynəlxalq eksperti Giorgi Andquladze öz təqdimatında sahə üzrə dəyər zəncirlərinin seçilməsi və qiymətləndirilməsində istifadə olunan metodologiya və meyarlar, prioritet dəyər zəncirləri və onların seçilmə səbəblərindən bəhs edib. Ekspert potensial kənd-ərzaq dəyər zəncirinin təkmilləşdirilməsi üçün əsas təlimatlar və təklif olunan tövsiyələrlə bağlı məlumatları da iştirakçıların diqqətinə çatdırıb.

Qeyd edək ki, FAO ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə üzrə yerli və beynəlxalq mütəxəssislər tərəfindən məşğulluq imkanlarının öyrənilməsi üçün aparılmış təhlillər əsasında müvafiq hesabatlar hazırlanıb. Xüsusilə Qarabağ və Naxçıvan iqtisadi rayonları üzrə müəyyənləşdirilən meyarlara əsasən hazırlanmış sənəddə ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd yerlərində məşğulluq imkanları, yüksək ixrac potensiallı məhsullar, mümkün dəyər zənciri potensialı kimi 4 əsas meyar nəzərdə tutulub.

"Kənd yerlərində əhalinin rifahının yaxşılaşdırılması üçün məşğulluq imkanlarının araşdırılması" layihəsi Azərbaycanda kənd yerlərində, xüsusən gənclər, qadınlar və həssas qruplar üçün daha yüksək məşğulluq imkanlarına malik potensial kənd-ərzaq dəyər zəncirlərini müəyyənləşdirmək və inkişaf etdirmək məqsədilə həyata keçirilir.

***"Azərbaycan"***

# AZAL-ın Rumıniyaya ilk reysinin açılışı ilə bağlı tədbir olub

**Azərbaycan Hava Yollarının (AZAL) Rumıniyaya baş tutan ilk uçuşu ilə əlaqədar Buxarestdə geniş məlumatlandırıcı tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Rumıniyanın hökumət nümayəndələri, aparıcı turizm şirkətlərinin nümayəndələri, diplomatik təmsilçilər, Rumıniyada yaşayan həmvətənlərimiz iştirak ediblər. Rumıniya hökumətinin baş katibi Mirçəa Abrudan qeyd edib ki, bu reysin açılması məhz Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti nəticəsində mümkün olub. M.Abrudan Rumıniyanın energetika naziri Sebastian Burdujanın Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olmağını və bu məsələni qaldırdıqda Prezidentin dərhal tapşırıq verdiyini, bu layihənin səmərəli olduğuna inamını bildirib. O, diqqətə çatdırıb ki, bu reysin açılması xalqlar arasında körpü rolunu oynayacaq.

Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov bildirib ki, dostluq, qardaşlıq, strateji tərəfdaşlıq münasibətləri üçün bu reysin xüsusi əhəmiyyəti var. Turist axınının çoxalması ölkələrin daha yaxından tanınmasına gətirib çıxaracaq.



Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare bu hadisənin tarixi gün olduğunu xüsusi vurğulayıb. O qeyd edib ki, reysin açılmasında Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna rolu var. Diplomat Azərbaycan və Rumıniyanın tranzit ölkə kimi Avropa və Asiyaya açılan qapı olduğunu deyib. O, Azərbaycanın həm uzunmüddətli, həm də həftəsonu istiqamət kimi çox maraqlı və cəlbedici yer olduğunu bildirib.

Dövlət Turizm Agentliyinin aparat rəhbəri Kənan Qasımov agentliyin strategiyası, turizm axınının çoxalması üçün görülən fəaliyyət barədə məlumat verib. Qeyd olunub ki, Rumıniya Azərbaycan üçün çox mühüm bazardır və yeni reysin açılması mədəniyyətlərin, xalqların qovuşmasını sürətləndirəcək.





# Mədəniyyət





**Şəxsiyyətlər və ömürlər**

## Sənəti ilə məktəb yaradan aktyor

**O, yüz il öncə, 1924-cü il iyunun 7-də Bakıda dünyaya gəlib. Deyilənlərə görə, atası ona Şöklü Məliyin şərəfinə bu adı verib. Məlik Dadaşov ailədə üç qardaşın kiçiyi, evin sonbeşiyi olub.**



Atası Yusif Nobel qardaşları ilə birlikdə çalışmışdı. Özü də neft buruqlarının sahibi idi. Arxivlərdə qalmış bunu təsdiq edən sənədlər sovet hakimiyyəti illərində onun başının bəlası olur. 1937-ci ildə Yusif Dadaşovu Sibirə sürgün edirlər. Haqsız ittiham olunanların əksəriyyəti kimi o da sonralar bəraət alır...

Anası evdar qadın idi. Ailəsinin qayğısını çəkir, üç istedadlı oğul böyüdürdü. Sonralar ailənin böyük oğlu Salman Dadaşov aktyor olur. "Onun böyük ürəyi" filmində Oqtay rolu Salmanı tanıdır. Uzun müddət Sumqayıt teatrına rəhbərlik edir. Ailənin ortancıl övladı Süleyman Dadaşov da istedadlı musiqiçi idi, qarmonda, pianoda gözəl ifa edirdi. Ancaq o, bu bacarığını yalnız ailə məclislərində göstərirdi. Riyaziyyat müəllimi idi. Universitetdə dərs deyirdi.

Məlik Dadaşov uşaqlıq illərindən incəsənətə meyilli idi. Amma orta məktəbi bitirəndə sənədlərini Tibb İnstitutuna (indiki Azərbaycan Tibb Universiteti) verdi. Qəbul olundu. Tələbə kimi dərslərdə iştirak etməyə başladı. Ancaq ürəyi onu başqa sahəyə - teatr sənətinə, səhnəyə çəkirdi. Böyük Vətən müharibəsinin başlaması Məlik Dadaşovu nə tibbi təhsilini tamamlamağa, nə də könlünün səsini dinləyib incəsənət aləminə keçməyə qoydu. O, 1941-ci ildə cəbhəyə yollandı. 1943-cü ildə döyüşdə beynindən zədə aldı. Müalicəsi uzun sürdü. Məlik Dadaşov müalicədən sonra hərbi hissələrdə musiqiçi kimi fəaliyyət göstərdi. 1945-ci ildə müharibədən qayıtdı. Və qəlbinə yatan sənətin ardınca getdi... 1945-ci ildə Gənc Tamaşaçılar Teatrında aktyor kimi işə götürüldü. Bu sahədə ali təhsil almaq arzusunu da gerçəkləşdirdi. Azərbaycan Teatr İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Adil İsgəndərovun sinfinə daxil oldu.

1945-ci ildə Zaqatalada yenicə açılmış teatrda səhnə fəaliyyətinə başladı. Gənc aktyor həmin teatrda əsas rolların ifaçılarından biri oldu.

Məlik Dadaşov 1950-ci ildə Teatr İnstitutunu bitirdi. Məşədi Əzizbəyov adına Akademik Dram Teatrında (hazırda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) işə başladı. Həmin teatrda ilk dəfə "Ailə namusu" tamaşasında oynadı. İstedadı və peşəkarlığı aktyoru bu teatrda da tezliklə fərqləndirdi, tanıtdı və məşhurlaşdırdı.

Yüzdən artıq tamaşada rol aldı. "On ikinci gecə", "Canlı meyit", "Fərhad və Şirin", "Sənsiz", "Nağıl başlananda" və digər tamaşalarda ona həvalə edilən rolları elə oynadı ki, izləyən hər kəsi heyran qoydu.

Məlik Dadaşov onlarca filmə çəkildi. "Axırıncı aşırım"da Qəmlo, "Dəli Kür"də Molla Sadıq, "Koroğlu"da Bolu bəy, "O dünyadan salam"da Şeyx Nəsrullah, "Birisi gün gecə yarısı"nda Nəriman Nərimanov, "Bir məhəlləli iki oğlan"da Nazif, "Ulduzlar sönmür"də general Mehmandarov, "26 Bakı komissarı"nda Əzizbəyov, "Müsahibə götürən adam"da Niyaz xan və digər rollar aktyor Məlik Dadaşovun adını kino tariximizə əbədi yazdı. Müəllimi Adil İsgəndərov "Axırıncı aşırım" filmində Kərbəlayi roluna görə ona verilən mükafatdan imtina edərək "Bu mükafat Məlik Dadaşova düşür, Qəmlonu yaratdığına görə" dedi.

Məlik Dadaşov həyatda çox ayrılıqlar görsə də, onu ən çox sarsıdan qızının ölümü oldu. İkinci evliliyindən dünyaya gəlmiş iki qızından biri gənc yaşlarında xərçəng xəstəliyindən dünyasını dəyişdi. Məlik Dadaşov "Mən artıq yaşaya bilməyəcəm" dedi...

Aktyor dördüncü övladının - Gülnarənin anası ilə 1964-cü il İncəsənət Universitetində işləyərkən tanış olmuş, 1966-cı ildə ailə qurmuşdu. Atasını özünə həm də yaxın dost, sirdaş bilmiş Gülnarə xanım müsahibələrində Məlik Dadaşovun yaradıcılığı boyu iki rolu - erməni rolunu, bir də "Ölülər"də Şeyx Nəsrullahı oynamaq istəmədiyini söyləyib: "Şeyx Nəsrullahı ona görə oynamaq istəmirdi ki, özü axır vaxtlar namaz qılırdı. Deyirdi, mən Allaha ibadət eləyirəm, amma "Ölülər"də Allaha qarşı çıxıram. "Fəryad" filmində isə düşmən obrazı yaratmalı idi. Bu rolu heç oynamaq istəmirdi".

Bu filmin tamaşaçıları erməni hərbçisinə olan nifrətlərini rolun ifaçısına da yönəldirdilər. Hələ "Fəryad" filminin premyerasında Məlik Dadaşov yaxınlığında əyləşmiş tamaşaçıların söyüşünü eşidirdi.

Nə istedadı, nə məşhurluğu ona sənətdə əngəl yaradanları çəkindirmədi. Məlik Dadaşov uzun illər çalışdığı teatrdan elə uzun çəkişmələr səbəbindən ayrıldı. Aktyor arabir bəzi rollarla səhnəsinə çıxdığı Səməd Vurğun adına Rus Dram Teatrına direktor göndərildi. İki il sonra, 1991-ci ildə isə həmin teatrdan təqaüdə çıxarılması adı ilə uzaqlaşdırıldı.



Bundan sonra işemiya keçirdi, iki ay xəstəxanada yatdı. Məlik Dadaşovu müalicədən sonra Həsənağa Turabov yenidən Milli Dram Teatrına dəvət etdi. O, artıq yalnız aktyor deyil, həm də rejissor kimi fəaliyyət göstərməyə başladı. Bir müddət sonra öz istəyi ilə teatrdan ayrılıb yalnız müəllimlik fəaliyyəti ilə məşğul oldu.

İllər boyu gördüyü haqsızlıqların gətirdiyi mənəvi sarsıntılar səhhətinə mənfi təsir göstərmişdi. Bir gün yenə Tədris Teatrında tələbələrlə "Arşın mal alan"ı məşq edirdi. Başı ağrıdığı üçün tələbələrə zalda oturub mizan verirdi. Amma birdən səhhətini unudub ayağa qalxdı ki, verdiyi epizodu necə canlandırmalı olduğunu tələbəyə göstərsin. Müvazinətini itirdi. Yıxılanda gicgahı yaxınlıqdakı stolun küncünə dəydi. Xəstəxanaya aparılan aktyor altı gün sonra, 1996-cı il dekabrın 2-də vəfat etdi.

Görkəmli kino və teatr aktyoru, Xalq artisti, Dövlət mükafatı laureatı Məlik Dadaşov Azərbaycan teatr və kino sənətində özünəməxsus yol keçdi. Bənzərsiz aktyorun oynadığı rollar yalnız tamaşaçı sevgisi qazanmadı. Həm də bu sənəti seçənlər üçün baxdıqca, dinlədikcə dərs alacaqları bir məktəb oldu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Ədəbi simalar**

## Özünəməxsus yaradıcılıq üslubu olan şair

**Dövrümüzün sevilən, seçilən şairlərindən, dramaturqlarından, ziyalılarından biri də Səməd Vurğunun yadigarı Xalq şairi Vaqif Səmədoğludur. Vaqif Səmədoğlu ədəbi düşüncəmizdə, sənət aləmində Avropa tipli intellektual şəxsiyyət və şair kimi iz qoyub. O, istər şair-publisist, istər dramaturq-ssenarist, istərsə də musiqi bilicisi kimi sərbəst yaradıcı düşüncəsini hər zaman qoruyub saxlamağı bacarırdı.**



Ötən əsrin 60-cı illərində ölkəmizdə ədəbi mühitə yeni ab-hava gətirən istedadlı sənətkarlardan biri olan Vaqif Səmədoğlu yarım əsrdən artıq dövr ərzində xalqımızın söz xəzinəsinə böyük töhfələr verib. Vaqif Səmədoğlu həyat və zaman, dünya və insan haqqında lirik-fəlsəfi düşüncələrini özünəməxsus üslubda ifadə edib. Şair müraciət etdiyi bütün mövzularda vətənpərvərliyi daim diqqət mərkəzində saxlayıb.

Əsərləri ilə qəlbləri fəth edən Vaqif Səmədoğlu 1939-cu il iyunun 5-də Bakıda anadan olub. O, Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan Səməd Vurğunun övladı idi. Şair ədəbi-mədəni mühitdə böyümüş, uşaqlıqdan evlərində ailəsinin ünsiyyətdə olduğu və dostluq etdiyi tanınmış musiqiçiləri, yazıçıları, şairləri, rəssamları görmüşdü. V.Səmədoğlu orta təhsil aldığı indiki Bülbül adına musiqi məktəbini fortepiano sinfi üzrə 1956-cı ildə əla qiymətlərlə başa vurub və filarmoniyada maestro Niyazinin rəhbərlik etdiyi simfonik orkestrlə S.Raxmaninovun 1-ci konsertini ifa edib. Həmin il qəbul olduğu Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano sinfini 1962-ci ildə uğurla başa vuraraq Azərbaycan Gənclərinin 3-cü Festivalında fortepiano ifaçılığı üzrə laureat adını qazanıb.

Vaqif Səmədoğlunun musiqi janrının bütün sahələrini peşəkar səviyyədə dərindən bilməsi, Şopen, Mosart, Raxmaninov və başqa klassiklərə ehtiramı, Amerika cazını və ümumiyyətlə, modern cazı dərindən bilməsi və fortepianoda gözəl ifası diqqət çəkib. Şair ömrünün sonuna kimi musiqi ilə nəfəs alan yaradıcı insan olub. Xalq şairinin yaradıcılığı hikmətli ifadələrlə, müdrik kəlamlarla zəngindir. Hansı janrda yazırsa-yazsın, orada böyük istedadın izləri görünür. O, milli dramaturgiyamızı dolğun məzmunlu əsərləri ilə zənginləşdirərək yeni mərhələyə yüksəldib. Vaqif Səmədoğlu insan-cəmiyyət münasibətlərinin dərinliklərinə nüfuz etməyi bacaran sənətkar idi. Onun yaradıcılığı milli mənbələrlə sıx bağlı olduğu üçün böyük maraq doğururdu. Xalq ləhcəsindən, şivəsindən böyük ustalıqla istifadə edən sənətkarın özünəməxsus fərqli yumoru, üslubu əsərlərinə oxucu sevgisini daha da artırıb.

Azərbaycan teatrlarında səhnəyə qoyulmuş "Bəxt üzüyü", "Yayda qartopu oyunu", "İntihar", "Generalın son əmri", "Mamoy kişinin yuxuları" tragikomediyaları və "Yaşıl eynəkli adam" trilogiyası, "Yumurta" kimi televiziya filmləri böyük tamaşaçı məhəbbəti qazanıb. Onun pyeslərində diqqəti çəkən həm də personajların dilidir. Onların hər biri öz dilində danışır. Bir çox əsərində səslənən fikir və deyimlər bu gün xalq arasında folklor nümunəsi kimi yayılıb. Bu da şairin təfəkkürünün dərinliyindən xəbər verir.

Onun "Yeddi şeir" adlı ilk yaradıcılıq məhsulu 1963-cü ildə "Azərbaycan" jurnalında dərc olunub. Bundan sonra Vaqif Səmədoğlunun dövri mətbuatda əsərləri vaxtaşırı çap olunub. Şairin əsərləri bir çox xarici dillərə tərcümə edilib, kitabları MDB ölkələrində, Türkiyə və İranda nəşr olunub.

Şairin yaradıcılığına dövlətimiz tərəfindən yüksək qiymət verilib. Vaqif Səmədoğlu 1999-cu ildə Xalq şairi adına layiq görülüb, 2004-cü ildə "Şöhrət", 2009-cu ildə "Şərəf", 2014-cü ildə isə "İstiqlal" ordenləri ilə təltif edilib. Vaqif Səmədoğlu 2015-ci il yanvarın 28-də uzun sürən xəstəlikdən sonra Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn edilib.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**Səhnə xadimləri**

## Teatr və kino tariximizə əbədi möhrünü vuran sənətkar

**Həyat heç üzünə gülməmişdi. Gözünü açıb yoxsulluq, çətinlik görmüşdü. İki yaşı olanda atasının dünyasını dəyişməsi ailənin vəziyyətini daha da ağırlaşdırmışdı.**

Bakıda neft sənayesinin inkişafı ilə əlaqədar ötən əsrin əvvəllərində Cənubi Azərbaycandan insanlar iş üçün, dolanışıq dalınca Bakıya axışırdılar. Gələnlərin arasında 13 yaşlı Rza da var idi. Azyaşlı yeniyetmənin Bakı həyatı da rahat olmur. O, həyatda qalmaq, yaşamaq üçün mücadilə edir. Küləkli şəhərdə arzuladıqlarını tapa bilməyən gənci həyatın ruzigarı 1916-cı ildə Pyatiqorski şəhərinə atır. Bir müddət dəmiryol vağzalında yük daşıyır, sonra pinəçilik edir. Ən qəribəsi isə iranlı gəncin iki il könüllü rus ordusunda hərbi xidmət etməsi olur.

Söhbət Xalq artisti, teatr və kino aktyoru, teatr rejissoru Rza Rüstəm oğlu Əfqanlıdan gedir. Əslən Cənubi Azərbaycanın Sərab şəhərindən olan aktyor Rza Rüstəm oğlu Əfqanlının bu il anadan olmasının 125 illiyidir.

1920-ci ildə Bakıya qayıdan gənc neft mədənlərində işə düzəlir. Eyni zamanda Sabunçu qəsəbəsindəki dram dərnəyinə üzv yazılır. Rza Əfqanlı dram dərnəyində aktyorluq edərkən akademik teatrın aktyoru Xəlil Hüseynovla tanış olur. Bu tanışlıq aktyor olmaq istəyən gəncin həyatının yeni mərhələsinin başlanmasına gətirib çıxarır. O, Xəlil Hüseynovun təşəbbüsü ilə Mərkəzi Dövlət Səyyar Teatrında işə düzəlir. Bir müddət orada fəaliyyət göstərdikdən sonra 1923-cü ildə Milli Dram Teatrının truppasına işə götürülür.

Aktyor Milli Dram Teatrında işləyə-işləyə paralel olaraq 1926-cı ildə Bakı Teatr Məktəbini bitirir. 1929-cu ildə rejissor və aktyor İbrahim İsfahanlının dəvəti ilə Tiflis Azərbaycan Dövlət Teatrında işə başlayır. 1933-



1934-cü il teatr mövsümündə isə Türkmənistan Respublikasının paytaxtı Aşqabaddakı "Az Millətlər Teatrı"nın ("Natsmen" Teatrı) baş rejissoru olur. 1935-ci ilin əvvəllərində yenidən Milli Dram Teatrının kollektivinə qayıdır.

1930-cu illərdə Bakıda repressiya hökm sürürdü. Bu arada İran vətəndaşları da ucdantutma geriyə deportasiya edilirdilər. Rza Əfqanlı aktyor olduğu və teatrda çalışdığı üçün İran vətəndaşlığından imtina edib Bakıda qalır. İrana getmədiyi üçün onu həbs edirlər. O zamanlar "Karamel fabriki" adlanan binada məhkumluq həyatı yaşayan Əfqanlı həbsxananın pəncərəsindən baxanda üzbəüz binada yaşayan Sona adlı bir bəy qızını görüb ona aşiq olur. Həbsxana həyatı bitdikdən sonra aktyor həmin xanımla ailə həyatı qurur. Bu nikahdan onların Xumar adlı qızı dünyaya gəlir.

İkinci dəfə isə Rza Əfqanlı geyim üzrə rəssam olan Bədurə xanımla ailə qurur. Aktyorun üçüncü evliliyi isə teatrda rəqqasə olan Tahirə xanımla baş tutur. Bu evlilikdən aktrisa Ofeliya Aslan dünyaya gəlir.

Rza Əfqanlı möhkəm hafizəsi ilə fərqlənən nadir insanlardan olub. Onun mətn əzbərləmək qabiliyyəti, obrazın xarakterinə uyğun şəkildə monoloq söyləməsi, səhnə jestləri rejissorların da diqqətini çəkirdi. Bakıya qayıdıb yenidən Milli Dram Teatrında fəaliyyətini davam etdirən aktyora əsasən tamaşalarda baş rolları yaratmaq etibar edilirdi. Bəzən elə olurdu ki, aktyor eyni tamaşada müxtəlif xarakterli bir neçə obraz yaradırdı. Mütəxəssislərin fikrincə, Rza Əfqanlı həmin rolları tamaşaçıya elə ustalıqla təqdim edirdi ki, onlar aktyorun bir neçə obraz yaratdığını hiss etmirdilər. Janr əlvanlığı, estetik zənginliyi ilə seçilən, bir-birindən maraqlı obrazlar yaradan aktyorun fəaliyyəti diqqətdən yayınmır, tamaşaçıların hüsn-rəğbətini qazanırdı.

Aktyor "Kəndlilər" filmində Bağırovun obrazını yaratdığı üçün Bağırov öz əli ilə Rza Əfqanlının sinəsinə layiq olduğu ordeni taxır. Rza Əfqanlının ömür yolu kimi, səhnə həyatı da rəvan olmayıb. O, 1963-cü ildə teatrdan haqsız olaraq uzaqlaşdırılıb. Uzun illər işsiz qalan (arada ancaq bir neçə filmə çəkilib) Rza Əfqanlı bir müddət Sumqayıt Dövlət Dram Teatrında çalışıb.

1943-cü ildə Adil İsgəndərov aktyoru yanına çağıraraq "Otello" tamaşası üzərində işləməyi təklif edir. Bu tamaşada Rza Əfqanlıya Otello rolu həvalə edilir. Buna razı olmayan Əfqanlı bu obrazı Ələsgər Ələkbərovun daha yaxşı yarada biləcəyini söyləyir.

Onun milli teatrımızın inkişafı yolundakı xidmətləri və səhnədəki səmərəli fəaliyyəti yüksək qiymətləndirilir. Ömrünün 39-cu ilində Əməkdar, 44-cü ilində Xalq artisti adına layiq görülür. 1948-ci ildə Ənvər Məmmədxanlının "Şərqin səhəri" tamaşasında oynadığı Fərhad roluna görə "Stalin" mükafatı alır.

Rza Əfqanlı teatr və kino tariximizə öz möhrünü vuran nadir sənətkarlardandır. "Bakılılar", "Kəndlilər", "Yeni horizont", "Dağlarda döyüş", "Aygün", "26-lar", "O olmasın, bu olsun", "Qanun naminə", "Mən ki, gözəl deyildim" və sairə filmlərdə bir-birindən gözəl, olduqca mənalı, maraqlı, rəngarəng obrazlar qalereyası yaradan aktyor tamaşaçıların yaddaşına əbədi olaraq adını yaza bilib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Akademik Milli Dram Teatrı beynəlxalq forumda

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Qazaxıstanda keçirilən MDB, Baltikyanı ölkələr və Gürcüstan gənclərinin V Teatr Forumunda ölkəmizi təmsil edir.**

İyunun 9-dək davam edəcək beynəlxalq tədbirdə iştirak Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Teatr Xadimləri İttifaqının təşəbbüsü və iştirakı ilə həyata keçirilir. Mədəniyyət Nazirliyindən bildirilib ki, Almatıda festivalın təntənəli açılış mərasimi olub.

Forumda teatrşünasların, dramaturqların, teatr rəssamlarının iştirakı ilə yanaşı, gənc rejissorların və onların hazırladıqları tamaşaların iştirakı da proqrama daxildir.

Beynəlxalq forumda iştirak edən 22 nəfərlik qrupda Azərbaycanı gənclərdən Cavid Zeynallı, Dağlar Yusif, Abdulla Elşadlı, Ümüd Abbaszadə, Sahib Əhmədov, Elmira Üzeyirova və Fərəh Quliyeva təmsil edir.

Forumun maarifləndirici proqramında teatr rəssamları, dramaturqlar, tənqidçilər də iştirak edəcək, master-klaslar və sərgi təşkil olunacaq.

Həmçinin forum çərçivəsində K.Kujamyarov adına Dövlət Musiqili Komediya Teatrında iyunun 7-də Akademik Milli Dram Teatrının "Sənsiz" tamaşası nümayiş olunacaq.

Yazıçı-dramaturq Şıxəli Qurbanovun "Sənsiz" pyesi əsasında hazırlanan eyniadlı səhnə əsərinin quruluşçu rejissoru Nihad Qulamzadə, bəstəkarı Vüqar Babayev, rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Vaqifoğlu, rejissor assistentləri Xanım Həsənova və Könül Kərimovadır.

Rolları Xalq artisti Mehriban Zəki (Sevinc), Əməkdar artist Füzuli Hüseynov (Tərlan), aktyorlar İlahə Həsənova (Maral), Elçin Əfəndi (Fərhad), Elsevər Rəhimov (gənc Tərlan), Lalə Süleymanova (gənc Sevinc) canlandırırlar.



## Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərinin 950 illik yubileyi qeyd ediləcək

**İyunun 3-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" (Türk dillərinin izahlı lüğəti) əsəri etnoqrafik mənbə kimi" adlı "dəyirmi masa" keçirilib.**



İnstitutun elmi işlər üzrə direktor müavini İlqar Niftəliyev bildirib ki, Mahmud Kaşğari "Divani lüğət-it-türk" əsərini öz dövrünün ədəbi dili sayılan Xaqaniyyə dilində yazıb, burada 26 türk dialektində söz və nümunələr əksini tapıb.

Vurğulanıb ki, Kaşğari türk dili, tarixi, coğrafiyası, folkloru və mifologiyası ilə bağlı ədəbi xəzinə yaradıb. Türk Dövlətləri Təşkilatı çərçivəsində siyasi, iqtisadi, sosial və mədəni əlaqələrin genişləndiyini vurğulayan tarix elmləri doktoru deyib ki, Mahmud Kaşğari sanki min il əvvəl Şərqdə gedən siyasi hadisələrin mənzərəsini aydın görüb, bu proseslərin inkişaf istiqamətini böyük uzaqgörənliklə duyub.

Tarix elmləri doktoru Güllü Yoloğlu bildirib ki, Mahmud Kaşğari 700 səhifəlik əsəri üzərində təqribən 15 il işləyib, onu 1083-cü ildə tamamlayıb. Natiq onu da vurğulayıb ki, "Divani lüğət-it-türk"ün 950 illik yubileyi 2024-2025-ci illərdə UNESCO çərçivəsində qeyd olunacaq tədbirlər siyahısına daxil edilib. Bu haqda qərar UNESCO-nun Baş Konfransının 42-ci sessiyasında verilib.

Çıxış edənlər bildirib ki, Mahmud Kaşğari atalar sözləri və şeirlərdən istifadə edib və bu baxımdan türk dillərinin zənginləşməsinə böyük töhfə verib.

Vurğulanıb ki, "Divani lüğət-it-türk" əsəri türk dillərinin tarixi inkişafını, leksikologiyasını öyrənməkdə, müqayisəli qrammatikasını tərtib etməkdə ilkin mənbələrdən biridir.

## Nizami Gəncəvinin "Xəmsə"si türk dilində nəşr olunacaq

**Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi irsinin dünyada tədqiqi və təbliğini həyata keçirmək məqsədilə Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi dahi şairin "Xəmsə"sinə daxil olan bütün əsərlərin orijinaldan türk dilinə tərcüməsi və nəşri layihəsinə start verib.**

Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan bütün əsərlərin türk dilinə tərcüməsi məqsədilə Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovla Ərzurum Atatürk Universiteti Fars Dili və Ədəbiyyatı bölümünün müdiri, professor, tərcüməçi Nimet Yıldırım arasında müqavilə imzalanıb.

Müqaviləyə əsasən, Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə "Xəmsə"yə daxil olan "Sirlər xəzinəsi", "Leyli və Məcnun", "Xosrov və Şirin" və "Yeddi gözəl" əsərləri ilk dəfə türk dilinə tərcümə edilərək nəşr olunacaq.

# Ağdamın "Nənə qızlar"ı yenidən səhnədədir



**Birqərinəlik vətən həsrətinin, nisgilinin ardından Ağdamın Abdal-Gülablı kəndinin şan-şöhrətli "Nənə qızlar" folklor ansamblı yenidən səhnəyə qayıdıb.**

32 illik fasilədən sonra ilk dəfə 2023-cü il noyabrın 8-də - Zəfər Günündə sevənlərinin görüşünə gələn "Nənə qızlar" bu il Ağsuda keçirilən beynəlxalq folklor festivalındakı möhtəşəm çıxışı ilə ansambla yenidən böyük diqqət və maraq cəlb edib.

"Tərəkəmə Çərşənbəsi - V Beynəlxalq folklor festivalının keçirilməsi" layihəsi çərçivəsində Ağsu rayonunun Gəgəli kəndində keçirilən ikigünlük beynəlxalq folklor festivalında "Nənə qızlar" ansamblındakı qızların çıxışı, qoca nənənin ifa etdiyi "Qarabağ şikəstəsi", maraqlı rəqs hamının, xüsusilə də xarici festival iştirakçılarının böyük marağına və rəğbətinə səbəb olub. Bütün iştirakçılar rəqsə qoşulublar və festivalda xüsusi şənlik ab-havası yaranıb.

Beynəlxalq festival Mədəniyyət Nazirliyinin dəstəyi, "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin təşkilatçılığı ilə ənənəvi olaraq Gəgəli kəndində - Tərəkəmə yurdunda keçirilib. Bu festivalda respublikamızın müxtəlif bölgələrindən folklor qrupları iştirak ediblər.

Məlumat verək ki, "Nənə qızlar" folklor ansamblı 1982-ci ildə Ağdamda yaradılıb və böyük səhnələrdə çıxış edərək uğurlar qazanıb.

1993-cü ildə Ermənistan tərəfindən Ağdam rayonunun işğal olunması nəticəsində bu ansambl da öz fəaliyyətini dayandırıb. Bir də 2023-cü il noyabrın 8-də Ağdamın Quzanlı qəsəbəsində keçirilən Zəfər bayramında ansambl yenidən fəaliyyətini bərpa edib. BDU-nun "Dədə Qorqud" elmi tədqiqat laboratoriyasının müdiri, folklorşünas Almara Nəbiyeva qrupun əvvəlki üzvlərini və yeni istedadlı qızları ansambla dəvət edərək səhnəyə yenidən qaytarıb.

A.Nəbiyeva bildirir ki, "Nənə qızlar" folklor ansamblının fəaliyyətini daha da genişləndirmək məqsədi ilə mötəbər və ziyalı insanlar ansamblın fəaliyyətinə yaxından dəstək olurlar. Folklorşünas alim milli adət-ənənələrimizi yaşadan "Nənə qızlar" folklor ansamblının bundan sonra da yeni-yeni uğurlara imza atacağına əmin olduğunu söyləyib.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*


# Azercell

## abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, müştərilərə təklif olunan xidmət və tariflərin optimallaşdırılması, abunəçilərə daha rahat istifadə imkanının təmin edilməsi məqsədi ilə 1 iyul 2024-cü il tarixdən etibarən fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş ödəniş (danışıq) kartlarının nominalına uyğun olaraq istifadə müddəti aşağıdakı kimi tətbiq ediləcək:

| Kartın nominalı (AZN ilə) | İstifadə müddəti (təqvim günü) |
|---|---|
| 1 | 5 |
| 2 | 10 |
| 3 | 20 |
| 5 | 30 |
| 10 | 60 |
| 25 | 90 |
| 50 | 120 |
| 100 | 120 |

Bütün nominallı (1, 2, 3, 5, 10, 25, 50 və 100 AZN) ödəmə (danışıq) kartlarında yeni ödəmə kartı yükləmə müddəti ödəmə kartlarının nominalından asılı olaraq müəyyən edilən kartın istifadə müddəti + 180 gün kimi saxlanılır. Beləliklə də abunəçi bu müddət ərzində yeni ödəmə kartı yükləyib istifadə imkanını yeni müddətə artırmaqla eyni zamanda həmin yeni müddət bitənədək həm daha əvvəl yüklənmiş və istifadə edilməmiş məbləğlərdən, həm də yeni yüklədiyi ödəmə kartının məbləğindən istifadə imkanına malik olacaq.

Göstərilənlərlə yanaşı, fakturasız (SimSim) xətt sisteminə aid nömrələrin balansına elektron ödəniş üsulları ilə sərbəst seçilən nominalda pul vəsaitinin yüklənməsi imkanı təmin edilir. Fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş 1, 2, 3, 5, 10, 25, 50 və 100 AZN nominallarının əvəzinə elektron ödəniş üsulları vasitəsi ilə həyata keçirilən ödənişlərə görə aşağıdakı cədvəldə göstərilən aralıqda məbləğlər və müvafiq istifadə müddətləri təyin edilir:

| Ödəniş məbləğinin aralığı | İstifadə müddəti (təqvim günü) |
|---|---|
| 1 AZN-dən - 1,99AZN-dək | 5 |
| 2 AZN-dən - 2,99 AZN-dək | 10 |
| 3 AZN-dən - 4,99 AZN-dək | 20 |
| 5 AZN-dən - 9,99 AZN-dək | 30 |
| 10 AZN-dən - 24,99 AZN-dək | 60 |
| 25 AZN-dən - 49,99 AZN-dək | 90 |
| 50 AZN-dən - 99,99 AZN-dək | 120 |

Elektron ödəniş üsulları vasitəsi ilə ödəniş üçün daxil edilən məbləğin minimal həddi 1 AZN təşkil edir.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


# MEDİA vətəndaşları saxta kampaniyalara qarşı sayıq olmağa çağırıb

**Son günlər elektron informasiya resurslarında auditoriyanı çaşdırmaq məqsədilə yaradılmış hiperlinklər vasitəsilə yalan məlumatların tirajlanması halları müşahidə olunmaqdadır.**

Belə ki, Azərbaycan Respublikasının Prezidentinin adından istifadə olunmaqla hazırlanan saxta müraciətdə istifadəçilərə maddi yardım vəd edilir və elektron hesab yaradaraq qeydiyyatdan keçməklə bu yardımdan faydalanmaq təklif edilir. Bu barədə AZƏRTAC-a Medianın İnkişafı Agentliyindən (MEDİA) məlumat verilib. Bildirilib ki, qeyd olunan müraciət bütün dünyada yeni təhdid növü kimi qiymətləndirilən kiber dələduzluq nümunəsidir.

Agentlik Azərbaycan vətəndaşlarını, o cümlədən media nümayəndələrini və ictimai fəalları bu kimi hallarla bağlı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumatlara söykənən kampaniyalara qarşı sayıq olmağa çağırıb.


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə

## *2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




# Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyində olan "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun yarımstansiyaları üçün lazım olan avadanlıqların satın alınması üzrə

## *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 12 iyun 2024-cü il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***



## "Rabitə Quraşdırma" ASC-nin səhmdarlarının nəzərinə!

15 iyun 2024-cü il tarixdə "Rabitə Quraşdırma" ASC-nin səhmdarlarının yığıncağına dəvət olunursunuz. Gündəlikdə olan məsələlər:

1. **Direktorun təyin edilməsi.**
2. **Səhmdarların siyahısında dəyişiklik edilməsi.**

**Ünvan: Bakı şəhəri, Nizami rayonu, Əlişir Nəvai küçəsi, 13.**

***"Rabitə Quraşdırma" ASC***


# Haaqada "Mən sülhə səs verirəm" adlı rəsm sərgisi və musiqili proqram təşkil edilib

**Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Benelüks Azərbaycanlıları Konqresinin (BAK) nəzdində fəaliyyət göstərən "Körpə Fidanlar" uşaq musiqili teatr qrupu "Mən sülhə səs verirəm" adlı rəsm sərgisi və musiqili proqram təşkil edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Diaspora ilə İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Respublikasının Niderland Krallığındakı səfirliyinin dəstəyi ilə təşkil olunmuş tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.



Tədbirdə şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Benelüks Azərbaycanlıları Konqresinin sədri Elsevər Məmmədov çıxış edərək, Vətənimizin dünyada sülhün və əmin-amanlığın tərəfdarı olduğunu söyləyib. Azərbaycan səfirliyinin Niderlanddakı konsulu Səbinə Sadıqlı uşaqları bayram münasibətilə təbrik edib.

Tədbirdə çıxış edənlər, eləcə də "Körpə Fidanlar" uşaq musiqili teatr qrupunun rəhbəri S.Cəfərova sülh və əmin-amanlıq içində yaşamağın vacibliyini qeyd edərək, dünyanın bir çox yerində uşaqların müharibə şəraitində yaşadığını və hətta həyatlarını itirdiyini xatırlayıblar.

Tədbirdə uşaqlar milli musiqimizdən, rəqslərimizdən ibarət konsert proqramı ilə çıxış ediblər. Uşaqlar müxtəlif dillərdə "Biz sülh istəyirik!" mesajı ilə beynəlxalq ictimaiyyətə müraciət ediblər.

# Bu gün Bakıda gündüz 31-36° dərəcə isti olacaq

Azərbaycanda iyunun 5-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 40-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq rayonlarda qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi gözlənilir. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 33-38° isti, dağlarda gecə 8-13°, gündüz 16-21°, bəzi yerlərdə 26° isti olacağı ehtimal edilir.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20



Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Daxili İşlər Nazirliyinin Maliyyə Plan İdarəsinin kollektivi Səxavəddin Abdullayevə qardaşı
**ŞƏRAFƏDDİN ABDULLAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi
**RAMİN VƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4410
Sifariş 1223

Qiyməti 60 qəpik